Xalqın qəzeti!

# Xalq qəzeti

№ 250 (30944) 26 noyabr 2025-ci il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi

# Azərbaycan Avropanın enerji habına çevrilir



*Azərbaycan iri həcmdə neft və qaz ixrac edən ölkələr arasında qısa müddətdə öz layiqli yerini tutmaqla, Avropanın enerji təhlükəsizliyi üzrə strateji müttəfiqə çevrilmiş və regional əməkdaşlıq məsələlərində konstruktiv rol oynayan etibarlı tərəfdaş olmuşdur. Ötən dövr ərzində neft siyasətində davamlı inkişaf nümayiş etdirən Azərbaycan bir sıra transmilli layihələrin həm təşəbbüskarı olmuş, həm də onların icrasında fəal iştirak etmişdir.*

*Biz nəhəng enerji infrastrukturu yaratmışıq ki, bu, Avrasiyanın enerji xəritəsini dəyişdirib. Bu gün Azərbaycan istehsalçı olaraq həm tranzit ölkələr, həm də istehlakçılar üçün daha təhlükəsiz şərait yaradıb. Bu gün enerji təhlükəsizliyi, əlbəttə ki, milli təhlükəsizliyə bərabərdir və hətta milli təhlükəsizlik gündəliyində ən başlıca yeri tutur.*

*İlham ƏLİYEV,*
*Azərbaycan Respublikasının Prezidenti*

Səhifə ⇨ 7

## Şuşa Forumu: Bakı–Ankara strateji tərəfdaşlığının yeni təşkilati və geosiyasi arxitekturası

**Şuşada təşkil olunmuş Azərbaycan–Türkiyə Beyin Mərkəzlərinin Birinci Forumu iki ölkənin strateji tandeminin intellektual arxitekturasını yenidən formalaşdırmaq niyyətinin açıq ifadəsidir. Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin təşkilatçılığı ilə toplaşan aparıcı tədqiqat qurumları, ekspertlər və akademik çevrələr Türk dünyasında strateji düşüncənin institusional əsaslarını möhkəmləndirməyə yönəlmiş bir platforma yaratdılar.**

Regional dinamikanın mahiyyətində duran transformasiya forumun diskussiyalarında dəfələrlə önə çəkildi. 44 günlük müharibənin yaratdığı güc balansı dəyişiklikləri, TDT-nin institusional çəkisinin artması və Orta Dəhliz ilə Transxəzər marşrutlarının yüksələn strateji rolu Azərbaycan və Türkiyənin siyasətini yeni məntiqə uyğunlaşdırmağı zəruri edir. Mövcud reallıqlar eyni zamanda qərar qəbul etmənin elmi-analitik bazasını gücləndirməyi, uzunmüddətli planlama ilə gündəlik siyasət arasında əlaqələndirici mexanizmlərin qurulmasını labüdləşdirir. Forum məhz bu boşluğu – praktiki siyasətin arxasında duran konseptual çərçivəni formalaşdırmağı hədəfləyir.

*(ardı 4-cü səhifədə)*



## Prezident İlham Əliyev Kəlbəcərin işğaldan azad olunmasının ildönümü ilə bağlı paylaşım edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Kəlbəcərin işğaldan azad olunmasının 5-ci ildönümü ilə bağlı sosial şəbəkə hesablarında paylaşım edib.**

**Paylaşımda "Zəfər Tariximəz: 25 Noyabr 2020-ci il Kəlbəcər" sözləri yer alıb.**


Azərbaycan dövlətçiliyinin ideoloji və siyasi təməli



Səhifə ⇨ 6

Azərbaycan–Ermənistan: sülh təmasları və gerçəkliyin diktəsi



Səhifə ⇨ 3

"Qoca qitə"də demokratiya böhranı



Səhifə ⇨ 3

İrəvanın ikibaşlı oyunu



Səhifə ⇨ 4

Azad torpaqların davamlı və balanslı inkişafı



Səhifə ⇨ 7

Labirintdən "doğru istiqamətə"



Səhifə ⇨ 9

## Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədri Zati-aliləri cənab Jelko Komşiçə

Hörmətli cənab Sədr,

Bosniya və Herseqovinanın milli bayramı münasibətilə Sizə və bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi və xoş arzularımı çatdırıram.

Azərbaycan ilə Bosniya və Herseqovina arasında əlaqələrin yüksələn xətt üzrə inkişafı məmnunluq doğurur. Daim artan siyasi təmaslarımız və fəal dialoqumuz bir sıra sahələrdə səmərəli qarşılıqlı fəaliyyətimiz ilə müşayiət olunur.

Əminəm ki, xalqlarımızın dostluğundan qaynaqlanan Azərbaycan-Bosniya və Herseqovina münasibətləri bundan sonra da birgə səylərimizlə inkişaf etməyə, əməkdaşlığımız möhkəmlənməyə davam edəcəkdir.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, dost Bosniya və Herseqovina xalqına daim əmin-amanlıq və rifah diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 21 noyabr 2025-ci il**

## Bruney Darüssalamın Sultanı Əlahəzrət Hacı Həssənal Bolkiaha

Əlahəzrət,

Azərbaycan Respublikası ilə Bruney Darüssalam arasında diplomatik münasibətlərin qurulmasının 30-cu ildönümü ilə əlaqədar Sizi və Sizin simanızda bütün xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından səmimiyyətlə təbrik edir, ən xoş arzularımı çatdırıram.

Otuz illik dövr ərzində ölkələrimiz arasında formalaşmış dostluq münasibətləri qarşılıqlı maraq doğuran bir sıra sahələrdə əməkdaşlığımızın inkişaf etdirilməsi üçün əlverişli imkanlar açmışdır.

Biz Bruney Darüssalam ilə dövlətlərarası münasibətlərimizi genişləndirmək və əməkdaşlığımızı yeni məzmunla zənginləşdirmək əzmindəyik. İnanıram ki, xalqlarımızın mənafelərinə uyğun olaraq Azərbaycan ilə Bruney Darüssalam arasında əlaqələrin möhkəmləndirilməsi, ikitərəfli qaydada və çoxtərəfli müstəvilərdə əməkdaşlığımızın dərinləşdirilməsi istiqamətində birgə səylərimizi bundan sonra da uğurla davam etdirəcəyik.

Fürsətdən istifadə edərək Sizə möhkəm cansağlığı, xoşbəxtlik, ali dövləti fəaliyyətinizdə müvəffəqiyyətlər, dost xalqınıza daim firavanlıq və rifah arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 24 noyabr 2025-ci il**

## Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Əs-səlamu aleykum və rəhmətullahi və bərəkətuhu.

Zati-aliləri.

Bruney Darüssalam ilə Azərbaycan Respublikası arasında diplomatik münasibətlərin qurulmasının 30-cu ildönümü münasibətilə Zati-alinizə səmimi təbriklərimi çatdırmaqdan böyük məmnunluq hissi duyuram.

Son otuz il ərzində ölkələrimiz arasında qarşılıqlı hörmət, anlaşma və ortaq dəyərlər əsasında səmimi və möhkəm dostluq münasibətləri formalaşıb. Əminəm ki, bu sıx münasibətlər qarşıdakı illərdə daha da güclənəcəkdir.

Həmçinin ölkələrimizin, xüsusilə də İslam Əməkdaşlıq Təşkilatı və Qoşulma Hərəkatı çərçivəsində yeni əməkdaşlıq imkanlarını araşdırmaq üçün birlikdə çalışmasını səbirsizliklə gözləyirəm. Bu mühüm qurumlarda birgə səylərimiz xalqlarımızın və çox geniş qlobal birliyin rifahı naminə sülhün, harmoniyanın və davamlı inkişafın daha da möhkəmlənməsinə olan ortaq öhdəliyimizi əks etdirir.

Bu əlamətdar hadisəni qeyd etdiyimiz zaman Allah-taala Zati-alinizə möhkəm cansağlığı, xoşbəxtlik və yeni uğurlar, Azərbaycan xalqına isə davamlı sülh, tərəqqi və rifah nəsib etsin.

Vəssəlamu aleykum və rəhmətullahi və bərəkətuhu.

***Hacı Həssənal Bolkiah,***
***Bruney Darüssalamın Sultanı***

## “2025-2029-cu illər üçün Layiqli Əmək üzrə Ölkə Proqramı”




**Azərbaycan ilə Beynəlxalq Əmək Təşkilatı arasında yeni “2025-2029-cu illər üçün Layiqli Əmək üzrə Ölkə Proqramı”nın imzalanması ilə əlaqədar görüş keçirilib.**

Söhbətdə əmək və əhalinin sosial müdafiəsi naziri Anar Əliyev, AHİK sədri Sahib Məmmədov, Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının prezidenti Məmməd Musayev, BƏT-in Layiqli Əməyə Texniki Dəstək Qrupunun, Şərqi Avropa və Mərkəzi Asiya ölkələri üzrə ofisinin direktoru Mixail Puşkin, BƏT-in Azərbaycandakı milli əlaqələndiricisi Yaşar Həmzəyev iştirak ediblər.

AHİK sədri Sahib Məmmədov vurğulayıb ki, dövlətimizin başçısı İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən sosial-iqtisadi islahatlar nəticəsində son illər ölkəmizdə əmək bazarının modernləşməsi, sosial müdafiə sisteminin gücləndirilməsi və məşğulluq imkanlarının artırılması istiqamətində mühüm nəticələr əldə olunub. “2025–2029-cu illər üçün Layiqli Əmək üzrə Ölkə Proqramı” da bu siyasətin məntiqi davamı olaraq, qarşıdakı illərdə sosial tərəfdaşlığın inkişafına, işçilərin rifahının yaxşılaşdırılmasına və əmək bazarının dayanıqlığına xidmət edəcək.

Sonra Anar Əliyev, Sahib Məmmədov, Məmməd Musayev və Mixail Puşkin “2025-2029-cu illər üçün Layiqli Əmək üzrə Ölkə Proqramı” imzalayıblar. Proqramın əsas məqsədi ölkəmizdə məşğulluğun artırılması, sosial müdafiə, əməyin mühafizəsi, əmək sahəsində beynəlxalq əmək normalarının tətbiqi, sosial dialoq kimi sahələrdə səylərin artırılması yolu ilə layiqli əməyin təminatı üzrə sosial-əmək münasibətlərinin daha da inkişaf etdirilməsidir.

***XQ***

## “Ələt azad iqtisadi zonasının yaradılması və fəaliyyətinin təşkili haqqında” Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 22 may tarixli 1032 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

# Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** “Ələt azad iqtisadi zonasının yaradılması və fəaliyyətinin təşkili haqqında” Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 22 may tarixli 1032 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 5, maddə 557 (Cild I); 2024, № 1, maddə 25) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 3-cü hissədə, 5.1-ci və 5.2-ci bəndlərdə “1–4” rəqəmləri “1–5” rəqəmləri ilə əvəz edilsin;

1.2. həmin Fərmana aşağıdakı məzmunda 5 nömrəli əlavə – Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin tərtib etdiyi “Bakı şəhər Qaradağ rayonu Ələt qəsəbəsinin inzibati ərazisində kənd təsərrüfatı təyinatlı torpaqlar kateqoriyasına aid, dövlət mülkiyyətində olan ərazidən Ələt azad iqtisadi zonasına ayrılması nəzərdə tutulan (V hissə) 1453,09 hektar torpaq sahəsinin yerquruluşu planı” əlavə edilsin.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 25 noyabr 2025-ci il**

## “Ərzaq təminatı xəritəsi” informasiya sisteminin yaradılması və bununla əlaqədar bir sıra məsələlərin tənzimlənməsi haqqında

# Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** “Ərzaq təminatı xəritəsi” informasiya sistemi yaradılsın.

**2.** Müəyyən edilsin ki:

2.1. “Ərzaq təminatı xəritəsi” informasiya sistemi (bundan sonra – Sistem) ölkədə ərzaq təminatı sahəsində mövcud vəziyyətin müəyyən edilməsini, bunun əsasında qərarların qəbul edilməsi üçün etibarlı və dayanıqlı informasiyanın yaradılmasını, toplanılmasını, işlənilməsini, saxlanılmasını, axtarışını və məlumatlara əlçatanlıq səviyyəsinin artırılmasını təmin edir;

2.2. Sistemin sahibi və operatoru funksiyalarını Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi həyata keçirir.

**3.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

3.1. “Ərzaq təminatı xəritəsi” informasiya sistemi haqqında əsasnaməni üç ay müddətində təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

3.2. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

**4.** Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi:

4.1. Sistemin formalaşdırılması, aparılması, fəaliyyətinin təşkili və inkişaf etdirilməsi üçün zəruri tədbirlər görsün;

4.2. Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ilə birlikdə Sistemin Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 3 iyun tarixli 718 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Hökumət buludu” (G-cloud) Konsepsiyası”na uyğun olaraq “Hökumət buludu”nda yerləşdirilməsi, aparılması və təkmilləşdirilməsi, habelə Sistemin “Dövlət informasiya ehtiyatlarının, sistemlərinin və elektron xidmətlərin vahid reyestri”nə və fərdi məlumatların informasiya sistemlərinin dövlət reyestrinə daxil edilməsi üçün tədbirlər görsün.

**5.** Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi və Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti, bu Fərmanın 1-ci hissəsi nəzərə alınmaqla, “Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları”nın təsdiq edilməsi və elektron hökumətlə bağlı bəzi tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 sentyabr tarixli 263 nömrəli Fərmanının tələblərindən irəli gələn tədbirlərin həyata keçirilməsini təmin etsinlər.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 25 noyabr 2025-ci il**

## Mərkəzi icra hakimiyyəti orqanlarının və digər idarəetmə qurumlarının rəhbərləri tərəfindən 2025-ci ilin dekabr ayında şəhər və rayonlarda keçiriləcək vətəndaşların qəbulu

# C Ə D V Ə L İ

| S/n | Qəbulu keçirən mərkəzi icra hakimiyyəti orqanı və idarəetmə qurumunun rəhbəri | Qəbulun keçirildiyi şəhər, rayon | Əhatə olunan şəhər və rayonlar | Qəbulun keçirildiyi gün |
|---|---|---|---|---|
| 1. | **Daxili işlər naziri** Vilayət Eyvazov | **Gəncə** | Gəncə, Samux, Göygöl, Goranboy, Naftalan, Daşkəsən, Xocalı, Kəlbəcər | **01** |
| 2. | **Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri** Ramin Məmmədov | **İmişli** | İmişli, Beyləqan, Saatlı, Sabirabad | **02** |
| 3. | **Baş prokuror** Kamran Əliyev | **Sumqayıt** | Sumqayıt, Qubadlı | **05** |
| 4. | **Ədliyyə naziri** Fərid Əhmədov | **Bərdə** | Bərdə, Mingəçevir, Yevlax, Ağcabədi, Ağdam, Tərtər | **05** |
| 5. | **Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri** Bahar Muradova | **Cəlilabad** | Cəlilabad, Biləsuvar, Cəbrayıl | **05** |
| 6. | **Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi** Mürsəl İbrahimov | **Xaçmaz** | Xaçmaz, Quba, Qusar, Şabran, Siyəzən | **05** |
| 7. | **Fövqəladə hallar naziri** Kəmaləddin Heydərov | **Abşeron** | Abşeron, Zəngilan | **09** |
| 8. | **Dövlət Gömrük Komitəsinin sədri** Şahin Bağırov | **Zaqatala** | Zaqatala, Balakən, Qax, Şəki, Oğuz | **11** |
| 9. | **“Azəriqaz” İstehsalat Birliyinin baş direktoru** Azər Məmmədov | **Naftalan** | Naftalan, Goranboy, Xocalı | **12** |
| 10. | **Gənclər və idman naziri** Fərid Qayıbov | **Cəlilabad** | Cəlilabad, Biləsuvar, Cəbrayıl | **16** |
| 11. | **İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin sədri** Zaur Əliyev | **Sabirabad** | Sabirabad, Saatlı, İmişli | **16** |
| 12. | **“Azərişıq” ASC-nin sədri** Vüqar Əhmədov | **Qobustan** | Qobustan, Şamaxı | **16** |
| 13. | **Rəqəmsal inkişaf və nəqliyyat naziri** Rəşad Nəbiyev | **Naxçıvan** | Naxçıvan, Babək, Culfa, Kəngərli, Ordubad, Sədərək, Şahbuz, Şərur | **18** |
| 14. | **Qida Təhlükəsizliyi Agentliyinin sədri** Qoşqar Təhməzli | **Saatlı** | Saatlı, Sabirabad, İmişli, Beyləqan, Xocavənd | **18** |
| 15. | **Elm və təhsil naziri** Emin Əmrullayev | **Ağcabədi** | Ağcabədi, Ağdam, Tərtər, Füzuli, Xocalı, Xocavənd, Laçın, Kəlbəcər, Şuşa | **19** |
| 16. | **Energetika naziri** Pərviz Şahbazov | **Zərdab** | Zərdab, Ucar, Kürdəmir, Ağdaş, Bərdə, Ağcabədi | **19** |
| 17. | **Əmək və əhalinin sosial müdafiəsi naziri** Anar Əliyev | **Kürdəmir** | Kürdəmir, Hacıqabul | **19** |
| 18. | **Kənd təsərrüfatı naziri** Məcnun Məmmədov | **Sabirabad** | Sabirabad, Saatlı, İmişli, Beyləqan | **19** |
| 19. | **Mədəniyyət naziri** Adil Kərimli | **Ucar** | Ucar, Zərdab, Yevlax, Mingəçevir, Ağdaş, Göyçay, Kürdəmir | **19** |
| 20. | **Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri** Anar Quliyev | **Qobustan** | Qobustan, Şamaxı, Ağsu, İsmayıllı | **19** |
| 21. | **Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin sədri** Saleh Məmmədov | **Salyan** | Salyan, Neftçala | **19** |
| 22. | **Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin sədri** Zaur Mikayılov | **Masallı** | Masallı, Yardımlı | **19** |
| 23. | **“Azəristiliktəchizat” ASC-nin sədri** İlham Mirzəliyev | **Naftalan** | Naftalan, Goranboy, Xocalı | **19** |
| 24. | **Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri** Rövşən Rzayev | **İmişli** | İmişli, Beyləqan, Xocavənd | **2** |
| 25. | **İqtisadiyyat naziri** Mikayıl Cabbarov | **Zərdab** | Zərdab, Ucar | **26** |

***Vətəndaşların qəbulu müəyyən edilmiş günlərdə saat 10:00-da başlayır.***

# Azərbaycan–Ermənistan: sülh təmasları və gerçəkliyin diktəsi

## *Vətəndaş cəmiyyətləri xalqlar arasında barışa yol açır*

**Bu il avqustun 8-də imzalanmış Azərbaycan Respublikasının Prezidentinin və Ermənistan Respublikasının Baş nazirinin Amerika Birləşmiş Ştatlarının Vaşinqton şəhərində keçirilmiş görüşünə dair Birgə Bəyannamənin 5-ci bəndində bildirilir: "Biz BMT Nizamnaməsi və 1991-ci il Almatı Bəyannaməsinə uyğun olaraq, keçmiş münaqişənin əsiri olmayan parlaq gələcək yoluna qədəm qoyulmasına olan ehtiyacı qəbul edirik. Dərin insan iztirablarına səbəb olmuş münaqişədən sonra, nəhayət ki, beynəlxalq sərhədlərin toxunulmazlığı və ərazi əldə olunması üçün güc tətbiq etmənin yolverilməzliyi əsasında dövlətlərimizin qonşuluq münasibətlərinin qurulmasına başlaması üçün şərtlər yaradılmışdır. Yenidən təftiş mövzusu olmayan və heç bir zaman olmayacaq bu reallıq dövlətlərimiz arasında düşmənçilik səhifəsinin bağlanmasına yol açır. Biz indi və gələcəkdə hər hansı bir qisas cəhdini qətiyyətlə rədd edir və istisna edirik"**

Əvvəlcə Azərbaycandan Ermənistana, sonra Ermənistandan Azərbaycana vətəndaş cəmiyyəti nümayəndələrinin səfəri, o cümlədən irəli sürülmüş "Sülh körpüsü" təşəbbüsü məhz yuxarıda diqqətə çatdırdığımız müddəanın icrası zərurətindən qaynaqlanır. Əlbəttə, Birgə Bəyannamə ehkam yox, çıxış nöqtəsidir, xoş niyyət üçün bazadır. Elə isə sual olunur: qarşılıqlı səfərlər və təmaslar hər iki ölkə arasında uzun müddət mövcud olmuş konfliktin fəsadlarını necə aradan qaldıra bilər? Hazırda ictimaiyyətimizi düşündürən budur. Düşüncələr dünya təcrübəsinə, daha doğrusu, beynəlxalq aləmin keçdiyi yola nəzər salmağı, həmin təcrübənin tətbiqi imkanlarını dəyərləndirməyi aktuallaşdırır. Yazımız da əsasən bu barədədir.

*

İlk növbədə onu vurğulayaq ki, istər Azərbaycanda, istərsə də Ermənistanda barışmazlıq tərəfdarları yetərincədir. Onların mövqeləri istər-istəməz cəmiyyətlərə təsirini göstərir və bunda təbii qanunauyğunluq var. Çünki loru dildə desək, yaralar qaysaq bağlamayıb və bir çox məsələlərin həlli zamana buraxılmalıdır. Əlbəttə, dayanıb zamanın keçməsini də gözləmək doğru sayılmaz. Deməli, düşünmək də lazımdır. Nəinki biz, ermənilər də faydanı düşünməlidirlər. Fayda gələcəyə optimal baxışın irəli sürülməsdir. Nəzərə alınmalıdır ki, daimi ziddiyyətlər, qarşıdurmalar heç bir cəmiyyətə xeyir gətirməyib. Əksinə, zərərlər, ziyanlar və faciələr yaşanıb ki, Birinci və İkinci Qarabağ müharibələrinin acı xatirləri fikrimizin sübutudur.

Digər tərəfdən, hansı düşmənçiliklər aradan qalxmayıb ki? Dünya tarixinə nəzər salsaq, görərik ki, hazırda vahid Avropa evi ideyasının məğzini təşkil edən Avropa İttifaqı modeli, o cümlədən onun tərkib hissəsi kimi ortada olan sərhədsizlik sanki bir yuxudur. Yüz il əvvəlki duruma baxsaq, nə vaxtsa insanların Fransa ilə Almaniya arasında istədikləri kimi - tam maneəsiz hərəkət üstünlüyünü təsəvvürə gətirmək olardımı? Xeyr, amma fakt faktlığında qalır: hazırkı Avropa modeli, kifayət qədər, dönməz xarakter almış, hətta, oturuşmuş reallıqdır.

Bəs pozitiv reallıqların yaranmasında, daha doğrusu, xalqlararası münasibətlərin tənzimlənməsində hansı amillər rol oynadı? Məhz vətəndaş cəmiyyətləri arasındakı yaxınlıqlar bir çox çətinliklərin aradan qaldırılmasına müstəsna töhfələr verdi. Bununla bağlı konkret təcrübələrə nəzər salmazdan əvvəl bir nüansa da toxunaq.

*

Yada salaq ki, torpaqlarımızın işğalı illərində Qərbin müxtəlif nüfuzlu təsisatları Azərbaycan-Ermənistan konfliktinin həllinə məhz vətəndaş cəmiyyəti təmsilçilərini və media nümayəndələrini cəlb etmək istəmiş, mövcud istiqamətdə xeyli vəsait xərcləmiş, layihələr icra etmişdilər. Müvafiq surətdə hər iki tərəfin bu layihələrin iştirakçıları olan nümayəndələri də meydana çıxmışdılar. Baxın, Bakıda olan erməni nümayəndə heyətinin üzvü, İrəvan Press Klubunun rəhbəri Boris Navasardyan ölkəmizin CBC telekanalına açıqlamasında 2001-ci ildə Bakıya səfərini xatırlayır. Həmin dönəmdə ölkəmizdən də Ermənistana səfər gerçəkləşmişdi...



Əlbəttə, təşəbbüslərin faydası ola bilməzdi və olmadı da. Çünki Qərb təsisatlarının layihələrində, bir qayda olaraq, təcüvüz faktı kənara qoyulmuş, üstünlük beynəlmiləlçi ruhun ifadəsinə verilmişdi. Deməli, bir-biriləri ilə münaqişədə olmuş və ya müharibə aparmış ölkələrin vətəndaş cəmiyyətlərinin təmaslarının gücləndirilməsində, ziddiyyətlərin yumşaldılmasında ədalət mühüm faktordur.

Eyni zamanda, vətəndaş cəmiyyətləri təmsilçiləri xalqları yaxınlaşdırmaq naminə gördükləri işin adilliyinə inanmalıdırlar. Axı sadə reallıq var: özün inanmadığın nəyəsə necə inandırasan? Hazırda ədalət bərpa olunub. Azərbaycan torpaqları işğaldan qurtulub. Erməni vətəndaş cəmiyyəti təmsilçiləri də məsələnin məhz bu cür qoyluşunu qəbul etməlidirlər və böyük ehtimalla edirlər də.

*

Əlqərəz, konflikt yaşamış ölkələrin vətəndaş cəmiyyətləri nümayəndələrinin ziddiyyətlərin yumşaldılmasına töhfəsi təcrübəsindən söz açırıqsa, ilk növbədə, ən yaxın tarixin Şimali İrlandiyadakı katolik (millətçi) və protestant (unionist) icmaları arasında 30 ildən çox davam etmiş və siyasi mahiyyət daşıyan silahlı qarşıdurmanı yada salaq. "The Troubles", yəni çətinliklər dövrü kimi xarakterizə edilən həmin dönəmdə "Northern Ireland Women's Coalition" (Şimali İrlandiya Qadınlar Koalisiyası) adlı müstəqil ictimai təşkilat sülh danışıqlarına qatılaraq sosial ədalət, insan hüquqları və qadınların iştirakı məsələlərini gündəmə gətirmişdi. Qurumun təmsilçiləri yerli icmalarda dialoq qrupları yaratmış, məktəblərdə və gənclər mərkəzlərində qarşılıqlı anlaşma proqramları təşkil etmişdilər. Bütün bu fəaliyyətlər 1998-ci il Belfast Sülh Razılaşmasının müddəalarının hazırlanmasına müstəsna töhfə vermişdi. Yeri gəlmişkən, Belfast anlaşması müasir dövrdə ən uğurlu sülh sazişlərindən biri hesab olunur.

Səmərəli fəaliyyəti 1996-2002-ci illəri əhatə etmiş "Truth and Reconciliation Commission"un (Həqiqət və Barışıq Komissiyası) apardığı işə diqqət yetirək. Bu vətəndaş cəmiyyəti qurumu Cənubi Afrikada aparteid (irqi ayrı-seçkilik) dövrünün repressiyalarının və irqi qarşıdurmaların aradan qaldırılmasında mühüm rol oynamışdı. Təşkilatın uğuru onda idi ki, ona qoşulan kilsə liderləri, hüquq müdafiəçiləri, QHT-lər, habelə ictimai fəallar zorakılıqsız mübarizə üsullarını təbliğ etdilər və post-apartheid dövründə geniş ictimai iştirakla həqiqətlərin üzə çıxarılması və səmimi bağışlanma mexanizminin yaradılmasında aktiv mövqe tutdular. Nəticədə, sakit transformasiyanı təmin edən ən uğurlu barış proseslərindən biri formalaşdı.

Dövrümüzün keçmiş Yuqoslaviya müharibəsindən sonrakı etnik gərginliyin aradan qaldırılması üçün Serbiya və Xorvatiya arasındakı dialoq təşəbbüsləri də xüsusi vurğulanmalıdır. Həmin vaxt "Youth Initiative for Human Rights" (YIHR) kimi QHT-lər gənclər arasında dialoq proqramları təşkil etdilər. Qurbanların hüquqlarını müdafiə edən bu kimi təşkilatlar müharibə cinayətlərinin araşdırılmasına dəstək verdilər, həm Serbiyada, həm Xorvatiyada səfərlər və birgə layihələr keçirdilər. Onlar yekunda cəmiyyətlərdə nifrətin azalmasına və ədalət proseslərinin güclənməsinə yardım göstərdilər.

Maraqlıdır ki, İsrail və Fələstin dialoq qrupları da olub. Bu qruplar uzunmüddətli siyasi və ərazi mübahisəsinin aradan qaldırılması naminə "Parents Circle–Families Forum" və "Seeds of Peace" kimi təşəbbüslər irəli sürdülər, hər iki tərəfdən qurban ailələrini görüşdürərək, emosional və insan mərkəzli dialoq formalaşdırdırlar. Onların yaratdıqları tədqiqat mərkəzləri isə sülhə dair birgə analitik hesabatlar hazırladılar. Nəticədə rasional və emosional səviyyədə etimadın qurulmasına yönələn, o cümlədən davamlı sülh ehtimalını artıran fəaliyyətlər populyarlaşmağa başladı.

*

Əlbəttə, bu sayaq misalların sayını artırmaq mümkündür. Başlıca məqam beynəlxalq təcrübənin Cənubi Qafqaz regionuna tətbiqidir. Daha dəqiq desək, tətbiq zamanı nələrə diqqət yetirilməsi. Nəzərə alınmalıdır ki, Cənubi Qafqaz platformasında ictimai əhvali-ruhiyyə hələ də yüksək həssasdır, istənilən yaxınlaşma təşəbbüslərinə münasibətdə ciddi ictimai qınaq amplitudası var. Çünki dediyimiz kimi, yaralar hələ qaysaq bağlamayıb və bu amil vətəndaş cəmiyyətlərinin, belə demək mümkünsə, görünən diplomatiya aparmalarını məhdudlaşdırır.

Bir çox ekspertlər belə durumlarda Balkanlarda tətbiq edilən qapalı ekspert dialoqlarının Cənubi Qafqaz üçün daha uyğun olduğunu önə çəkirlər. Məsələn, erməni nümayəndələr İrəvanda Bakıya səfərlərinin yekunlarına dair mətbuat konfransı keçirdilər və bildirdilər ki, ölkəmizdə olarkən "Azərbaycanda saxlanılan erməni məhbuslar" məsələsini qabardıblar. Hətta həmin məhbusların dəqiq sayı ilə bağlı məlumat əldə edə bilmədiklərini də dilə gətirdilər. Məlumdur ki, cəmiyyətimizdə məsələyə baxış fərqlidir. İnsanlarımız üçün Azərbaycan xalqına qarşı çoxsaylı cinayətlər törətmiş erməni əsilli şəxslər ritorikası var.

Sözümüz ondadır ki, ekspert qrupları məhz belə durumlarda həssas davranmalı, qıcıq doğuracaq məqamlar barədə açıq fikir bildirməkdən uzaq durmalı, əlbəttə ki, ədalət prinsiplərinə söykənməlidirlər. Onların mediaya verdikləri mesaj da mövcud xüsusda olmalıdır. Yaxşı halda Avropa İttifaqının "track 2 diplomacy" layihələrinə uyğun olaraq, mədəniyyət, ekologiya və biznes sahəsində sərhədsiz əməkdaşlıq kimi məsələlərin qabardılması daha səmərəlidir.

Digər tərəfdən, Cənubi Afrika və Balkanlarda vətəndaş cəmiyyəti nümayəndələri tərəfindən tətbiq olunmuş mexanizmlər göstərdi ki, müharibə qurbanların səsinin eşidilməsi, faktların sənədləşdirilməsi, savaş dövrü cinayətlərinin hüquqi qiymətləndirilməsi uzunmüddətli sülhə töhfə verir.

Əlbəttə, media amili önəmlidir. Məsələn, Şimali İrlandiya və Balkanlarda sülh danışıqlarının uğur qazanmasında media orqanlarının balanslı mövqeyi həlledici rol oynadı. Deməli, jurnalistlər üçün neytral mövzularda regional təlim proqramlarının reallaşdırılmasında fayda var. Bu kimi fəaliyyət, eləcə də gənclər arasında təmaslar mədəni, tarixi stereotiplərin yumşaldılmasına töhfə verə bilər.

Söhbət bilavasitə media amilindən gedirsə, nəzərə almalıyıq ki, bağlantılar və təmaslar heç də dostlaşmaq anlamına xidmət eməməli, sadəcə, informasiyaların doğura biləcəyi potensial gərginliklərin aradan qaldırılmasını təmin etməlidir ki, barışıq mühitində hansısa axsamalar və ya ləngimələr qeydə alınmasın.

*

Sonda bir məqamı da vurğulayaq. Belə rəyə gəlmək mümkündür ki, indiki durumda Azərbaycan və Ermənistan nümayəndələri arasında texniki dialoq, gənclər və ekspert əməkdaşlığı, humanitar məsələlərin həlli, o cümlədən mədəni və ekoloji layihələr uzunmüddətli sülh üçün struktur əsaslar yarada bilər. Ancaq ötən illərin təcrübəsi göstərir ki, hər iki ölkənin münasibətlərində vətəndaş cəmiyyətlərinin rolu maksimum effektini yalnız siyasi mühitin sabitləşdiyi təqdirdə verə bilər. Yəni hazırkı dövrdə çox şey siyasi iradədən asılıdır. Siyasi iradənin isə Bakı-İrəvan yekun sülh sazişi kimi müstəsna paradiqması var.

Sülh müqaviləsi artıq paraflanıb. Qalır onun imzalanması üçün başlıca şərtin yerinə yetirilməsi. Söhbət Ermənistan konstitusiyasının dəyişdirilməsindən, onun işğalçı mahiyyət daşıyan 1990-cı ilin İstiqlaliyyət Bəyannaməsinə istinadının aradan qalxmasından gedir. Hesab edirik ki, Ermənistanın vətəndaş cəmiyyəti fəalları daxildə mövcud istiqamətdə təbliğat aparmalı, rəsmi İrəvanın, müəyyən mənada, açıq şəkildə deyə bilmədiyi məqamları xalqa çatdırmalıdırlar.

***Ə.CAHANGİROĞLU***
***XQ***

---

# "Qoca qitə"də demokratiya böhranı

## *İfrat sağ ritorika mərkəzə nüfuz edir və çökmə sürətlənir*



**Dünya şöhrətli italyan yazıçısı Umberto Ekonun "Fuko yelləncəyi" romanında maraqlı səhnə təsvir edilir. Qəhrəmanlar şəhərin mərkəzindəki qədim və möhtəşəm binanın içərisinə daxil olanda, qarşılaşdıqları mənzərədən xeyli təəccüblənirlər. Çünki kənardan təntənəli görünən tikili tamamilə çürümüş, onun taxta dirəklərinin əksəriyyəti yararsız vəziyyətə düşmüş, mərmər divarlarda böyük çatlar yaranmışdı. Bir sözlə, ucalığı və estetikası ilə diqqətçəkən binanın gələcək aqibəti daxilindən bəlli idi. Eko isə təsvir etdiyi səhnə ilə nəhəng sistemlərin necə içdən çürüdüyünü göstərmişdi. Günümüzün Avropasına baxanda da gözlərimiz önündə, təxminən, eyni mənzərə canlanır.**

Tam qətiyyətlə deyə bilərik ki, qitə liderlərinin demokratiya haqqında hay-küylü çıxışlarının bətni eroziyaya uğrayıb. Sanki bu ali dəyərin təməli tamamilə sarsılıb. Nə deyək, görünür, Avropa siyasətçiləri sadəcə danışmağı sevirlər və nəticədə qəribə durum yaranır. Bir tərəfdə Fransa Prezidenti demokratik dirçəliş elan edir, digər tərəfdə Almaniya Kansleri avtoritarizmə meyillənir, Avropa Komissiyasının şefi isə "Demokratik Davamlılıq Mərkəzi"nin yaradıldığını açıqlayır.

Ümumən, xarici təsirlər, dezinformasiya, Macarıstan və Polşadakı illiberalizm haqqında danışmaq asandır. Çünki bu mövzular siyasətçilərə manipulyasiya imkanı qazandırır. Amma niyəsə onların bir çoxu Avropanın yetkin hesab olunan demokratiyasında gedən səssiz tənəzzüllə bağlı söz açmaqdan boyun qaçırırlar. Görməzdən gəldikləri, demək olar ki, hər gün hüququn aliliyinin gündəlik praktikada pozulması, siyasi dil kobudlaşmaları, irqi və dini stereotiplərin normaya çevrilməsi və polis zorakılıqlarıdır. Belə yarıtmaz hallara dair xəbər başlıqları adi qarşılanır. Halbuki, demokratik sistemin dözümlülük indikatoru olan insan ləyaqəti, bərabərlik, söz azadlığı və sosial ədalət kimi sütunlar çökmək təhlükəsi ilə üz-üzədir. Görəsən, kimdir müqəssir?

Fransaya nəzər salaq. Prezident Emmanuel Makron uzun müddət özünü liberal modernist kimi təqdim etsə də, Marin Le Penin miqrasiya, milli identiklik və İslamla bağlı ritorikasını təkrarladıqca, eyni pəncərənin sağ küncündə mövqe tutmağa başlayır. Belə olan halda mərkəz öz ideoloji cazibəsini tədricən itirir və boşluğu ifrat sağ doldurur. Bir vaxtlar kənarda qalmış tezislər indi gündəlik siyasi diskursun ayrılmaz hissəsinə çevrilir. Nəticədə radikal fikirlər mərkəzə daxil olur. Almaniyada da vəziyyət oxşardır. Kansler Fridrix Mertsin səsləndirdiyi populist çağırışlar xüsusi diqqət çəkir. Daha da təhlükəlisi odur ki, bu cür oriyentasiyalar siyasi mərkəzin konturlarını dəyişir, ekstremizmi normallaşdırır və ifrat sağ ritorikanı mərkəzə yaxınlaşdırır. Rəsmi Berlin tədricən sağa doğru əyilir və yeni siyasi normalar formalaşır.

Eyni proses Aİ institutlarında da özünü göstərir. Yeni miqrasiya paktında deportasiya mexanizmlərinin qanuniləşdirilməsi, insan hərəkətinin təhlükəsizlik problemi kimi kodlaşdırılması Avropanın dəyərlər doktrinası ilə açıq şəkildə ziddiyyət təşkil edir. Daha bir maraqlı məqam odur ki, siyasətçilər təhlükə ritorikasını irqi və mədəni amillərlə bəzəyərək, məsuliyyəti başqalarının üstünə atmağa çalışırlar. Nəticədə miqrasiya real sosial problemlərdən daha çox siyasətin manipulyativ alətinə çevrilir. Nəzərə alsaq ki, bu tarix boyu ən dərin siyasi faciələrin başlanğıc nöqtəsi olub, proseslər həm siyasi atmosferə, həm də qərarların daha da sərtləşdirilməsinə təsir edəcək.

Son illər Almaniyada və Avstriyada siyasi partiyalar arasında əməkdaşlıq və koalisiya formalaşdıran ifrat sağ mövqelərin çıxışları getdikcə populyarlaşır. Təhsil və elm institutlarında açıq debatların azalması, universitet mühitində narazılıqların ifadəsi üçün imkanların məhdudlaşdırılması müşahidə edilir. Mətbuatın iqtisadi asılılığı və sahibkarlıq maraqları da mediada kritik təhlilin zəifləməsinə səbəb olur. Hüququn aliliyinə zərbələr formal konstitusiyalarla yanaşı, gündəlik həyatın qaydalarında da rast gəlinir.

Bundan başqa, Avropa ölkələrində sosial medianın siyasi proseslərdə rolu artmaqda davam edir. Platformaların alqoritmik seçimi, manipulyativ reklamlar və dezinformasiya yayımı tədricən ictimai rəyin formalaşmasına təsir göstərir. Məsələn, 2023-cü ildə Almaniyada keçirilən seçkilərdə sosial media kampaniyaları seçici davranışını dəyişdirməkdə mühüm rol oynamış, ekstremist mövzuların daha geniş auditoriyaya çatmasına səbəb olmuşdu. Hadisə göstərmişdi ki, demokratiyanın həm də informasiya məkanında müdafiəyə ehtiyacı var. Ona görə də hər bir Avropa ölkəsi sözügedən istiqamətdə fərqli təcrübə təqdim edir. Məsələn, İspaniya və Portuqaliyada sosial-iqtisadi bərabərsizliklə mübarizə proqramları, vətəndaşların siyasi proseslərə aktiv cəlb olunması və yerli demokratik təşəbbüslər nümunə kimi diqqət çəkir.

Sevindirici haldır ki, prosesin bir "əmma"sı var. Avropanın müxtəlif nöqtələrində siyasətçilər, ictimai liderlər və vətəndaş cəmiyyətinin nümayəndələri daha inklüziv siyasətin mümkün olduğuna inanırlar. Bir sıra ölkələrdə insan hüquqlarına söykənən yanaşmaların gündəmə gəlməsi "qoca qitə"nin hələ də öz daxilində müsbət inkişaf potensialı daşıdığını göstərir. Cəmiyyətin müəyyən təbəqələri siyasətin zəhərlənmiş modelinə qarşı çıxırlar.

Avropa liderləri demokratiyanı kənardan gələn təhlükələrdən qorumağa çalışdıqca, onun içəridə sürətlə sarsılan sütunlarını görmürlər. Halbuki əsl təhlükə məhz daxildə gizlənir. Demokratiya xarici təhdidlərin sarsıdıcı gücündən daha çox, öz institusional gündəliyindəki çərçivədən, söz azadlığının kölgələnməsindən və siyasətin etik təməllərdən uzaqlaşmasından təsirlənir. Xülasə, əgər Avropa demokratiyanı, həqiqətən, qorumaq istəyirsə, elə ilk növbədə, öz daxilindən başlamalıdır.

***Nəzrin ELDARQIZI***
***XQ***

# *Şuşa Forumu:* Bakı–Ankara strateji tərəfdaşlığının yeni təşkilati və geosiyasi arxitekturası

(əvvəli 1-ci səhifədə)

Birinci sessiyada ortaya qoyulan təhlillər göstərdi ki, Azərbaycan və Türkiyə xarici siyasətlərini paralel trayektoriyalarda sinxronlaşdırmaqla yanaşı, həm də fərqli təqdim etdikləri milli prioritetləri regional səviyyədə tamamlayıcı şəkildə yerləşdirirlər. Belə bir sinerji təhlükəsizlik arxitekturasında, enerji diplomatiyasında və beynəlxalq platformalarda ortaq mövqelərin formalaşmasına konkret imkanlar açır. Bununla belə, müzakirələr həm də koordinasiyanın qısamüddətli reaksiya mexanizmləri ilə məhdudlaşmaması, institusional yaddaşın və məlumat mübadiləsinin davamlı kanallarının yaradılması zərurətini ortaya qoydu.







Panel müzakirələri Türk Dövlətləri Təşkilatı çərçivəsində inteqrasiya dinamikasının yeni mərhələyə keçə biləcəyini göstərdi. Burada əsas hədəf TDT daxilində institusional qabiliyyətlərin artırılması, humanitar və mədəni sahələrdə qarşılıqlı etimadın strukturlaşdırılmasıdır. Belə institusional yanaşma uzun müddətdə regionun qərarvermə mərkəzlərini diversifikasiya edəcək və Avrasiya məkanında Türk dünyasının kollektiv təsirini artıracaq. Lakin bu proses eyni zamanda üzv dövlətlərin daxili siyasətləri və xarici güc mərkəzləri ilə balanslaşdırılmalıdır.

Nəqliyyat və enerji panelində müzakirə edilən Zəngəzur dəhlizi, Transxəzər marşrutu və digər layihələr geosiyasi dəyər və kommunikasiya siyasətinin alətidir. Kommunikasiya layihələri Azərbaycan və Türkiyəyə Avropa–Şərq trayektoriyalarında strateji seçimlər təklif edir və hər bir dəhlizin təhlükəsizliyi, iqtisadi səmərəliliyi və siyasi dayanıqlılığı üçün qarşılıqlı koordinasiyanın vacibliyini yenidən sübut edir. Buradan çıxan praktiki nəticə odur ki, layihələrin iqtisadi əsaslandırılması ilə yanaşı, onların siyasi və təhlükəsizlik bağlamasında da koherent qaydalar əsasında idarə olunması lazımdır.

Şuşa Forumu nəticə etibarilə iki ölkənin ortaq analitik məkana ehtiyac tanıdığını göstərdi. Forumun uğuru həmin məkanda davamlı dialoqun, məlumat mübadiləsinin və birgə elmi məhsuldarlığın sistemləşdirilməsindən asılı olacaq. Bütün bunlar qərarvermə institutları arasında güclü bağlantıların qurulması ilə təmin oluna bilər. Belə bir inteqrasiya artıq regionda yeni reallıqlar yaratmaq potensialına malikdir və Azərbaycan–Türkiyə tandeminin gələcək strateji çevikliyini təmin edəcək analitik zəmin formalaşdırır.

Birinci sessiyada "Azərbaycan və Türkiyənin xarici siyasətində əsas trendlər və əməkdaşlıq imkanları" mövzusu ətrafında aparılan müzakirələr iki ölkənin diplomatik kursunun getdikcə daha çox paralelləşdiyini və regional olduğu qədər, qlobal siyasət səhnəsində də bir-birini tamamlayan xarakter aldığını nümayiş etdirdi. Sessiya boyu ekspertlər qeyd etdilər ki, həm Ankara, həm də Bakı bu gün multivektor xarici siyasət yürütməklə, müxtəlif güc mərkəzləri arasında balanslaşdırılmış mövqe tutur və bu yanaşma onların beynəlxalq sistemdə manevr imkanlarını xeyli genişləndirir.

Onu da bildirək ki, son illərdə iki ölkənin xarici siyasətində müşahidə olunan strateji sinxronizasiya artıq epizodik əməkdaşlıqdan strukturlu koordinasiya modelinə çevrilib. Türkiyənin regional güc kimi artan hərbi-siyasi çəkisi və Azərbaycanın postmüharibə dövründə regionda formalaşdırdığı yeni geosiyasi mövqe tərəfdaşlığın institusional səviyyədə dərinləşməsini zərurətə çevirir. Sessiyanın diskussiyaları onu göstərdi ki, Bakı və Ankara geosiyasi risklərin idarə edilməsi, enerji diplomatiyasının koordinasiyası və beynəlxalq təşkilatlarda vahid mövqe ilə çıxış etmə kimi sahələrdə artıq daha sistemli inteqrasiyaya keçid edirlər. Qeyd etməliyik ki, bunlar iki ölkənin regional təhlükəsizlik strukturunun formalaşmasında daha proaktiv mövqeyə sahib olmasını təmin edən yeni real geosiyasi modeldir.

İkinci sessiya – "Azərbaycan–Türkiyə əməkdaşlığının dərinləşdirilməsi: TDT çərçivəsində inteqrasiya perspektivləri" – müzakirələri isə əməkdaşlığın Türk Dövlətləri Təşkilatı daxilində daha geniş inteqrasiya məqsədlərinə doğru strateji şəkildə inkişaf etdiyini ortaya qoydu. Paneldə çıxış edən ekspertlərin vurğuladığı əsas məqam ondan ibarət idi ki, Türk dünyasının inteqrasiya potensialı ilk dəfə bu qədər koordinasiyalı analitik baza üzərində formalaşır və bu baza siyasi koordinasiyadan iqtisadi inteqrasiyaya, humanitar sahədən institusional quruculuğa qədər geniş diapazonu əhatə edir.

Müzakirələr göstərdi ki, TDT daxilində artan dinamika Avrasiyada yeni güc qütbünün formalaşmasını sürətləndirə bilər. Analitik baxımdan isə bu amillər türk dövlətlərinin kollektiv qərarvermə imkanlarını artırır, regional proseslərə təsir mexanizmlərini gücləndirir və təşkilatın beynəlxalq sistemdə daha ciddi aktora çevrilməsi üçün zəruri intellektual-institusional çərçivə yaradır. Bundan irəli gələrək ekspertlər hesab edirlər ki, TDT-nin gələcək inkişaf mərhələsində Azərbaycan–Türkiyə tandeminin liderlik rolu həm inteqrasiya dərinliyi, həm də regional təsir baxımından həlledici olacaq.

Üçüncü sessiya nəqliyyat-kommunikasiya və enerji əməkdaşlığının Azərbaycan–Türkiyə tərəfdaşlığında oynadığı müəyyənedici rolu üzə çıxardı. Müzakirələr göstərdi ki, Zəngəzur dəhlizinin açılması, Transxəzər marşrutunun sürətlə genişlənməsi və enerji kəmərlərinin yaratdığı yeni geoiqtisadi dinamika iki ölkəni Avrasiyanın ən vacib strateji qovşaqlarından birinə çevirir. Orta Dəhliz artıq Qərb–Şərq ticarətinin yeni mərkəzi xətti kimi formalaşır; Azərbaycan ilə Türkiyənin həyata keçirdiyi enerji layihələri isə Avropanın enerji təhlükəsizliyinin praktiki dayağı olaraq qüvvədə qalır. Hazırkı infrastruktur layihəsi regionda güc balansını dəyişdirir və Ankara–Bakı strateji modelinin davamlılığını möhkəmləndirir. Bakı–Tbilisi–Qars xətti, TANAP və TAP kimi mövcud sistemlər, eləcə də planlaşdırılan Zəngəzur dəhlizi (TRIPP) iki ölkənin koordinasiyasını regional hüdudlardan çıxarıb qlobal nəqliyyat və enerji arxitekturasının mühüm mexanizminə çevirir.

Son olaraq qeyd etməliyik ki, Şuşa Forumu bu proseslərin intellektual çərçivəsini formalaşdıraraq, Azərbaycan–Türkiyə əməkdaşlığının yeni mərhələsinə yol açdı. Forum analitik və elmi işbirliyinin daha zəngin əsaslarını yaratdı. Burada beyin mərkəzləri arasında davamlı əlaqələr üçün baza formalaşdı, Türk Dövlətləri Təşkilatında inteqrasiyanın elmi dayaqları genişləndirildi və iki ölkənin regional siyasətdəki sinxronlaşdırılmış fəaliyyət modeli bir qədər də sistemləşdirildi. Zəngəzur dəhlizi və Transxəzər kimi böyük layihələrin geosiyasi izahı və strateji kommunikasiya xəritəsi yenilənərək, onların qlobal səviyyədə təqdimatı üçün daha güclü mexanizmlər meydana çıxdı. Şuşa Forumu göstərdi ki, Azərbaycan və Türkiyə artıq regionda prosesləri izləyən deyil, onları dizayn edən qərarverici aktorlardır. Türk dünyasında yeni strateji düşüncə mərhələsi məhz bu intellektual əsas üzərində formalaşır və Avrasiyada yüksələn yeni güc qütbünün çərçivəsini müəyyənləşdirir.

***Şəbnəm ZEYNALOVA,***
***XQ-nin siyasi analitiki,***
***siyasi elmlər üzrə fəlsəfə doktoru***

---

# İrəvanın ikibaşlı oyunu

## *KTMT üzvü olsa da, sammitlərə qatılmır*

**Ermənistan növbəti dəfə Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının (KTMT) ali orqanı olan Kollektiv Təhlükəsizlik Şurasının iclasına qatılmaqdan imtina edib. İclas noyabrın 27-də Qırğız Respublikasının paytaxtı Bişkekdə keçiriləcək. Bu barədə Rusiya Federasiyası Prezidentinin köməkçisi Yuri Uşakov bildirib.**

Onun sözlərinə görə, Ermənistan toplantıda iştirak etməyəcək, lakin razılaşdırılmış sənədlərin qəbul edilməsinə qarşı deyil. Y.Uşakov tədbirdə Rusiya, Qırğızıstan, Belarus, Qazaxıstan və Tacikistan liderlərinin iştirak edəcəyini açıqlayıb. Kreml rəsmisi qeyd edib ki, KTMT sammitinin yekun bəyannaməsində beynəlxalq və regional gündəmdəki əsas məsələlərə ümumi yanaşmalar əks olunacaq.

Qeyd etdiyimiz kimi, Kollektiv Təhlükəsizlik Şurası KTMT-yə üzv ölkələrin dövlət başçılarının daxil olduqları üstqurumudur. Şura KTMT-nin fəaliyyəti ilə bağlı fundamental məsələləri nəzərdən keçirir və onun məqsəd və vəzifələrinin həyata keçirilməsi ilə bağlı qərarlar qəbul edir, eləcə də bu məqsədlərə çatmaq üçün üzv dövlətlər arasında əlaqələndirməni və birgə səyləri təmin edir.

*

Ermənistanın ali tədbiri boykot etməsinin səbəblərinə aydınlıq gətirmək üçün tarixə qısa ekskurs etməyə gərək duyulur. Yəni, nə baş verdi ki, Ermənistan uzun illər güvəndiyi təşkilatdan hazırda gen gəzir? İrəvan–KTMT əlaqələrinin tarixinə nəzər salsaq, görərik ki, Ermənistan 1992-ci il mayın 15-də Daşkənd şəhərində Qazaxıstan, Qırğızıstan, Rusiya, Tacikistan və Özbəkistan liderləri tərəfindən Kollektiv Təhlükəsizlik Müqaviləsi imzalayan dövlətlərdən biridir. KTMT məhz həmin müqavilənin imzalanması ilə təsis edilib. Yeri gəlmişkən qeyd edək ki, 1993-cü ildə Azərbaycan, Belarus və Gürcüstan da KTMT-yə qoşulub. Daha sonra Azərbaycan, Gürcüstan və Özbəkistan təşkilatdan çıxıblar. KTMT-yə üzv olan istənilən ölkənin istənilən vaxt KTMT-dən çıxmaq hüququ var. Müqavilə 1994-cü ildə qüvvəyə mindikdə KTMT-nin doqquz üzvü var idi. İndi isə altı üzvü var. Onlardan biri Ermənistandır ki, ölkə üzvlüyünü dondurub.

Ermənistan Azərbaycan torpaqlarını işğal altında saxladığı uzun illər ərzində həm də KTMT-yə güvənirdi. Xüsusilə, əvvəlki Koçaryan–Sarkisyan rejimi üçün KTMT bir növ istinad nöqtəsi halına gəlmişdi. Onlar Azərbaycan torpaqlarını xarici havadarlarından aldıqları böyük maddi, siyasi və hərbi-texniki dəstək sayəsində işğal etmişdilər. İşğalı davam etdirmək və möhkəmləndirmək məsələsində də yaxın-uzaq havadarlarına bel bağlayırdılar. Elə baş nazir Nikol Paşinyan da bu məsələdə devirdiyi və hazırda sərt tənqid etdiyi sabiqlərdən geri qalmırdı. Onun Azərbaycanla danışıqlar prosesini pozmağa gətirib çıxaran addımları, təmas xəttindəki təxribatçı hərəkətləri xarici dairələrə güvənməsi ilə bağlı idi. Güman edirdilər ki, Ermənistanın dəstəkçiləri müharibə başlayacağı təqdirdə Azərbaycanı dayandırmağı bacaracaqlar. Eyni zamanda, görünür, Paşinyan iqtidarı KTMT-nin ölkəmizlə döyüşəcəyini gözləyirdi. Ancaq 2020-ci il müharibəsi onların bütün planlarını alt-üst etdi. Azərbaycan Ordusunun Zəfər yürüşünü dayandırmağa heç bir qüvvənin gücü yetmədi. Aparılan məqsədyönlü iş, incə hərbi-siyasi planlaşdırma nəticəsində Ermənistanın KTMT-dəki bütün dostları həm də ölkəmizin dostlarına çevrildilər. Beləliklə, İrəvanın KTMT ilə əlaqələrində ilk böyük çat yarandı.



İkinci böyük çatın yaranması müharibədən sonrakı dövrə təsadüf etdi. 44 günlük müharibənin başa çatmasından (2020-ci il 10 noyabr) antiterror əməliyyatınadək (2023-cü il 19-20 sentyabr) olan dövrdə Ermənistanla Azərbaycan arasında üç ciddi insident oldu. İlk gərginlik 2021-ci ilin mayında iki ölkənin şərti sərhədində – Qaragöl ətrafında gərginlik yaşandı. Ölkəmizin torpaqları 30 il işğal altında qaldıqdan sonra beynəlxalq səviyyədə tanınmış sərhədlərimizi bərpa etməyimiz Ermənistanda "Azərbaycan hərbçilərinin sərhədi pozub 3,5 km ölkənin içərisinə doğru hərəkət etməsi" kimi qəbul olundu.

Həmin il noyabrın 15-16-da müharibədən sonra ilk dəfə şərti sərhədin Kəlbəcər istiqamətində qanlı döyüşlər baş verdi. Nəhayət, 2022-ci il sentyabrın 12-14-də gecə saatlarında Ermənistan ordusunun Daşkəsən, Kəlbəcər və Laçın istiqamətlərində genişmiqyaslı təxribatlar törətməsi ilə postmüharibə dövrünün ən ciddi hərbi toqquşması yaşandı. Bu üç hadisənin hər birinin baş verdiyi günlərdə və ondan sonrakı dövrdə Ermənistan ən yüksək səviyyədə KTMT-yə müraciət edərək təşkilatı qəti tədbirlər görməyə çağırdı. KTMT isə öz nizamnaməsi çərçivəsində hərəkət etdi, təmkinli davrandı və İrəvanın avantürasına getmədi.

Təşkilatdan gözlədiyi dəstəyi ala bilməyəndən sonra İrəvanla KTMT arasında münasibətlərin daha ciddi soyuqluq mərhələsi başladı. İş o yerə gəlib çatdı ki, Paşinyan Kollektiv Təhlükəsizlik Şurasının 2023-cü il noyabrın 23-də İrəvanda keçirilən sammitinin bəyannaməsini imzalamaqdan imtina etdi. Çünki sənəddə Azərbaycanın "təcavüzü"nün qiymətləndirilməsi yer almırdı. Sammit Ermənistan üçün tam fiasko ilə nəticələndi. Həmin ilin yanvar ayında isə Ermənistan öz ərazisində "Sarsılmaz qardaşlıq–2023" təlimləri keçirməkdən imtina etmişdi.

2024-cü ilin fevral ayında isə N.Paşinyan ölkəsinin KTMT-dəki iştirakını dondurduğunu elan etmişdi. O, həmçinin Ermənistanın KTMT-yə qayıtmasının getdikcə çətinləşdiyini, bəlkə də qeyri-mümkün olduğunu bildirmişdi. Onun sözlərinə görə, artıq Ermənistan–KTMT münasibətlərində "geriyə dönüş nöqtəsi" keçilib.

Yeri gəlmişkən onu da qeyd edək ki, Rusiya tərəfi Ermənistan iqtidarının yanaşmasını qəbul etmir. Ölkənin xarici işlər nazirinin müavini Mixail Qaluzin bir müddət öncə vurğulamışdı ki, Ermənistan hökumətini KTMT-dəki iştirakını dondurmağa qərblilər sövq ediblər. Rusiya xarici işlər naziri Sergey Lavrovun sözlərinə görə isə Paşinyanın KTMT-nin "Ermənistanı çətin vəziyyətdə tərk etdiyi" iddiası həqiqətə uyğun deyil.

*

Tərəflərin qarşılıqlı giley-güzarına baxmayaraq, fakt bundan ibarətdir ki, İrəvan KTMT-dəki fəaliyyətini dondurmaqda davam edir. Başqa sözlə, anti-Rusiya xəttini davam etdirir. Eyni zamanda, KTMT üzvlüyündən tam imtina da etmir, üzv kimi qalır. Məşhur el məsəlində deyildi kimi, nə əldən qoyur, nə yardan doyur. Yəni nə rədd edir, nə də qəbul edir. Beləliklə, Ermənistanın növbəti dəfə KTMT sammitində iştirakdan imtina etməsi artıq təsadüfi epizod deyil, siyasi kursun davamlı xəttidir. İrəvan rəsmilərinin Bişkekə getməkdən imtinası göstərir ki, Paşinyan hakimiyyəti təşkilatdakı fəaliyyətini formal olaraq dondurmaq siyasətini ardıcıl şəkildə həyata keçirir. Bu, həm Rusiya ilə münasibətlərdə soyuqluğun yeni mərhələsidir, həm də Ermənistanın geosiyasi orientasiyasının sürətlə dəyişdiyini göstərir.

Digər tərəfdən bu addım həm də KTMT-nin daha Ermənistan üçün təhlükəsizlik təminatı mexanizmi olmadığını göstərir. Əslində, Ermənistan rəhbərliyi Moskvaya mesaj verir ki, artıq Rusiya ilə əvvəlki münasibətlər modelinə qayıdış yoxdur. Lakin maraqlı nüans budur ki, İrəvan KTMT-dən formal şəkildə çıxmağın siyasi nəticələrini hesablaya və ya bu riskləri görə bilmir. Ona görə də Ermənistan hələ də təşkilatın üzvü kimi qalır, amma iştirak etmir. Nə sammitlərə gedir, nə təlimlərə qoşulur, nə də birgə qərarlarda aktivlik nümayiş etdirir.

İrəvanın bu ikili davranışı həm Moskvanı qıcıqlandırır, həm də Qərbə doğru kursun sürətləndiyini göstərir. Paşinyan hökuməti bir tərəfdən ABŞ və Avropa İttifaqı ilə təhlükəsizlik üzrə yeni dialoqlar aparır, digər tərəfdən regionda Rusiya hərbi-siyasi təsirini ciddi şəkildə məhdudlaşdırmağa çalışır. KTMT-dən imtina bu strategiyanın ən açıq elementidir. Əslində Ermənistan öz təhlükəsizlik memarlığını tamamilə yenidən qurmağa çalışır: rus hərbi kontingentinin statusunun azaldılması, Qərb monitorinq missiyalarının artırılması, silahlanma üzrə yeni müqavilələr Paşinyanın prioritetləridir.

**Politoloq İlyas Hüseynov** XQ-yə açıqlamasında bildirdi ki, İrəvanın KTMT-dən tam çıxmaması daxili siyasi səbəblərlə də bağlıdır. Onun sözlərinə görə, Ermənistan cəmiyyətində hələ də Rusiyaya bağlı elektorat güclü olaraq qalır: "Tam çıxış bu qrupların radikallaşmasını və daxili qarşıdurmaların dərinləşməsini sürətləndirə bilər. Paşinyan isə bunu indiki mərhələdə riskli hesab edir. Buna görə də İrəvanın seçdiyi model "həm varam, həm yoxam" yanaşmasıdır. Formal üzvlük qalır, amma faktiki fəaliyyət yoxdur. Rusiya isə bu situasiyanı strateji itki kimi dəyərləndirir. Çünki Ermənistan KTMT daxilində Moskvanın Cənubi Qafqazdakı hərbi-siyasi dayağının ən mühüm elementlərindən biri idi. İndi isə Kreml açıq şəkildə görür ki, İrəvan Qərbin yeni təhlükəsizlik formatlarına inteqrasiya edir və bu proses dönməz xarakter almaqdadır. Uşakovun açıqlaması da məhz buna işarədir. Moskva Ermənistanın davranışını anti-Rusiya kursu kimi qiymətləndirir və artıq bunu gizlətmir".



Ekspert hesab edir ki, hazırkı vəziyyət regionda təhlükəsizlik balansına təsirsiz ötüşməyəcək: "Ermənistanın KTMT-dən uzaqlaşması Cənubi Qafqazda yeni geosiyasi düzən formalaşdırır. Azərbaycan və Türkiyə arasında strateji ittifaq dərinləşdikcə, Ermənistanın təktərəfli qərbyönümlü kursu onun daha böyük təhlükəsizlik boşluğu ilə üz-üzə qalmasına gətirib çıxara bilər. İrəvanın tam şəkildə Qərbin təminatına güvənməsi isə ən yaxşı halda uzunmüddətli perspektivdə özünü doğrulda bilər, amma qısamüddətli dövrdə ciddi riskləri də qaçılmaz edir".

Onu da bildirək ki, KTMT-nin növbəti zirvə görüşü 2026-cı il noyabrın 11-də Moskvada keçiriləcək. Bişkek görüşündə quruma sədrliyin 2026-cı il yanvarın 1-dən Rusiyaya keçəcəyi barədə qərar qəbul ediləcək.

***Səxavət HƏMİD***
***XQ***

# Azərbaycan və Fransa parlamentariləri görüşəcəklər



**"Rəsmi Bakı və Yelisey sarayı parlament diplomatiyası çərçivəsində yeni dialoq imkanları axtarmaqda maraqlıdırlar. Bu baxımdan gələcəkdə həm azərbaycanlı, həm də fransalı parlamentarilərin qarşılıqlı səfərləri istisna edilmir".**

Bu fikirləri XQ-yə eksklüziv açıqlamasında **Milli Məclisin deputatı, Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin üzvü Elçin Mirzəbəyli** bildirib. Onun sözlərinə görə, ölkəmiz



Fransa ilə münasibətləri normallaşdırmağa hazırdır: "Azərbaycan XİN-in noyabrın 7-də "Fransa ilə münasibətlərdə yeni səhifə" açıqlaması və deputatların mümkün səfərləri ilə bağlı məlumatlar müsbət siqnal kimi dəyərləndirilsə də, noyabrın 16-da Fransa Senatının Azərbaycana qarşı daha bir qərəzli qətnamə qəbul etməsi dialoqa ciddi zərbə vurdu. Bu, Paris–Bakı münasibətlərində institusional parçalanmanın hələ də aradan qaldırılmadığını göstərir".

"İkinci Qarabağ müharibəsindən sonra Cənubi Qafqazda formalaşan yeni geosiyasi düzən təkcə region ölkələrinin deyil, həm də xarici güclərin mövcud münasibətlərini yenidən dəyərləndirməsini zəruri edib. Xüsusilə Fransa ilə Azərbaycan arasında müşahidə olunan gərginlik həm regionda dəyişən reallıqlardan, həm də Parisin Ermənistanla münasibətlərindən qaynaqlanan disbalansdan irəli gəlirdi", – deyə Elçin Mirzəbəyli bildirib.

Deputat qeyd edib ki, münasibətlər bəzən açıq qarşıdurmaya qədər yüksəlsə də, Prezident İlham Əliyevin Tiranada Emmanuel Makronla keçirdiyi görüşlər fonunda müəyyən yumşalma meyilləri formalaşıb. Lakin bu dinamikanı normallaşma adlandırmağın hələ tez olduğunu vurğulayan E.Mirzəbəyli bildirib ki, prosesin davamlı olması üçün təkcə siyasi iradə deyil, həm də illərlə formalaşmış stereotiplərin və lobbi təsirlərinin aradan qaldırılması tələb olunur: "Həm azərbaycanlı, həm də fransalı parlamentarilərin qarşılıqlı səfərləri barədə yayılan məlumatlar göstərir ki, tərəflər parlament diplomatiyası çərçivəsində yeni dialoq imkanları axtarmaqda maraqlıdırlar. Lakin onu da qeyd etməliyəm ki, Fransa Senatının qətnamələri Parisdə erməni diasporu və lobbi təşkilatlarının təsirinin hələ də güclü olduğunu təsdiqləyir".

### Azərbaycan–Fransa əlaqələri Azərbaycan–Ermənistan münasibətlərindən nə qədər asılıdır?

Bu barədə danışan komitə üzvünün sözlərinə görə, Azərbaycanla Fransa arasında tarixən siyasi dialoq mövcud olsa da, son dönəmlərdə Parisin Ermənistanla bağlı birtərəfli mövqeyi qarşılıqlı etimada ciddi ziyan vurub: "Ermənistan amili Fransa–Azərbaycan münasibətlərinin əsas mübahisə nöqtələrindən biridir. Parisin uzun illər İrəvanla xüsusi münasibətlər saxlaması və diaspor təsiri bu siyasətin formalaşmasında mühüm rol oynayıb".

Deputatın fikrincə, Azərbaycan-Ermənistan sülh müqaviləsinin imzalanması iki ölkə münasibətlərinə müsbət təsir göstərə bilər, lakin bu, tam normallaşma üçün yetərli sayıla bilməz. Çünki problemlər yalnız Ermənistanla bağlı deyil. Məsələnin kökündə Fransanın regionu geosiyasi təsir dairəsi kimi görməsi, Azərbaycan barədə köhnəlmiş stereotiplər və Parisin öz daxili siyasi dinamizmi dayanır.

Deputat həmçinin qeyd edib ki, sülh müqaviləsi imzalanarsa, regiondakı gərginliyin azalması Parisin sərt mövqe üçün əsaslarını zəiflədə bilər, Avropa İttifaqı ilə ölkəmiz arasında əməkdaşlıq daha stabil xarakter alar. Ancaq Fransa–Azərbaycan münasibətləri mürəkkəb və çoxtərəfli təsirlərin kəsişdiyi mərhələdən keçdiyini unutmaq olmaz. Fransa Senatının mütəmadi qərəzli qətnamələri ölkədə siyasi mühitin sabit olmadığını göstərir və tam normallaşma üçün hələ müəyyən məsafə qalır. Yəni Bakı-İrəvan yekun sülhünün Azərbaycan-Fransa münasibətlərinə müsbət təsir ehtimalı çox olsa da, bu münasibətlərin tam rəvan məcraya çıxması yalnız regional reallıqlarla yox, həm də Fransanın öz siyasətini yenidən qurmaq iradəsi ilə bağlı olacaq.

***Tacir SADIQOV***
***XQ***

# Aİ müşahidəçiləri Ermənistanı niyə tərk etmir?

**Bakı və İrəvan arasında faktiki olaraq sülhün təmin edilməsinə baxmayaraq, hələ də Ermənistanda fəaliyyət göstərən Avropa İttifaqının (Aİ) müşahidə missiyası Ermənistan–Azərbaycan sərhədində 7000-ci "yubiley" monitorinqini həyata keçirib. Missiya rəhbərliyinin bu münasibətlə yaydığı məlumatda monitorinqin sərhədin hansı hissəsində və Ermənistanın hansı bölgəsində keçirildiyi göstərilmir. Yalnız Qafqaz dağları fonunda dayanmış dörd müşahidəçinin fotosu təqdim olunub.**

Xatırladaq ki, Azərbaycan və Ermənistan arasında paraflanmış sülh sazişinin 7-ci maddəsinə əsasən, tərəflər ümumi sərhədlərində üçüncü ölkələrin qüvvələrini yerləşdirməmək öhdəliyi götürüblər. Bundan başqa, ABŞ Prezidenti Donald Trampın Cənubi Qafqazda sülhün qorunmasına dair öhdəlikləri Aİ-nin Ermənistandakı müşahidə missiyasının fəaliyyətinin vaxtından əvvəl dayandırılması üçün şərait yaradır. Tərəflər sülh sazişini imzalamasalar belə, artıq qarşılıqlı şəkildə dinc əməkdaşlıq etməyə razılaşıblar. Deməli, Avropa müşahidəçilərinin binokllarına ehtiyac qalmayıb. Bununla belə, son monitorinq göstərir ki, missiya fəaliyyətini dayandırmağı planlaşdırmır və Ermənistan hakimiyyəti Aİ müşahidəçilərinin ölkədən çıxarılması barədə heç nə demir.

O da məlumdur ki, müşahidəçilər hələ başlanğıcdan öz işlərini görmürlər. Təsəvvür edin, onlar bir dəfə də olsun sərhəddə atəşkəs pozuntusu qeydə almayıblar. Hər insident zamanı təmas xəttinin tamam başqa sahəsində olublar. Deməli, missiya obyektiv deyil, yalnız siyasi mənada Ermənistanın mövqeyini qoruyan alətdir. Başqa sözlə desək, missiyanın fəaliyyəti regiondakı təhlükəsizliyə töhfə verməyə yox, Qərbin Ermənistandakı mövcudluğunu gücləndirməyə yönəlib. Qurumun müşahidəçilərinin ilk gündən qeyri-rəsmi, yəni gizli funksiyalar yerinə yetirmələri də fikrimizin sübutudur. Bununla bağlı müxtəlif versiyalar da var: qonşu dövlətlərə, o cümlədən Azərbaycana qarşı kəşfiyyat fəaliyyəti, Rusiyanın Gümrüdəki 102-ci hərbi bazasının izlənməsi və Qərbin Ermənistanda gizli hərbi kontingent yerləşdirməsi.

Görünür, buna görədir ki, Vaşinqton sammitindən sonra missiya Ermənistanı tərk etmir. Çünki onun əsl funksiyası Ermənistan–Azərbaycan münasibətlərinin tənzimlənməsi ilə bağlı deyil. İndi isə missiyanın gələcək mövcudluğu üçün yeni rəsmi bəhanə də tapılıb: müşahidəçilər sülh sazişi imzalanana qədər Ermənistan–Azərbaycan sərhədi boyunca fəaliyyətini davam etdirəcəklər. Yeri gəlmişkən, baş nazir Nikol Paşinyanın da bunu vurğulayan açıqlaması var.

Əlbəttə, Aİ müşahidəçilərinin sülh sazişinin imzalandıqdan sonra da bölgədə qalmaları mümkündür. Brüsselin İrəvanla razılaşdıraraq, "müşahidə missiyasını yenidən formalaşdırması" ehtimalı var. Baxmayaraq ki, sülh sazişinin 7-ci maddəsi ümumi sərhədlər boyunca üçüncü ölkə qüvvələrinin yerləşdirilməməsi öhdəliyini müəyyənləşdirir.

Bəli, Aİ-nin xarici siyasət üzrə rəsmi nümayəndəsi Anita Hipperin açıqlamalarından aydın görünür ki, Vaşinqton sammitindən sonra missiyanın bölgədə qalması onun Ermənistan–Azərbaycan münaqişəsinin həllindən daha geniş regional və geosiyasi marağı var. Başqa sözlə desək, hətta sülh müqaviləsinin imzalanması da müşahidə missiyasının fəaliyyətini Ermənistanın digər ərazilərində davam etdirməsinə mane yaratmayacaq. Deməli, müşahidəçilərin Azərbaycanla sərhəddən Ermənistanın digər bölgələrinə, o cümlədən İran, Türkiyə və Gürcüstanla sərhədlərə çəkilmələri mümkündür.

Qərbin Ermənistanla hərbi əlaqələrini genişləndirməsi Rusiyanın regional təsirini zəiflədir və Kremlin maraqlarına ciddi zərbə vurur. Bu isə Rusiya ilə Qərb arasında gərginliyi artıracaq.

Hər üç variant geniş məlumatların toplanmasını tələb edir. Bu məlumatlar sərhəd boyunca baş verən hadisələrdən tutmuş, hərbi fəaliyyətlərə, siyasi qərarlara və sosial-iqtisadi vəziyyətə qədər geniş spektri əhatə edəcək. Toplanan məlumatlar yalnız sərhəddə vəziyyətin monitorinqi ilə məhdudlaşmır, həm də regiondakı geosiyasi balansın daha dəqiq qiymətləndirilməsi və gələcək strateji qərarların hazırlanması üçün əsas mənbə kimi istifadə olunacaq.



Belə olan halda yuxarıda qeyd etdiyimiz 3 versiyanı nəzərdən keçirək. Hələlik ehtimal olsa da, bu 3 versiya həm regional güc balansı, həm də beynəlxalq təhlükəsizlik baxımından narahatlıqlar yaradır. Birinci versiyaya görə, Aİ tərəfindən həyata keçirilən missiyanın əsas məqsədi Ermənistanın qonşu ölkələri olan Gürcüstan və İranla bağlı məlumat toplamaqdır. Bu fəaliyyət sərhəd gərginliyindən hərbi fəaliyyətlərə, siyasi qərarlara və sosial-iqtisadi vəziyyətə qədər geniş bir spektri əhatə edir. Daha böyük məqsəd isə regiondakı "geosiyasi balansı dəqiq qiymətləndirmək və gələcək strateji qərarlar" hazırlamaqdır. Aydındır ki, belə yanaşma Gürcüstan və İranla inamsızlığa yol açacaq.

Missiyanın ikinci istiqaməti Rusiyanın Gümrü şəhərindəki hərbi bazasını izləməkdir. Moskva bu bazanı Ermənistanın suverenliyini dəstəkləmək üçün saxlamır, həm də Cənubi Qafqazda və ətraf regionda hərbi və siyasi təsirini artırmaq məqsədini güdür. Aİ həmin bazanın fəaliyyətini izləməklə yanaşı, Rusiya ilə hərbi münasibətləri və regional güc balansını təhlil etmək niyyətindədir. O da aydındır ki, Moskva bu müşahidəni öz hərbi fəaliyyətinə müdaxilə kimi qiymət-ləndirə və sərt etiraz edə bilər.

Üçüncü istiqamət Qərb hərbi kontingentinin Ermənistanda yerləşdirilməsinə hazırlıq prosesidir. Ekspertlər bunun siyasi və hərbi baxımdan Qərbin regiondakı mövqeyini möhkəmləndirməyə yönəldiyini qeyd edirlər. Bu fəaliyyət regional siyasətin və hərbi hazırlığın mühüm hissəsini təşkil edəcək. Qərbin Ermənistandakı hərbi mövcudluğu Rusiyanın Cənubi Qafqazda təsirinə qarşı açıq təhdid olacaq. Kreml uzun müddətdir ki, Ermənistanda hərbi bazalarla mövcudluğunu qoruyur və bu ona regionda nüfuz və təhlükəsizlik təminatları verir.

Beləliklə, sülh sazişinin paraflanması fonunda missiyanın qalması göstərir ki, Ermənistan və Aİ üçün bu kontingent sülhlə bağlı deyil, daha geniş siyasi proseslərin tərkib hissəsidir. Saziş qüvvəyə mindikdən sonra belə missiyanın sadəcə yerini dəyişdirərək Ermənistanda qalması o deməkdir ki, müşahidəçilər Azərbaycanla sərhəddən çəkilsələr belə, onlar region ölkələri arasında şübhələr yarada, Ermənistanı Qərb–Rusiya qarşıdurmasının yeni mövqeyinə çevirə bilər.

Onu da qeyd edək ki, bu vəziyyət Azərbaycanın region üçün nəzərdə tutduğu modelə ziddir. Ölkəmiz xarici hərbi kontingentlərdən kənar Cənubi Qafqaz istəyir və sülhün məhz regional əməkdaşlıq vasitəsilə təmin olunmasını prioritet sayır. Aİ missiyasının qeyri-şəffaf fəaliyyəti isə həm Ermənistan–Azərbaycan normallaşmasını ləngidir, həm də Ermənistanı öz mövqeyini sərtləşdirməyə təşviq edir. Əgər missiya siyasi alət kimi qalmağa davam edərsə, bölgədə etimadı artırmaq əvəzinə, yeni gərginlik ocaqları yaradacaq. Azərbaycanın baxışına görə, üzvi və davamlı sülh yalnız regional dövlətlərin öz maraqları və qərarları əsasında formalaşmalıdır, xarici güclərin bölgədə sabitliyi alətə çevirməsi ilə deyil.

İstənilən halda, missiyanın Azərbaycanla sərhəddə fəaliyyətinin bitməsinə az müddət qalıb. Ancaq bir şey nəzərə alınmalıdır ki, bunlar sazişin qüvvəyə minməsindən sonrakı müddət üçün nəzərdə tutulur. Biz isə hələ sazişi imzalamamışıq, sadəcə paraflamışıq. Çox güman ki, sənəd Ermənistanın yeni konstitusiyasının qəbulundan sonra imzalanacaq.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

# TDT ölkələri QHT-ləri Naxçıvanda




**Türk Dövlətləri Təşkilatına üzv ölkələrin QHT-lərinin Həmrəylik Forumu dünən Naxçıvan şəhərində davam edib.**

Məclisin açılışında Azərbaycan Respublikasının QHT-lərə Dövlət Dəstəyi Agentliyinin icraçı direktoru Aygün Əliyeva qeyd edib ki, son 3 ildə Özbəkistan, Türkiyə, Şimali Kipr Türk Respublikası və digər qardaş türk dövlətlərində fəaliyyət göstərən QHT-lərlə və tərəfdaş qurumlarla bir sıra vacib layihələr həyata keçirilib.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Ceyhun Cəlilov bildirib ki, 2009-cu ildə "Naxçıvan Sazişi"nin imzalandığı şəhərdə Türk Dövlətləri Təşkilatına üzv ölkələrin QHT-lərinin Həmrəylik Forumunun keçirilməsi rəmzi məna daşıyır: "Naxçıvanın vətəndaş cəmiyyəti təmsilçiləri də türk dövlətləri ilə əməkdaşlığın genişləndirilməsində xüsusilə maraqlıdır. Muxtar respublikanın QHT-ləri regional təşəbbüslərə qoşulmağa, ortaq layihələrdə iştirak etməyə və Türk dünyasının birliyinə öz töhfələrini verməyə böyük həvəs göstərirlər".

Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının QHT-lərlə iş və kommunikasiya şöbəsinin QHT-lərlə iş sektorunun müdiri Tural Əliyev deyib ki, bu gün qədim Naxçıvan torpağında Türk Dövlətləri Təşkilatına üzv ölkələrin QHT-ləri ilk dəfə vahid platformaya çıxır. Bakıda başlanan proses davamlı olacaq: "Türk Dövlətləri Təşkilatına üzv ölkələrin QHT-lərinin Həmrəylik Forumunun hər il təşkilata sədrlik edən dövlətin təşkilatçılığı ilə keçirilməsini, davamlı olmasını arzu edirik".

Forum panel müzakirələrlə davam edib.

***Səbuhi HƏSƏNOV***
***XQ***

# Azərbaycan Lüksemburq Beynəlxalq Bazarında

**Lüksemburqda keçirilən Beynəlxalq Bazarda Azərbaycan "LuxAz" stendi ilə təmsil olunub. Diasporla İş üzrə Dövlət Komitəsi və ölkəmizin Lüksemburqdakı səfirliyinin dəstəyilə Azərbaycan Lüksemburq Dostluq Assosiasiyasının uğurla təqdim etdiyi ekspozisiya böyük maraqla qarşılanıb.**




15 ildir ki, ardıcıl olaraq ölkəmiz bu nüfuzlu xeyriyyə yarmarkasında böyük stendlə təmsil olunur və xalqımızın mədəni irsi, kulinariyası və milli dəyərlərinin tanıdılmasına mühüm töhfə verir.

Ümumilikdə, 40 min nəfərə yaxın ziyarətçinin iştirak etdiyi tədbirdə 63 stend sərgilənib. Lüksemburqun xarici işlər naziri Xavier Bettel Azərbaycan stendində təqdim edilən məhsullar, mədəni nümunələr və diasporumuzun fəaliyyəti ilə yaxından tanış olub.

Beynəlxalq təqdimatı əlamətdar edən məqamlardan biri də Azərbaycan stendinin rəhbəri Seymur Əhmədovun Bazarın Təşkilat Komitəsinin İdarə Heyətinə üzv seçilməsi olub. Bu da öz növbəsində əvvəlki illərdən fərqli olaraq Azərbaycan təmsilçiliyini təşkilati baxımdan fəallaşdırıb. Azərbaycan stendinin uğurlu təşkilinə "Silkway Kargo", "Savalan", "Ravira", "AzGranata", "Zira Naturals", "Azersun Holding" şirkətləri böyük dəstək göstəriblər.

***XQ***






*Konstitusiya və Suverenlik İli – 2025*

# Azərbaycan dövlətçiliyinin ideoloji və siyasi təməli

**Azərbaycan Respublikasında 2025-ci ilin “Konstitusiya və Suverenlik İli” elan olunması Prezident İlham Əliyevin müdrik dövlətçilik qərarlarından biri kimi tarixə düşür. Bu təşəbbüs, bir tərəfdən, müstəqilliyimizin bərpasından ötən dövrdə qazanılan nailiyyətlərin ümumiləşdirilməsi, digər tərəfdən isə yeni milli ideoloji prioritetlərin formalaşdırılmasına xidmət edir. Burada söhbət heç də hüquqi sənədlərin və tarixi faktların xatırladılmasından deyil, həm də qüdrətli Azərbaycanın möhkəmlənmiş dövlətçilik dayaqlarının, dönməz müstəqillik kursunun və milli kimliyin dünyaya təqdimindən gedir.**



Azərbaycan xalqı tarix boyu müstəqillik ideyasını öz varlığının əsas ruhu kimi yaşadıb. 1918-ci ildə yaradılmış Azərbaycan Xalq Cümhuriyyəti cəmi iki il mövcud olsa da, milli dövlətçilik ənənələrinin formalaşmasında mühüm rol oynayıb. Bu dövlət Şərqdə ilk demokratik respublika olaraq, xalqın siyasi iradəsini ifadə edib, müstəqillik ideyasını dövlətçilik reallığına çevirib.

Lakin 1920-ci ildə Cümhuriyyətin süqutu ilə Azərbaycan uzun illər Sovet İttifaqının tərkibində yaşadı. Bu dövr ərzində xalqımız öz müstəqillik arzusunu heç vaxt unutmadı. 1990-cı illərin əvvəllərində, Sovet İttifaqının dağılmasından sonra isə öz müstəqilliyini bərpa etmək üçün mühüm addımlar atdı. Bununla yanaşı, Azərbaycan xalqının suverenlik arzusu və müstəqillik iradəsi 1918-ci ildə qurulmuş və cəmi iki il yaşayan Azərbaycan Xalq Cümhuriyyətindən irəli gələn ənənələrə söykənirdi.

Cümhuriyyətin süqutundan sonra 70 ilə yaxın Sovet İttifaqının tərkibində olan Azərbaycan xalqı öz müstəqillik arzularını daim ürəyində yaşatmışdı. 1991-ci il oktyabrın 18-də qəbul edilən Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı ilə Azərbaycan rəsmən müstəqil dövlət statusunu bərpa etdi. Beləliklə, Azərbaycan xalqı öz dövlətçilik yolunu yenidən təsdiq etdi və beynəlxalq ictimaiyyətin tamhüquqlu üzvü kimi tanındı.

Dövlətimizin müstəqillik tarixinin ən mühüm hadisələrindən olan Əsas Qanun da məhz Ulu öndər Heydər Əliyevin gərgin əməyi nəticəsində hazırlandı. 1995-ci il noyabrın 12-də ümumxalq referendumunda qəbul edilmiş Azərbaycan Respublikası Konstitusiyasında ölkəmizdə müasir cəmiyyətin əsas inkişaf istiqamətlərini müəyyənləşdirən ideya və dəyərlər geniş şəkildə təsbit edildi. Belə ki, Konstitusiyada dövlət hakimiyyət orqanlarının demokratik qaydada formalaşdırılması, insan şəxsiyyətinə və ləyaqətinə hörmət bəslənilməsi, insan hüquqlarının səmərəli müdafiəsi mexanizmlərinin qurulması, siyasi sistemdə plüralizmə təminat verilməsi və ümumbəşəri dəyərlərə sadiqlik göstərilməsi öz əksini tapdı.

Azərbaycanın dövlət müstəqilliyinin hüquqi əsaslarının möhkəmləndirilməsində 1995-ci ildə qəbul edilmiş Konstitusiya xüsusi əhəmiyyət kəsb edir. Ulu öndər Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə hazırlanmış bu sənəd ölkəmizin müasir inkişaf yolunu müəyyənləşdirən strateji çərçivədir. Konstitusiyada təsbit edilən dəyərlər – dövlət hakimiyyətinin demokratik formalaşması, insan hüquqlarının qorunması, siyasi plüralizm, dünyəvi dövlət quruculuğu və ümumbəşəri dəyərlərə sadiqlik göstərilməsi Azərbaycanın müstəqil dövlət kimi inkişaf modelinin mahiyyətindən xəbər verir.

Ulu öndər Konstitusiyanın yalnız hüquqi deyil, həm də mənəvi dəyər daşıdığını xüsusi vurğulayaraq deyirdi: “Bizim Konstitusiyamız xalqın Konstitusiyasıdır. Hər bir vətəndaşın Konstitusiyasıdır!” Bu fikir Azərbaycan vətəndaşlarının dövlətlə münasibətlərini yeni bir fəlsəfi məna ilə zənginləşdirirdi. Qeyd edim ki, müstəqilliyin bərpası ilə dövlətçilik tariximiz yeni çağırışlarla üz-üzə qaldı. Ermənistanın təcavüzü nəticəsində torpaqlarımızın işğalı Azərbaycanın suverenliyini məhdudlaşdırdı. Uzun illər davam edən bu vəziyyət xalqımızın milli kimliyinə, ərazi bütövlüyünə və konstitusion dəyərlərinə qarşı açıq bir təhdid idi. 44 günlük Vətən müharibəsində Azərbaycan Ordusunun əldə etdiyi tarixi Zəfər isə suverenlik anlayışını tam şəkildə gerçəkləşdirdi. Bu parlaq Qələbə yalnız hərbi nəticə deyildi. Belə bir tarixi uğur, eyni zamanda, hüquqi, siyasi və mənəvi müstəvidə Azərbaycanın öz milli iradəsini təsdiq etməsi idi. Konstitusiyanın hüquqi qüvvəsi bütün ərazilərimizdə bərpa olundu və müstəqilliyimizin dönməzliyi əyani şəkildə sübut edildi.

Müharibədən sonra Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında həyata keçirilən genişmiqyaslı bərpa və yenidənqurma layihələri Azərbaycanın qüdrətli dövlət iradəsinin göstəricisidir. “Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı” çərçivəsində məcburi köçkünlərin doğma yurdlarına qayıdışı, yeni iqtisadi zonaların formalaşması və inteqrasiya layihələri suveren dövlətin praktik gücünü nümayiş etdirir.

Burada diqqətçəkən məqam ondan ibarətdir ki, Azərbaycanın bərpa siyasəti yalnız iqtisadi və sosial layihələrlə məhdudlaşmır, həm də milli ideoloji bazanı möhkəmləndirir. Bu, dövlətin vətəndaş qarşısında məsuliyyətini, eləcə də beynəlxalq müstəvidə mövqelərini gücləndirir.

“Konstitusiya və Suverenlik İli”nin ideoloji missiyasına gəldikdə isə 2025-ci ilin bu adla elan olunması bir neçə istiqamətdə strateji məqsədlərə xidmət edir. Birincisi, bu, tarixi yaddaşı möhkəmləndirir. Azərbaycan xalqının yüzillik müstəqillik arzuları və dövlətçilik ənənələri cəmiyyətə daha dərindən çatdırılır. İkincisi, milli ideologiyanın təbliği önə çəkilir. Konstitusiyanın prinsipləri əsasında müasir Azərbaycan vətəndaşının hüquqi, siyasi və mənəvi dəyərlərə bağlılığı möhkəmlənir. Üçüncüsü, müstəqilliyin dönməzliyi təsdiqlənir. Azərbaycanın əldə etdiyi tarixi zəfərlər fonunda suverenliyin qorunması və inkişafı dövlət siyasətinin prioriteti kimi xüsusi diqqətdə saxlanılır. Bütün bunlarla yanaşı, beynəlxalq müstəvidə mövqelərin gücləndirilməsi də əsas şərtlər sırasında yer alır. Qüdrətli Azərbaycan imici dünya ölkələrinə hüquqi, demokratik və müstəqil dövlət nümunəsi kimi təqdim olunur.

Azərbaycan Respublikasının müstəqillik və dövlətçilik tarixi yalnız siyasi hadisələrin xronologiyası deyil, həm də xalqımızın milli iradəsinin, azadlıq sevgisinin və suverenlik uğrunda mübarizəsinin təcəssümüdür. Prezident İlham Əliyevin qərarı ilə elan edilmiş “Konstitusiya və Suverenlik İli” bu tarixi dəyərlərin yeni mərhələdə təbliğinə, möhkəmlənməsinə və gələcək nəsillərə ötürülməsinə xidmət edir.

Bu il təkcə yubiley xarakterli tədbirlərlə məhdudlaşmayacaq, həm də müstəqil dövlətçiliyimizin mahiyyətini bütün parametrləri ilə ortaya qoyacaq. Azərbaycanın güclü dövlət kimi mövqeyinin daha da möhkəmlənməsi, müstəqilliyimizin əbədi və dönməz olduğunun beynəlxalq aləmdə bir daha təsdiqlənməsi isə bu ideoloji missiyanın ən böyük nəticəsi olacaq.

***Hidayət NURƏLİBƏYOV,***
***Nərimanov rayon prokuroru***

# Zəfərimiz şərəf tariximiz, qürur mənbəyimizdir

**Azərbaycan xalqı 44 günlük Vətən müharibəsində tarixi qələbənin 5-ci ildönümünü böyük qürur və iftixar hissi ilə qeyd etdi. Torpaqlarımızın 30 illik erməni işğalından azad edilməsinə nail olduğumuz bu müharibənin hər günü hər bir azərbaycanlı üçün müqəddəsdir. Çünki bu ölüm-qalım savaşı Vətən torpaqlarının, qədim yurd yerlərimizin, dədə-baba ocaqlarımızın düşmən tapdağından xilası, milli şərəf və ləyaqətin bərpası uğrunda aparılırdı. Ona görə 8 Noyabr Zəfərinin milli tariximizdə, Azərbaycan xalqının qan yaddaşında xüsusi və əbədi yeri var. Bu tarixi qələbə ilə bağlı siyasi elmlər üzrə fəlsəfə doktoru, polkovnik Cəlil Xəlilovun qələmə aldığı və yaxın günlərdə geniş ictimaiyyətə təqdim olunacaq “İlham Əliyev: Müharibənin qalibi, sülhün müəllifi” kitabı da 44 günlük Vətən müharibəsində qazanılmış şanlı qələbənin müstəsna əhəmiyyətinə və Azərbaycan tarixindəki xüsusi, həlledici yerinə həsr olunmuşdur.**




Kitabda Ermənistanın 1988-ci ildən etibarən Azərbaycana qarşı ərazi iddiaları ilə başlatdığı Qarabağ münaqişəsinin, 37 illik dövrdə baş verən hadisələrin mahiyyəti, siyasi mənzərəsi faktlarla açılmışdır. 1981-ci ildən başlayaraq M.Qorbaçov və SSRİ rəhbərliyi timsalında ermənilərin separatçı hərəkatına və az sonra təcavüzkarlığına göz yumulması, əslində, rəvac verilməsi onların Qarabağa yiyələnmək istəklərinin reallaşdırılmasına stimul yaratmışdı. Öz havadarlarının köməyindən maksimum yararlanan Ermənistan 1992-1994-cü illərdə baş vermiş Birinci Qarabağ müharibəsində “Dağlıq Qarabağı” və ətraf 7 rayonu işğal etmiş, daha sonra isə Azərbaycanın həmin ərazilərində ikinci erməni dövləti yaratmağa cidd-cəhd göstərmişdir. Keçmiş Ermənistan dövlətinin prezidentləri R.Koçaryan və S.Sarkisyan əsl faşizm siyasəti yürütdülər.

Ermənilərin bu niyyətlərinin, Azərbaycanın yeni ərazilərini işğal etmək planlarının qarşısı yalnız Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin hakimiyyətə gəlişi ilə alınmışdır. Böyük dövlət adamının səyləri nəticəsində qısa müddətdə bu hücumların qarşısı alındı, hətta işğal olunmuş bəzi ərazilər və Horadiz qəsəbəsi düşmən tapdağından azad olundu. Bu, Azərbaycanın gələcək qələbələrinin başlanğıcı idi. Müəllif haqlı olaraq qeyd edir ki, Azərbaycan torpaqlarının işğaldan tamamilə qurtarılması uğrunda aparılan genişmiqyaslı işlərin də əsası məhz Ulu öndərin hakimiyyətə gəlməsinin ilk ilində qoyulmuşdur. Həmin vaxtdan başlanaraq, ölkə daxilində sabitliyə, qanunçuluğun möhkəmləndirilməsinə, iqtisadi inkişafa və nizami ordu quruculuğuna nail olunması üçün ardıcıl tədbirlər görüldü. Ermənistanla atəşkəsin imzalanması ilə vaxt əldə edilməsi və beynəlxalq hüquqi sənədlərin, xüsusilə BMT-nin 4 qətnaməsinin qeyd-şərtsiz yerinə yetirilməsinin ən mötəbər kürsülərdən səsləndirilməsi, digər nüfuzlu təşkilatlarda tarixi sənədlərin və Azərbaycanın mövqeyinin qəbul etdirilməsi də məhz işğalın sona çatdırılmasına yaradılan zəmin idi. Ancaq qarşı tərəf münaqişənin dinc yolla həllinə tərəfdar olmadığı üçün bunlar istənilən nəticəni vermirdi.

Müəllif xronoloji ardıcıllıqla və təhlil süzgəcindən keçirməklə hadisələrin sonrakı inkişafını da göstərir. Oxucuya Ermənistanın Baş naziri Nikol Paşinyanın və komandasının timsalında Ermənistanın tez-tez təxribatlara yol verməsi, bütün vasitələrlə status-kvonu saxlamaq cəhdləri, hətta Azərbaycanın yeni ərazilərini işğal etmək niyyətləri ilə bağlı faktlar və düzgün dəyərləndirmələr təqdim olunur. Müəllif Azərbaycanın bütün bunlara soyuqqanlılıqla yanaşmaqla müasir ordu quruculuğu prosesini uğurla davam etdirməsini, ordunun ən yeni texniki vasitələrlə təmin olunmasını, beynəlxalq səviyyədə məharətli siyasət nəticəsində təcavüzkara qarşı müvafiq tədbirlər görülməsinin qaçılmazlığının qəbul etdirilməsini xüsusi vurğulayır. Təcavüzkarın layiqli cavabını almasının lazım gəldiyini təsdiqləyən sonuncu hadisələrdən biri 2020-ci ilin iyul ayında Ermənistan silahlı qüvvələrinin Tovuz rayonu istiqamətində hücumu oldu. Bundan qısa müddət keçmiş 2020-ci il 27 sentyabr tarixində Ermənistan növbəti dəfə genişmiqyaslı təxribat törədərək mülki və hərbi obyektləri atəşə tutdu. Bu, artıq Azərbaycanın səbrini daşıran, təcavüzkarın layiqincə cəzalandırılmasını qaçılmaz edən son damla oldu. Azərbaycan Ordusu əks-hücum əməliyyatına başladı. Heç kimin gözləmədiyi bir sürətlə Azərbaycan əraziləri düşməndən təmizlənməyə başlandı. Qəhrəman əsgər və zabitlərimizin görünməmiş şücaəti, fenomenal döyüş strategiyası və taktikası ilə Füzuli, Cəbrayıl, Zəngilan və Qubadlı rayonları 30 illik erməni işğalından azad olundu. Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin böyük sərkərdəlik məharəti ilə idarə etdiyi döyüş əməliyyatları düşməni tamamilə sarsıtdı, Ermənistan ordusu minlərcə itki verməklə səngərlərdən qaçmağa başladı, fərarilik geniş miqyas aldı.

Cəbhədə qazanılan qələbələrlə paralel Azərbaycan Prezidentinin dünyanın aparıcı media qurumlarına verdiyi çoxsaylı müsahibələr Qarabağın işğaldan azad edilməsinin Azərbaycanın beynəlxalq hüquqla tanınan danılmaz haqqı olduğunu birmənalı ifadə etməklə, təcavüzkarı dəstəkləmək cəhdlərinin və niyyətlərinin qarşısını aldı. Bu müsahibələrin dünyanın ən aparıcı medialarına verilməklə necə böyük bir auditoriyanı əhatə etməsi də hərtərəfli düşünülmüş və uğurla reallaşdırılmış bir taktika və strategiya idi. Hərb meydanında və masada əldə etdiyi inanılmaz qələbələri ilə dünyanı heyrətə salan İlham Əliyev taktikası və strategiyası.

Kitaba həmin müsahibələrin hansı beynəlxalq media qurumlarına və hansı tarixdə verildiyi, mövzuları barədə məlumatlar da daxil edilib.

Müəllif Azərbaycan Ordusunun 8 noyabrda strateji əhəmiyyətə malik Şuşa şəhərini azad etməsini, hərb tarixinə düşən bu döyüşün müharibənin taleyini həll etdiyini, Ermənistanın kapitulyasiyasına səbəb olduğunu vurğulayır və 10 noyabr 2020-ci ildə Azərbaycan, Ermənistan və Rusiya arasında üçtərəfli Bəyanatı Azərbaycanın növbəti qələbəsi kimi dəyərləndirir. Çünki məğlubiyyətini qəbul edən Ermənistan qısa müddətdə Ağdam, Kəlbəcər və Laçın rayonlarını bir güllə atılmadan Azərbaycana təhvil verdi.

Müəllif müharibə zamanı Azərbaycana həqiqi və mənəvi dəstək göstərmiş Türkiyə, Pakistan və İsrail dövlətlərinin adını çəkir, müasir PUA-lardan və digər texniki vasitələrdən geniş istifadə olunmasını da xüsusi məmnunluqla qeyd edir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dəfələrlə qeyd edib ki, qələbəni təmin edənlər əsgərlər və zabitlər idi.

Kitabda 2023-cü ildə keçirilən lokal antiterror tədbirləri ilə Azərbaycanın bütün Qarabağ üzərində suverenliyinin bərpa edildiyi, hazırda azad olunan ərazilərdə genişmiqyaslı bərpa və yenidənqurma işlərinin aparıldığı da qeyd olunur və bütün bunlarda Azərbaycan xalqını səfərbər etməyi bacaran möhtərəm Prezidentin liderlik qabiliyyətinin mühüm rol oynadığı vurğulanır.

Kitabda Azərbaycan Ordusunun müharibənin davam etdiyi 44 gün ərzində göstərdiyi peşəkarlığı, qəhrəmanlığı yüksək qiymətləndirir və bunun hərb tariximizin şanlı səhifələrini təşkil etdiyini iftixar hissi ilə oxucuya çatdırır. Cümhuriyyətimizin yadigarı olan milli ordumuzun 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdan Ulu öndər Heydər Əliyev və sonrakı mərhələdə bu yolu uğurla davam etdirən Prezident İlham Əliyev tərəfindən ardıcıl surətdə inkişaf etdirildiyi, dünyanın ən güclü orduları sırasına çıxarıldığından qürur duyan müəllif ordu quruculuğunun bu gün də əzmlə davam etdirildiyini qeyd edir. Onu da bildirir ki, hazırda Azərbaycanın müdafiə sənayesi müəssisələrində 1000-dən çox hərbi təyinatlı məhsul istehsal olunur və ordu NATO standartlarına yaxınlaşdırılmışdır. Bu gün Azərbaycan Ordusu dünyanın ən güclü 50 ordusu sırasında yer almaqdadır. Müasir ordu modeli çərçivəsində Komando briqadaları, Xüsusi Təyinatlı Qüvvələr, pilotsuz uçuş aparatları ilə təchiz olunmuş bölmələr yaradılmış, döyüş hazırlığı və texnoloji üstünlük təmin edilmişdir.

Vətən müharibəsində əldə olunan möhtəşəm Zəfərin 2020-ci il dekabrın 10-da Bakıda keçirilən Zəfər Paradı ilə ölkə səviyyəsində bir daha tarixləşdirilməsi və təntənə ilə qeyd olunduğu da kitabda əksini tapmış və bu qürurverici hadisə barədə geniş məlumat çatdırılmışdır.

Əlbəttə, böyük Zəfərin əldə olunması Azərbaycan Silahlı Qüvvələrinin əsas tərkib hissəsi olan Azərbaycan Ordusu ilə yanaşı, onun hər bir bölməsinin şücaətinin, peşəkarlığının nəticəsidir. Bu baxımdam Azərbaycan təhlükəsizlik orqanlarının qələbəyə verdiyi töhfələr xüsusi əhəmiyyət kəsb edir və müəllif bu barədəki fikirlərini konkret faktlara istinadla açıqlayır. Üç fəsildən ibarət olan kitabın 2-ci fəslində yer alan “DTX ordumuzla birlikdə təhlükəsizliyimizin qarantı, xalqımızın qürur yeridir” və “DTX-nın antiterror əməliyyatı” adlı yazılarda təhlükəsizlik orqanılarnın 44 günlük Vətən müharibəsində erməni işğalçılarına qarşı mübarizədə həyata keçirdiyi uğurlu fəaliyyətdən, böyük fədakarlıqlardan bəhs olunur.

Kitabın başlıca məziyyətlərindən biri şanlı Zəfərdən ötən beş il ərzində onun tarixi və praktik əhəmiyyətinin geniş ictimaiyyət arasında təbliği, Azərbaycanın işğaldan azad olunmuş ərazilərində aparılan bərpa-quruculuq işlərinin hərtərəfli əhatə olunması, Ermənistanla sülhün əldə edilməsi üçün göstərilən ardıcıl səylər, iki və çoxtərəfli danışıqların nəticələrinin təhlil edilməsi ilə bağlıdır.

Kitabı vərəqlədikcə əmin olursan ki, müharibədə olduğu kimi, sülh prosesində də Azərbaycanın mövqeyi ardıcıl və qətidir. Yeri gəlmişkən, vaxtilə xalqımıza qarşı ağır, qanlı cinayət əməlləri törətmiş erməni separatçılarının bu gün Bakı Hərbi Məhkəməsində, dünyanın gözü qarşısında cavab vermələri və öz cinayətlərini etiraf etmələri də göstərir ki, Azərbaycan dövləti güclüdür, onun Prezidenti isə milli maraqların qorunmasında həmişə olduğu kimi, dönməz və qətiyyətlidir.

Bəli, xalqımız tarixə əbədi həkk olunmuş 44 günlük Vətən müharibəsində qazanılan Zəfərin 5-ci ildönümünü 8 noyabr 2025-ci ildə qürur və iftixar hissi ilə qeyd etdi. Bu Zəfərlə tarixin axarı dəyişdi, xalqın qürur kitabına yeni, silinməz və şərəfli səhifələr yazıldı. Bu əbədi səhifələrin baş qəhrəmanları olan şəhidlərimiz heç zaman unudulmayacaq, daim xatırlanacaq, hər bir azərbaycanlının and yeri olacaqlar.

Bir daha qürurla vurğulayırıq ki, şəhidlərimizin fədakarlığı, qazilərimizin qəhrəmanlığı və xalqımızın sarsılmaz həmrəyliyi bu Zəfərin əbədi əsaslarıdır. Bu sütunlar üzərində yüksələn Zəfər abidəsi isə yalnız bugünkü nəsli deyil, gələcək nəsilləri də ruhlandıracaq. Respublika Veteranlar Təşkilatının sədri, ehtiyatda olan polkovnik Cəlil Xəlilovun 3 fəsildən və ön sözdən ibarət olan yeni kitabının əsas missiyası da budur: Vətəni, öz dövlətini sevmək, həmişə müzəffər Prezident İlham Əliyevin yanında dayanmaq, onun uğrunda hər cür fədakarlığa hazır olmaq. İnamla demək olar, müəllif bu missiyanın öhdəsindən layiqincə gəlib.

***Ağalar ABBASBƏYLİ,***
***tarix elmləri doktoru, professor***

# Azad torpaqların davamlı və balanslı inkişafı

## *9 ayda doğma yurda qayıdanlara 1700 yeni iş yeri yaradılıb*

**Böyük Qayıdışa dair I Dövlət Proqramının təsdiq edilməsi haqqında Azərbaycan Prezidentinin sərəncamında bildirilir ki, həyata keçirilən məqsədyönlü və genişmiqyaslı layihələr Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının sürətlə dirçəlməsinə, əhalinin dayanıqlı məskunlaşmasına və davamlı iqtisadi aktivliyinin təmin olunmasına xidmət edir. Bütün bunlar həmin ərazilərin yüksək inkişaf etmiş regiona çevrilməsi üçün sağlam bünövrə yaradır.**




İşğaldan azad edilmiş ərazilərə Böyük Qayıdış Azərbaycanın 2030-cu ilədək beş Milli Prioritetindən biri kimi müəyyən olunub. Bu Milli prioritetlərə əsaslanan "Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası" yeni inkişaf mərhələsindəki hədəflərə çatmağa xidmət edən mühüm sənəddir.

2025-ci ilin yanvar-sentyabr ayları ərzində işğaldan azad edilmiş rayonlarda 1700 yeni iş yeri yaradılıb. Dövlət Statistika Komitəsinin yaydığı məlumata görə, bu göstəricinin həcmi əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 11 faiz artıb. Belə ki, 2024-cü ilin müvafiq dövründə işğaldan azad edilmiş rayonlarda 1532 yeni iş yerləri yaradılmışdı.

Bu günlərdə işğaldan azad olunmuş ərazilərdə daha bir qrup şəxs üçün özünüməşğulluq proqramı üzrə kiçik ailə biznesləri yaradılıb. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyinin məlumatına əsasən, bu dəfə Ağdam, Ağdərə, Füzuli və Kəlbəcər rayonlarında daha bir qrup şəxsə proqram çərçivəsində "Kiçik dərzi sexi", "Qadın gözəllik salonu", "Poliqrafiya xidmətləri" və "Kombi ustası və sanitar qovşağın quraşdırılması xidməti" zərfləri üzrə aktivlər təqdim edilib. Verilmiş aktivlər hesabına onlar qeyd edilən istehsal və xidmət istiqamətləri üzrə kiçik ailə bizneslərini yaradıblar.

Proqram iştirakçıları onlara göstərilən dəstəyə görə Prezident İlham Əliyevə təşəkkürlərini ifadə ediblər. Onlar özünüməşğulluq proqramı çərçivəsində qurduqları təsərrüfatlarını daim genişləndirməyə səy göstərəcəklərini bildiriblər. İndiyə qədər Böyük Qayıdış proqramı çərçivəsində doğma yurdlarına köçürülmüş sakinlərdən artıq 600-dək şəxs özünüməşğulluq proqramının dəstəyi ilə öz kiçik ailə təsərrüfatlarını qurub.

Yeri gəlmişkən, sözügedən qurum bu ilin avqust ayında yaydığı hesabatda bildirmişdi ki, həmin ərazilərə köçürülmüş sakinlərdən 5300-dək şəxsin məşğulluğu təmin edilib. Onlardan 415 nəfər üçün özünüməşğulluq proqramı çərçivəsində kiçik təsərrüfatlar yaradılıb. Doğma yurdlarına qayıtmış vətəndaşlardan 245 nəfər isə əmək bazarının tələblərinə uyğun peşələr üzrə hazırlıq kurslarına cəlb edilib. Kursları bitirənlərin yeni yiyələndikləri peşələr üzrə işlə təminatı da həyata keçirilir. İşğaldan azad olunmuş ərazilərə köçürülmüş sakinlərdən hazırda daha 652 nəfərin məşğulluğunun təmin olunması istiqamətində iş aparılır.

Qeyd edək ki, bu ilin yanvar-sentyabr ayları ərzində ən çox yeni iş yeri Xankəndi və Laçında yaradılıb. Cari ilin ilk 9 ayı ərzində Xankəndidə 516, Laçında isə 312 yeni iş yerləri yaradılıb. Xatırladaq ki, hesabat dövründə azad edilmiş rayonlarda 170 yeni müəssisə və təşkilat, 2805 yeni fərdi sahibkarlıq subyekti dövlət qeydiyyatından keçib.

Qarabağ və Şərqi Zəngəzurda əhalinin işlə təmin olunmasında peşə hazırlığı da diqqət mərkəzindədir. 7 avqust 2023-cü ildə Prezident İlham Əliyevin iştirakı ilə açılışı olan Qarabağ Peşə Hazırlığı Mərkəzi əmək bazarının tələblərinə uyğun kadrların hazırlanmasında mühüm rol oynayır. Mərkəzdə 7 emalatxana, 8 sinif və instruksiya otağı, Peşəyönümlü və Karyera Planlaması Mərkəzi, inzibati və texniki otaqlar mövcuddur. Burada 48 peşə istiqaməti, o cümlədən dərzi, tikişçi, dizayner, aşpaz, ofisiant, bərbər, vizajist, çilingər, dülgər, tornaçı, xarrat, mebel ustası, rəngsaz, qaynaqçı, santexnik və digər peşələr üzrə tədrisin həyata keçirilməsi üçün infrastruktur yaradılıb.

Mərkəzdə bir dəfədə 300, ildə isə 1200 nəfərin hazırlıq keçməsi nəzərdə tutulub. Burada işəgötürənlərlə əməkdaşlıq çərçivəsində müxtəlif peşə kursları təşkil edilir və kursu bitirənlərin işlə təmin olunmasına dəstək göstərilir. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyinin Qarabağ Peşə Hazırlığı Mərkəzi tərəfindən 2024-cü ildə ümumilikdə 600 nəfər peşə hazırlığı kurslarına cəlb olunub. Onlardan 272 nəfəri işğaldan azad olunmuş ərazilərin sakinləridir. Kursu uğurla bitirən şəxslərin işlə təminatına da dəstək göstərilir.

***Musa BAĞIRLI***
***XQ***

### *Ekspert rəyi*

**Vüqar BAYRAMOV,**
**Milli Məclisin deputatı**



Azərbaycan iqtisadiyyatının dinamik və balanslı inkişafı dövlətin əsas prioritetlərindən biridir. Cənab Prezident tərəfindən müəyyən edilmiş strateji hədəflər çərçivəsində regionlarla paytaxt arasındakı fərqin minimuma endirilməsi xüsusi əhəmiyyət daşıyır. Son dövrlər bölgələrdə daha çox yeni iş yerlərinin açılması və sahibkarlıq mühitinin yaxşılaşdırılması hesabına sərmayə qoyuluşlarının artmasını müşahidə edirik.

Ölkə Prezidentinin vurğuladığı kimi, regionlarda əsas infrastruktur artıq formalaşıb və bu infrastrukturun yeni dəyər yaratması müasir çağırışlardan biridir. Hazırda mövcud infrastruktur həm yerli, həm də xarici sərmayədarların regionlara cəlb olunmasına geniş imkan yaradır. Növbəti dövrdə struktur islahatları və kadr potensialının gücləndirilməsi bölgələrə daha çox investisiya axınını təmin edəcək. Bu proses isə biznesin inkişafını stimullaşdıraraq, regionlarla paytaxt arasında sosial-iqtisadi fərqin azalmasına töhfə verəcək.

Böyük Qayıdış Dövlət Proqramı çərçivəsində Qarabağ və Şərqi Zəngəzurda aparılan genişmiqyaslı bərpa-quruculuq işləri də yeni iş yerlərinin yaradılmasına ciddi təsir göstərir. Hazırda işğaldan azad olunmuş ərazilərdə 62 min Azərbaycan vətəndaşı yaşayır və çalışır. Gözləntilərə görə, növbəti ilin sonuna qədər bu rəqəm 150 minə çatacaq. Bütün bunlar göstərir ki, Qarabağ və Şərqi Zəngəzur artıq Azərbaycan üçün davamlı və balanslı iqtisadi inkişafın yeni hərəkətverici qüvvəsinə çevrilməkdədir.

# Azərbaycan Avrasiyanın enerji habına çevrilir

**İtaliyanın "CESI S.p.A." şirkəti beynəlxalq müsabiqənin nəticələrinə əsasən "Green Corridor Alliance" MMC-nin təşəbbüsü olan Mərkəzi Asiya–Azərbaycan Transxəzər Yaşıl Enerji Dəhlizi layihəsinin texniki-iqtisadi əsaslandırmasının ilk mərhələsini həyata keçirəcək. Xatırladaq ki, Asiya İnkişaf Bankı (ADB) bu mərhələ üzrə texniki-iqtisadi əsaslandırmanın hazırlanması üçün beynəlxalq məsləhətçi seçimi məqsədilə tender elan etmişdi.**




Nəticədə, yüksəkixtisaslı texniki ekspertiza təcrübəsinə malik "CESI S.p.A." qalib olmuşdu. Layihənin maliyyələşdirilməsi ADB ilə yanaşı, Asiya İnfrastruktur İnvestisiya Bankı (AİİB) tərəfindən paritet əsasda həyata keçiriləcək. ADB satınalma prosesini idarə edir, xidmət təchizatçısı müəyyən olunduqdan sonra isə AİİB seçilmiş tərəfdaşla birbaşa müqavilə bağlayacaq. Energetika naziri Pərviz Şahbazov sentyabrın 22-də I Azərbaycan Beynəlxalq İnvestisiya Forumunda Transxəzər Yaşıl Enerji Dəhlizinin ilkin mərhələsi üçün texniki-iqtisadi əsaslandırma məsələsini dilə gətirmişdi. Nazirin sözlərinə görə, Azərbaycan, Qazaxıstan və Özbəkistan birgə "yaşıl enerji" platforması yaratmaq üçün yanaşmalarını yeniləyiblər.

Transxəzər Yaşıl Enerji Dəhlizinin detallarına gəldikdə isə, təşəbbüs dayanıqlı enerji əməkdaşlığının inkişafına, region ölkələrinin enerji sistemlərinin inteqrasiyasına və genişmiqyaslı bərpaolunan enerji ixracına zəmin yaradır. Layihənin uğurla gerçəkləşməsi Azərbaycanın strateji enerji layihələri portfelinə yeni nəfəs gətirəcək.

Xüsusi vurğulanmalıdır ki, 2024-cü ilin noyabrında Bakıda keçirilən COP29 tədbirində Azərbaycan, Qazaxıstan və Özbəkistan liderləri "yaşıl enerji" sahəsində strateji tərəfdaşlıq sazişi imzaladı. Bu sənəd üç ölkənin enerji sistemlərinin birləşdirilərək Mərkəzi Asiya ölkələrinin bərpa olunan elektrik enerjisinin Xəzər dənizi vasitəsilə Avropaya nəqlini təmin edən "Transxəzər Yaşıl Enerji Dəhlizi" layihəsinin əsasını qoydu. COP29 razılaşması çərçivəsində Bakıdakı görüşdə "Green Corridor Alliance" MMC adlı birgə müəssisənin yaradıldığı elan edildi. Bu şirkət Azərbaycan, Qazaxıstan və Özbəkistanın milli energetika şirkətlərini bir araya gətirərək regionun enerji təhlükəsizliyini gücləndirəcək və "yaşıl enerji"nin Azərbaycandan Avropaya ixracını təşkil edəcək.

Bu cür çoxpilləli infrastruktur layihəsi region ölkələrinin uzunmüddətli əməkdaşlığını gücləndirəcək. Misal üçün, ADB və AİİB-in razılaşdırdığı çərçivə sazişi 2025-ci ilin aprelində imzalanıb və burada üçtərəfli TİƏ hazırlığı üçün əsaslı öhdəliklər götürülüb. Bu, Mərkəzi Asiya ilə Cənubi Qafqazı birləşdirən yeni enerji nəqli marşrutunun ilkin hüquqi bazasını formalaşdırır.

Layihə Avropa İttifaqı üçün yeni "yaşıl" elektrik təchizatçısı olacaq. Bu, Avropanın ənənəvi enerji mənbələrindən asılılığını azaltmağa xidmət edəcək və Azərbaycana əlavə qaz ixracı üçün imkan açacaq. Lakin 1200 kilometrlik dənizaltı kabelin çəkilməsi milyardlarla avroluq sərmayə tələb edir. Təqribən layihənin ərsəyə gətirilməsi üçün 10 milyard avro tələb olunur. Buna baxmayaraq, layihə artıq regionda böyük investor marağı doğurub.

Məsələn, Özbəkistanda bərpaolunan enerji sektoruna 2023-cü ildə 1,2 milyard avro investisiya daxil olub və 2024-cü ilin sonuna qədər bu rəqəm 4,23 milyarda çatıb. Bu kimi yatırımlar Mərkəzi Asiya və Cənubi Qafqazı enerji çıxışı ilə təmin edərək regionun iqtisadi inkişafına təkan verir. Həmçinin, Avropa tərəfi də layihəni "yaşıl keçid" strategiyasına uyğun görülən böyük fürsət hesab edir və qarşılıqlı fayda perspektivləri görür.

**Mövzu ilə bağlı iqtisadçı-ekspert Elman Sadıqov** XQ-yə bildirdi ki, postpandemiya dövründə, yəni son 4–5 il ərzində dünya yeni bir mərhələyə qədəm qoyur:



– Bu mərhələ bir tərəfdən fərqli transformasiyaların sintezi, digər tərəfdən isə bu proseslərin bir-birini izlədiyi və tamamladığı dövrdür. Buraya 4-cü Sənaye İnqilabı, robotlaşma, son illərdə şahidi olduğumuz süni intellektin sürətli inkişafı, ənənəvi enerjidən alternativ enerji mənbələrinə keçid və bu fonda əmək bazarında baş verən ciddi dəyişikliklər daxildir. Hazırda əmək bazarında transformasiya gedir, bir sıra ölkələrdə struktur işsizliyi müşahidə olunur.

**Bununla yanaşı, Elman Sadıqov bu dəyişikliklərin ortaq nöqtəsində dayanan əsas məsələni texnoloji inkişafla yanaşı, elektrik enerjisinə artan tələbatla əlaqələndirir:**

– Robotlaşma, elektromobillərin sürətlə yayılması, süni intellekt və rəqəmsal texnologiyaların genişlənməsi nəticəsində enerji ehtiyacları ciddi şəkildə artır. Lakin bu artım təkcə iqtisadi yüksəliş deyil, eyni zamanda ekoloji tarazlıq üçün ciddi çağırışlar yaradır. İqlim dəyişikliyi və ətraf mühitin mühafizəsi məsələləri daha da aktuallaşır.

Məhz bu səbəbdən artan tələbatın alternativ və "yaşıl enerji" ilə qarşılanması zərurətə çevrilib. Hazırda Avropa ölkələri, həmçinin mərkəzi banklar və iri investisiya qurumları ənənəvi enerji layihələrinə vəsait ayırmaqdan imtina edir, diqqət alternativ enerji sektoruna yönəldilir. Bu tendensiya Avropanın gələcək enerji xəritəsini dəyişir. Avropa ölkələrində elektrik enerjisinə olan tələbat yüksəlir, lakin onu ödəmək imkanları məhduddur. Günəşli günlərin azlığı və əlverişsiz iqlim şəraiti bir çox ölkələrdə "yaşıl enerji" istehsalını çətinləşdirir. Şimal ölkələri əsasən külək enerjisinə ümid bağlayır. Lakin sənayeləşmə və texnoloji inkişaf bu mənbələrin də yetərli olmamasına səbəb ola bilər.

**Ekspert onu da bildirib ki, hazırda Avropa üçün enerji təhlükəsizliyi anlayışı tədricən qaz və neftdən elektrik enerjisinə keçir. Bu dəyişiklik yaxın 5 ildə daha da sürətlənəcək və enerji təhlükəsizliyi dedikdə elektrik enerjisinə sabit çıxış nəzərdə tutulacaq:**

– Bu mənzərədə Rusiya da nəzərə alınmalıdır. Geniş ərazisinə baxmayaraq, günəşli günlərin azlığı və əlverişli olmayan iqlim şəraiti səbəbindən alternativ enerji baxımından geniş potensiala malik deyil. Məhz bu səbəbdən dünyanın diqqəti Orta Asiya ölkələrinə və Azərbaycana yönəlib. Cənubda yerləşən bəzi ölkələrdə, məsələn, Afrikada və ərəb dövlətlərində günəş enerjisinin rentabelliyi yüksək deyil. Havanın həddindən artıq isti olması panellərin effektivliyinə mənfi təsir göstərir. Orta iqlim qurşağında yerləşən ölkələr isə bu baxımdan daha optimaldır. Orta Asiya ölkələri – Qazaxıstan, Özbəkistan və Qırğızıstan "yaşıl enerji" istehsalında mühüm yer tutur. Qazaxıstan və Özbəkistanın günəş enerjisi potensialı yüksəkdir. Qazaxıstanda əlavə olaraq külək enerjisi imkanları da genişdir. Qırğızıstan isə əsasən su elektrik stansiyalarına əsaslanır. Əgər bu ölkələrdə istehsal olunan "yaşıl enerji" Azərbaycanın tranzit imkanları vasitəsilə Avropaya ötürülərsə, ölkəmiz "yaşıl enerji" sektorunda uzunmüddətli strateji rol qazanacaq.

Azərbaycan bu prosesdə kilid rol oynayır. Tranzit baxımından etibarlı və sabit ölkə kimi tanınır. Belə bir missiyanın həyata keçirilməsi, həmçinin ölkə daxilində "yaşıl enerji" layihələrinin genişlənməsinə səbəb olacaq. Nəticədə həm ixrac imkanları artacaq, həm də daxili istehsal güclənəcək. Bu isə öz növbəsində yeni gəlir mənbələrinin, iş yerlərinin və mütəxəssis hazırlığının formalaşmasını stimullaşdıracaq.

Sonda qeyd etmək lazımdır ki, Azərbaycan bu prosesə yalnız enerji ixracatçısı kimi deyil, həm də yaşıl texnologiyalar istehsalçısı kimi qoşulmaq imkanı əldə edəcək. Günəş panelləri, külək turbinləri və digər enerji qurğularının istehsalı sahəsində də inkişaf üçün münbit şərait yaranacaq. Bu isə ölkənin enerji siyasətinin şaxələndirilməsinə və yeni iqtisadi fürsətlərin açılmasına şərait yaradacaq.

Layihə yekunda regionun enerji təhlükəsizliyini artırmaqla yanaşı, yeni sənaye imkanları və iş yerləri yaradacaq. Transxəzər Yaşıl Enerji Dəhlizi regionu qlobal yaşıl keçidin aparıcı mərkəzinə çevirəcək. ADB və AİİB kimi beynəlxalq institutların güclü dəstəyi, eləcə də region ölkələrinin strateji investisiyalara cəlb olunması bu məqsədlə perspektivli imkanlar açır. Layihənin uğuru Mərkəzi Asiya ilə Avropa arasında ixrac potensialının artırılması, enerji bazarlarının genişlənməsi və strateji rəqabət üstünlüklərinin formalaşması şəklində dəyərləndirilir.

***Nurlan ABDALOV***
***XQ***

# İndi nərdivan əsri deyil

## *Liftsiz çoxmərtəbəli bina isə təkərsiz avtomobil kimidir*

**Prezident İlham Əliyevin rəhbərliyi və müvafiq tapşırıqları ilə son illər Bakının lift təsərrüfatının yenilənməsi istiqamətində davamlı layihələr həyata keçirilir. Dövlətimizin başçısının 20 noyabr 2025-ci il tarixli sərəncamı ilə “Lift təsərrüfatının maddi-texniki bazasının möhkəmləndirilməsi nəzərdə tutulmuş doqquzmərtəbəli binaların şəhərlər üzrə bölgüsünə dair siyahı”da paytaxt üzrə quraşdırılacaq liftlərin sayının il ərzində 141-dən 148-ə çatdırılması da bunun bariz ifadəsidir.**

Ölkə rəhbəri çıxışlarının birində bu məsələni xüsusi diqqətdə saxlamasının təsadüfi olmadığı barədə deyib: “Lift təsərrüfatının yenilənməsinə mühüm önəm verilməsi zəruridir. Mənim müvafiq sərəncamlarımla bir çox binaların lift təsərrüfatının təzələnməsi böyük əhəmiyyət daşıyır. İstismar dövründə liftlər sıradan çıxır. Ona görə də lift təsərrüfatının inkişafı zamanın tələbidir”.



Yeri gəlmişkən, təkcə indi deyil, əvvəlki illərdə də istifadəyə yararsız liftlərin dəyişdirilməsi prosesi həyata keçirilib. Bakının mərkəzi hissələrindəki köhnə liftlərin əksəriyyəti yenilənib. Məsələn, Səbail, Nərimanov və Nəsimi rayonlarında bu proses reallaşdırılıb. Köhnə liftlərin yerinə əsasən Almaniya istehsalı olan yeni liftlər quraşdırılıb. Paytaxtın digər ərazilərində də bu məsələ diqqətdə saxlanılıb, liftlərin mərhələli şəkildə dəyişdirilməsi nəzərdə tutulub.

Qeyd edək ki, bu sahədə müasirləşmə, necə deyərlər, günlərlə, aylarla deyil, illərlə vaxt tələb edir. Çünki istənilən meqapolisdə olduğu kimi, Bakıda da fasiləsiz istismar edilən liftlərin tez-tez sıradan çıxması, sistemdə müəyyən problemlərin yaşanması təbiidir. Burada başqa bir məqam da var. Bu, Bakı şəhərində 25 ildən çox bir müddətdə istismar olunan minlərlə liftin böyük bir qisminin sovet dövründən qalan avadanlıqla işləməsi ilə bağlıdır. Bunun yenilənməsinə həm böyük məbləğdə vəsait, həm də yuxarıda vurğuladığımız kimi, müəyyən bir zaman lazım gəlir.

Bu fikrin təsdiqi kimi belə bir faktı da xatırlatmaq yerinə düşər. Beynəlxalq normativlərə görə, çoxmərtəbəli yaşayış binalarında istifadə edilən liftlərin orta istismar müddəti, təxminən, 20 il hesab olunur. Belə bir müddətin ötməsi isə təhlükəsizlik baxımından ciddi risklər formalaşdırır. Son illərdə paytaxtda lift təsərrüfatının yenilənməsi istiqamətində bir sıra proqramlar icra olunur, lakin bu, real ehtiyacları tam qarşılamır. Amma buna baxmayaraq, Bakının müxtəlif rayonlarında lift təsərrüfatının təhlili mövcud sahədə illərlə yığılıb qalan problemlərin tez bir zamanda həllinin zəruriliyini qarşıya mühüm vəzifə kimi qoyur. Respondentlər bildirirlər ki, bir çox binalarda liftlər əsaslı təmir əvəzinə yalnız texniki müdaxilələrlə fəaliyyətini davam etdirir.

Xüsusən doqquzmərtəbəli binalarda istifadə olunan liftlərin əksəriyyətinin istismar müddəti çoxdan başa çatıb və onların qəfil sıradan çıxması artıq adi hala çevrilib. Müəyyən vaxtlarda yaranan nasazlıqlar isə xəsarətlərlə, hətta ölüm halları ilə nəticələnib. Bununla da mövzu məişət problemliyindən çıxaraq, ictimai təhlükəsizlik məsələsinə çevrilib.

Sakinlər arasında aparılan sorğular göstərir ki, əhali liftlərin vaxtında yenilənməsinin rahatlıqdan daha çox təhlükəsizlik üçün vacib olduğunu vurğulayır. Bu baxımdan modernləşdirmə proqramının coğrafiyası genişlənməli, liftlərin yenilənəcəyi binaların seçilməsi şəffaf və ictimaiyyət üçün əlçatan mexanizmlərlə həyata keçirilməlidir. İşlərin nə zaman başlayacağı, nə qədər davam edəcəyi və hansı mərhələlər üzrə aparılacağı barədə sakinlərə dəqiq məlumat verilməlidir.

Lift təsərrüfatının təzələnməsində nəzərəçarpan ləngliк, bəzən isə biganəlik bir sıra binalarda sakinlərin öz təşəbbüsləri ilə vəsait toplayaraq təmir işləri aparmalarına səbəb olur. Lakin bu işlər çox vaxt müvəqqəti təmir xarakteri daşıyır və yalnız mühərrikin, idarəetmə blokunun, trosun və ya digər komponentlərin dəyişdirilməsi ilə məhdudlaşır. Bu isə, əslində, köhnəlmiş konstruksiyanın ümumi təhlükəsizlik risklərini aradan qaldırmır, sadəcə, müəyyən müddətlik mövcud avadanlığın ömrünü uzadır.

Digər tərəfdən, nisbətən yeni tikilmiş binalarda da liftlər bəzən gözləniləndən tez sıradan çıxır. Bunun başlıca səbəblərindən biri onun təyinatına uyğun istifadə edilməməsi ilə bağlıdır. Başqa sözlə, ağır yüklərin, məişət avadanlıqlarının, hətta tikinti materiallarının daşınması liftlərin fəaliyyətsizliyi ilə nəticələnir. Bu isə həm mexaniki aşınmanı sürətləndirir, həm də istehsalçı tərəfindən nəzərdə tutulmayan yükün tətbiqi səbəbindən tez-tez nasazlıqlara yol açır.

### İrəliləyişdən yüksəlişə...

Ekspertlərin fikrincə, son illərdə Bakıya 1500-ə yaxın yeni lift gətirilərək quraşdırılması müsbət dinamikanın mövcudluğundan xəbər verir. Lakin bu göstərici ümumi təsərrüfat miqyasında ehtiyacı tam qane etmir. Başqa sözlə, paytaxt üzrə istismar müddətini başa vurmuş liftlərin sayının minlərlə olduğu nəzərə alınsa, yenilənmə proqramının həcmi real tələbatla müqayisədə hələ də aşağıdır.



Lift təsərrüfatının təhlükəsizliyinə nəzarətin daha sistemli həyata keçirilməsi üçün Mərkəzi Dispetçer Xidməti fəaliyyət göstərir. Bu mərkəz nasazlıqların operativ uçotunu aparır və avadanlığın monitorinqini təmin edir. Digər mühüm məsələ isə liftlərin hər il Fövqəladə Hallar Nazirliyinin Sənayedə İşlərin Təhlükəsiz Görülməsi və Dağ-Mədən Nəzarəti Dövlət Agentliyində qeydiyyatdan keçirilməsidir. Yalnız texniki təhlükəsizlik tələblərinə cavab verən avadanlıqlara istismar icazəsi verilir ki, bu da ümumi təhlükəsizlik sisteminin mühüm tərkib hissəsidir.

Ekspertlər mövcud vəziyyətə əsaslanaraq onu da bildirirlər ki, lift təsərrüfatının idarə olunmasında daha çevik, şəffaf və davamlı maliyyələşmə mexanizmlərinə ehtiyac var. İlk növbədə, binaların idarəedici qurumları – mənzil-kommunal sistemi üzrə xidmət sahələri lift təsərrüfatının monitorinqini gücləndirməli və hər bir avadanlığın istismar müddətinin real uçotunu aparmalıdır. Bu məlumatlar əsasında təhlükəsizlik risklərinə görə prioritetləşdirilmiş yeniləmə xəritəsi hazırlanmalıdır.

Mütəxəssislərin fikrincə, bu sahədə ən vacib məsələlərdən biri də çoxmərtəbəli binalarda liftlərin düzgün istifadəsinə dair maarifləndirmə işinin gücləndirilməsidir. Sakinlərin ağır yükləri liftlə daşıması avadanlığın sıradan çıxmasının əsas səbəblərindən biridir. Bu baxımdan, binadaxili qaydaların hazırlanması, lift kabinlərinə məlumat lövhələrinin yerləşdirilməsi və istifadəçi davranışına nəzarət praktikası mühüm rol oynaya bilər.

### Təhlükəsiz şəhər müasir texniki infrastrukturdan başlayır

Bakıda lift təsərrüfatının yenilənməsi artıq strateji şəhərsalma məsələlərindən birinə çevrilib. Köhnə binalarda liftlər insanların gündəlik həyatında real risk amili olaraq qalır. Son illərdə həyata keçirilən yenilənmə layihələri müəyyən irəliləyişlərə gətirib çıxarsa da, lift təsərrüfatının tam təhlükəsizlik standartlarına uyğunlaşdırılması üçün daha intensiv, kompleks və planlı fəaliyyət tələb olunur.

Ekspertlər bildirirlər ki, bu proses yalnız dövlət qurumlarının məsuliyyət sahəsi deyil. Sakinlərin davranış mədəniyyəti, binaların idarəedici strukturlarının peşəkarlığı, texniki xidmətin operativliyi və yenilənmə proqramlarının şəffaflığı, bütövlükdə, şəhərin təhlükəsizlik mühitinə təsir göstərən əsas amillərdir. Bakıda modern, təhlükəsiz və rahat yaşayış mühiti formalaşdırmaq üçün lift təsərrüfatının yenilənməsi və düzgün idarə olunması qarşıdakı illərdə də prioritet sahələrdən biri olaraq qalmalıdır.

***VB AYRAMOV***
***XQ***

### *Ekspert rəyi*

**Elmar NURƏLİYEV,**
**təhlükəsizlik üzrə ekspert**



Liftlərin istismarı zamanı mütləq təhlükəsizlik qaydalarına riayət olunmalı, onun texniki göstəriciləri daim yoxlanılmalıdır. Lift harada quraşdırılıbsa, mütləq həmin məkanda onun təhlükəsiz istismarına məsuliyyət daşıyan şəxs aqreqatlar, detallar, qurğular, mexanizmlər, əyləc sistemi, troslar, relslər, elektrik və mühərrik sistemlərinin sazlığını diqqətdə saxlamalıdır. Həmin hissələrin hər biri sertifikatlı olmalıdır. Qəzaların qarşısının alınması üçün lift şaxtasının tikintisindən tutmuş, onun konservasiyası, quraşdırılması standartlara cavab verməlidir. İstifadə müddəti başa çatan qurğuların yenilənməsi isə ixtisaslaşmış şəxslər tərəfindən həyata keçirilməlidir.

Bütün çoxmənzilli yaşayış binaları, eləcə də əyləncə mərkəzləri təhlükə potensiallı obyektlər sırasındadır, buna görə də onların istismarı qaydalara uyğun şəkildə aparılmalı, mütləq şəkildə obyektdə, binada liftin istismar təhlükəsizliyinə cavabdeh şəxs olmalıdır. Binanın avadanlıq və qurğularının, detallarının, elektron sisteminin dəyişdirilmə, yenilənmə və əvəz olunması ixtisaslaşmış, habelə lisenziyalı müəssisələr tərəfindən həyata keçirilməlidir.

Liftlərə vaxtında texniki qulluq göstərilərsə, elektron sistemi qaydasında olarsa, detalları, qurğuları, tros sistemi vaxtında dəyişdirilərsə, yenilənərsə, qəza hallarının sayı sıfıra enər. Liftdə əsasən bu səbəblərdən problem yaranır, onun istismarı tələbləri pozularsa, quraşdırılma zamanı düzgün montaj həyata keçilməzsə, sonrakı işləmə dövründə istismarı bitmiş avadanlıqlarda yaranmış nasazlıq vaxtında aradan qaldırılmazsa, qəza halları özünü göstərər. Əgər bu cür nasazlıqlar qeydə alınarsa, onun istismarı dayandırılmalıdır. Bütün bunlarla bərabər, alternativ enerji mənbəyi (generator) də olmalıdır. Hazırda bir çox yeni tikilən binalarda bu, yoxdur, nəticədə elektrik enerjisi kəsildikdə insanlar liftin içində qalır. Bu zaman yaşlı və yaxud səhhətində müəyyən problemi olan insanın sağlamlığı üçün ciddi təhlükə yarana bilər.

Elektrik sisteminin nasazlığı nəticəsində liftdə yanğın baş verməsi, insan həyatı ilə bağlı təhlükə yaranması riski də var. Binada elektrik enerjisi kəsildiyi halda lift ikinci şəbəkəyə qoşulu olmalıdır. Amma təəssüf ki, elə yaşayış binaları var ki, işıq sönəndə onlarda lift də dayanır. Bu, yolverilməzdir, liftin içindəki şəxslər panikaya düşə bilərlər. Həmçinin liftin tavanına, döşəməsinə, yan güzgülərinə toxunmaq olmaz. Çünki həmin güzgülərin də təhlükəsizlik elementləri var. İstifadəçi liftə minən vaxt mütləq güzgüdə özünü görməlidir. Ola bilər ki, liftin qapısı açıq olsun, amma özü mərtəbəyə gəlməsin, bu zaman şəxs bilmədən liftə minəndə şaxtaya düşə bilər...

Bu məqamda diqqəti bir məsələyə də yönəltmək istərdim. Bu, liftdən istifadə edən bəzi şəxslərin qaydalara əməl etməməsi ilə bağlıdır. Belə ki, bir sıra hallarda bina sakinlərinin özləri liftdən istifadədə məsuliyyətsiz davranır, məsələn, lifti nəzərdə tutulan normadan artıq yükləyir, düymələrini qırır, yaxud düymələri eyni vaxtda basır. Bütün bunlar da onun vaxtından əvvəl istismar müddətinin başa çatmasına gətirib çıxarır.

*Xuntaçıların məhkəməsi*

# Qanlı cinayətlərin təhqiqi davam edir

**Azərbaycan Respublikası Cinayət Məcəlləsinin sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə ilə bağlı maddələri və digər ağır cinayətlərdə təqsirləndirilən Ermənistan vətəndaşı Ruben Vardanyanın barəsində cinayət işi üzrə məhkəmə prosesi noyabrın 25-də davam etdirilib.**

Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Anar Rzayevdən və Camal Ramazanovdan ibarət tərkibdə keçirilən açıq məhkəmə iclasında (ehtiyat hakim Günel Səmədova) təqsirləndirilən şəxs bildiyi dildə, yəni rus dilində tərcüməçi, habelə müdafiəsi üçün dövlət hesabına vəkillə təmin olunub.

Hakim Zeynal Ağayev prosesdə ilk dəfə iştirak edən zərərçəkmiş şəxslərə və zərərçəkmiş şəxslərin hüquqi varislərinə məhkəmə heyətini, dövlət ittihamını müdafiə edən prokurorları, tərcüməçiləri və s. təqdim edib, habelə onların qanunvericiliklə nəzərdə tutulmuş hüquqlarını və vəzifələrini izah edib.

Sonra zərərçəkmiş şəxslərin ifadələri dinlənilib.

Zərərçəkmiş Samir Məmmədov ifadəsində Laçında düşmən tərəfindən atılmış minaatan mərmisinin yaxınlığına düşərək partlaması nəticəsində başından yaralandığını bildirib. Dövlət ittihamçısı Vüsal Abdullayevin suallarını cavablandıran zərərçəkmiş hadisə zamanı Tural İsgəndərovun da xəsarət aldığını söyləyib.

Dövlət ittihamçısı Təranə Məmmədovanın suallarını cavablandıran zərərçəkmiş Ruslan Abbasov Kəlbəcərdə düşmən tərəfindən açılmış atəş nəticəsində güllə yarası aldığını bildirib. Hadisə zamanı daha iki nəfər yaralanıb.

Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin şöbə rəisi Nəsir Bayramovun suallarını cavablandıran zərərçəkmiş Vüqar Hüseynov da Kəlbəcərdə düşmən tərəfindən açılmış atəş nəticəsində yaralandığını söyləyib.

Baş prokurorun böyük köməkçisi Vüsal Əliyevin suallarını cavablandıran zərərçəkmiş Toğrul Əliyev Ağdamda Ermənistan ordusunun qalıqları və qanunsuz erməni silahlı dəstələri tərəfindən açılmış atəş nəticəsində qəlpə yarası aldığını bildirib. Həmin vaxt onun yanında olmuş Nazim Ağayev və Murad Əliyev də xəsarət alıblar.

Baş prokurorun xüsusi tapşırıqlar üzrə köməkçisi Tuqay Rəhimlinin suallarını cavablandıran zərərçəkmiş Samir İbrahimov Xocalıda Ermənistan ordusunun qalıqları və qanunsuz erməni silahlı dəstələri tərəfindən açılmış atəş nəticəsində yaralandığını deyib.

Dövlət ittihamçısı Fuad Musayevin suallarını cavablandıran Bayram Ağcayev Kəlbəcərdə düşmənin açdığı atəşlər nəticəsində xəsarət aldığını söyləyib.







Zərərçəkmiş Rəşad Quliyev Kəlbəcərdə düşmən tərəfindən atılmış artilleriya mərmisinin yaxınlığına düşərək partlaması nəticəsində yaralandığını bildirib.

Digər zərərçəkmiş Kamal Abdullayev ifadəsində Ağdamda Ermənistan silahlı qüvvələrinin qalıqları və qanunsuz erməni silahlı dəstələri tərəfindən açılmış snayper atəşi nəticəsində yaralandığını söyləyib.

Zərərçəkmiş Orxan Musayev Ağdam istiqamətində Ermənistan ordusunun qalıqları və qeyri-qanuni erməni silahlı dəstələri tərəfindən açılmış atəş nəticəsində sol göz nahiyəsindən yaralandığını deyib. Hadisə zamanı Bəhruz Rzayev və Nizami Cabbarov da yaralanıblar.

Digər zərərçəkmiş Dilqəm Həsənov Kəlbəcərdə düşmən tərəfindən açılmış artilleriya atəşi nəticəsində xəsarət aldığını bildirib.

Zərərçəkmiş Samir Xəlilov Ağdərədə Ermənistan ordusunun qalıqları və qanunsuz erməni silahlı dəstələri tərəfindən açılmış raket atəşi nəticəsində yaralandığını deyib. Hadisə zamanı Ülvi Mikayılov həlak olub.

Məhkəmə prosesi cinayət işi materiallarında olan sənədlər və digər sübutların tədqiqi ilə davam etdirilib.

Məhkəmənin növbəti iclası dekabrın 1-nə təyin olunub.

***XQ***

*Beynəlxalq həyat*

# Labirintdən “doğru istiqamətə”

## *Si Cinpinin sülh mesajı Çin–ABŞ münasibətlərini normallaşdırmağa yönəlib*

**Supergüc rəqabəti fərqli qaydalarla aparılır. Burada tərəflər qlobal iqtisadiyyatın, texnoloji təchizat zəncirlərinin və maliyyə axınlarının görünməz telləri ilə bir-birinə möhkəm sarılmış durumda, habelə bir-birindən əhəmiyyətli dərəcədə asılı ziddiyyətli simbioz halında qarşı-qarşıya gəlirlər. Söhbət nə dostluqdan gedir, nə də tam düşmənçilikdən. Bu, tarixdə analoqu olmayan, həm rəqabət, həm də məcburi tərəfdaşlıq elementlərini ehtiva edən yeni geosiyasi vəziyyətdir. Məhz belə bir partlayışa meyilli tarazlıq fonunda Çin Xalq Respublikasının Sədri Si Cinpinin Pekində səsləndirdiyi “Çin və ABŞ münasibətlərdə əldə olunan dinamikanı qoruyub saxlamalı və doğru istiqamətdə irəliləməlidirlər” müraciəti bütün bəşəriyyətin gələcək taleyini müəyyənləşdirəcək tarixi yol ayrıcına işarə edən dərin mənalı çağırış kimi dəyərləndirilməlidir.**



Bəli, Çin liderinin bəyanatı bir-birinə həm rəqib, həm də həyati dərəcədə bağlı olan iki qlobal gücün idarəolunmaz eskalasiya qorxusu ilə maraqlar toqquşması arasında yaşaya biləcəyi ağrılı dilemmanı aşmaq üçün siyasi iradə nümayişidir. Onun yanaşması mahiyyət etibarilə, dünya nizamının gələcəyinə dair mühüm sualı ortaya qoyur. Bəşəriyyət iki fərqli sivilizasiya və siyasi sistemə malik supergücün sülh şəraitində birgə mövcudluğuna və ortaq problemlərin həllinə nail ola biləcəkmi, yoxsa rəqabət instinktləri qarşılıqlı faydalı əməkdaşlıq zərurətinə üstün gələcək? Nəzərə alaq ki, hazırkı müsbət dinamikanın qorunması daha ümidverici ssenarinin reallaşması üçün tarixi fürsət verir.

Mövzuya dərin bələdçilik üçün, ilk növbədə, Si Cinpinin “əldə olunan dinamika” ritorikasının mahiyyətini dərindən anlamaq şərtdir. Dinamika Ticarət müharibələri ilə başlayan və sonradan texnoloji rəqabət, ideoloji qarşıdurma, hərbi gərginliklə dərinləşən kəskin konfrontasiya mərhələsindən sonra yaranmışdır. İki ölkə arasında münasibətlər o qədər pisləşmişdi ki, Tayvan boğazında və ya Cənubi Çin dənizində təsadüfi hərbi insidentin tammiqyaslı münaqişəyə çevrilməsi riski beynəlxalq analitik mərkəzlər tərəfindən real ssenari kimi müzakirə olunurdu. Məhz bu fəlakətli perspektivdən yayınmaq zərurəti və hər iki tərəfin liderlərinin nümayiş etdirdiyi müdriklik tərəfləri yenidən dialoq masasına daşıdı. Bali adasında G-20 sammiti çərçivəsində, daha sonra isə San-Fransiskoda Asiya-Sakit Okean İqtisadi Əməkdaşlıq Təşkilatının (APEC) Zirvə görüşü zamanı ölkə rəhbərləri səviyyəsində baş tutan görüşlər yeni mərhələnin təməlini qoydu. Görüşlərin ardınca ABŞ-ın sabiq dövlət katibi Antoni Blinken, maliyyə naziri Canet Yellen və digər yüksək rütbəli rəsmilərin Pekinə səfərləri, hərbi kanallar da daxil olmaqla, kommunikasiya xətlərinin bərpasına nail olunması münasibətlərdəki ən təhlükəli “sərbəst düşüş” mərhələsinə son qoydu. Bu dinamikanın əsas məqsədi “rəqabəti məsuliyyətli şəkildə idarə etmək” və potensial böhran anlarında birbaşa əlaqə vasitəsilə yanlış anlaşılmaların, hesablamaların qarşısını almaq idi. Deməli, Si Cinpinin qorunmasına çağırdığı “dinamika”, əslində, strateji rəqabətin davam etdiyi şəraitdə, sadəcə olaraq münaqişə risklərini minimuma endirmək üçün yaradılmış “təhlükəsizlik kəməri” funksiyasını yerinə yetirir. Bu, iki nəhəngin bir-birinə zərər vurmadan eyni planetdə yaşamağı öyrənmək naminə atdığı zəruri və praqmatik addımdır.

Məsələnin ən çətin, lakin eyni zamanda ən ümidverici tərəfi Çin liderinin arzuladığı “doğru istiqamət” anlayışının Vaşinqton və Pekin tərəfindən fərqli təfsir edilməsinə baxmayaraq, müəyyən sahələrdə ortaq məxrəcə gəlmək potensialının mövcud olmasıdır. Pekinin nəzərdə tutduğu addım, ilk növbədə, qarşılıqlı hörmət prinsipinin bərqərar olmasıdır. Həmin prinsip ABŞ-ın Çinin siyasi sisteminə və özünəməxsus inkişaf yoluna hörmət etməsini, onun daxili işlərinə qarışmaqdan imtinasını nəzərdə tutur. Çin Kommunist Partiyasının rəhbərliyi altında formalaşmış siyasi modelin legitimliyini sorğulayan hansısa cəhd Pekin tərəfindən birbaşa təhdid kimi qəbul olunur. “Doğru istiqamət” Vaşinqtonun Tayvan məsələsində “Vahid Çin” siyasətinə sadiq qalmasını, adanın müstəqilliyini dəstəkləyən hər hansı addımdan çəkinməsini və Tayvana silah satışını dayandırmasını tələb edir. Çünki Tayvan Pekin üçün müzakirə mövzusu olmayan, toxunulmaz “qırmızı xətt” və milli birləşmənin əsas hədəfidir.

Vaşinqtonun “doğru istiqamət” təsəvvürü fərqli məntiqə söykənsə də, dialoqa açıq qapılar saxlayır. ABŞ üçün bu məsələ, ilk növbədə, Çinin mövcud beynəlxalq qaydalara əsaslanan nizam çərçivəsində fəaliyyət göstərməsidir. Vaşinqtonun nəzərində Cənubi Çin dənizindəki hərbi fəaliyyətlər beynəlxalq dəniz hüququnun pozulması və qonşu ölkələrə təzyiq, həmin nizamı sarsıtmağa yönəlmiş addımlardır. ABŞ üçün “doğru istiqamət” Çinin iqtisadi sahədə ədalətli ticarət praktikalarına, o cümlədən intellektual mülkiyyət oğurluğuna, dövlət subsidiyalarına və bazarın xarici şirkətlər üçün qeyri-bərabər şərtlərlə açılmasına son qoymasıdır. Vaşinqtonun arzuladığı “doğru istiqamət”, həmçinin Pekinin insan hüquqları sahəsində, xüsusən Sincan, Tibet və Honkonqda vəziyyəti yaxşılaşdırması və beynəlxalq öhdəliklərinə əməl etməsidir. ABŞ-ın “de-risking” (riskləri azaltma) siyasəti də məhz həmin kontekstdə başa düşülməlidir. Bu, Çindən tamamilə iqtisadi asılılığı azaltmaq, xüsusən həssas texnologiyalar və təchizat zəncirləri sahəsində Qərbin mövqelərini gücləndirmək deməkdir. Vaşinqtonun məqsədi Çinlə rəqabətdə öz üstünlüyünü qoruyacaq strateji sahələri nəzarətdə saxlamaqdır.

Göründüyü kimi, hər iki tərəfin “doğru istiqamət” anlayışı arasında dərin və barışmaz mövqelər mövcuddur. Pekin statusunun tanınmasını və hörmət tələb edir, Vaşinqton isə davranışların dəyişdirilməsini və mövcud qaydalara riayət olunmasını istəyir. Lakin müsbət tərəf ondadır ki, hər iki paytaxt ziddiyyətlərin birbaşa toqquşma yolu ilə həllinin fəlakətli nəticələr verəcəyini anlayır. Bu cür anlayış birgə fəaliyyət üçün imkanlar yaradır və Si Cinpinin çağırışının reallaşması üçün mühüm zəmin formalaşdırır.

Bunlardan birincisi, qlobal iqlim dəyişmələri ilə mübarizədir. Planetin ən böyük iki iqtisadiyyatı, istixana qazları emissiya edən ölkəsi olan ABŞ və Çin olmadan, iqlim fəlakətinin qarşısını almaq qeyri-mümkündür. Bu sahə rəqabətin sıfır məbləğli oyun məntiqinin işləmədiyi, bir tərəfin uğurunun digərinin uğurundan asılı olduğu real nümunədir. Son dövrlərdə iqlim məsələləri üzrə xüsusi nümayəndələr səviyyəsində dialoqun bərpası, Paris Sazişinin hədəflərinə çatmaq üçün birgə səylərin artırılması, yaşıl texnologiyalar (günəş panelləri, elektrik avtomobilləri, batareya texnologiyaları) sahəsində potensial əməkdaşlıq bəşəriyyətin ümumi gələcəyi naminə iki ölkənin bir araya gələ biləcəyini göstərən parlaq ümid işığıdır.

İkinci mühüm əhəmiyyətli sahə qlobal ictimai səhiyyədir. COVID-19 pandemiyası bütün dünyaya acı dərs verdi. Viruslar sərhəd tanımır və qlobal təhdidlərə qarşı yalnız qlobal həmrəyliklə mübarizə aparmaq mümkündür. Gələcək pandemiyalara hazırlıq, yeni patogenlərin erkən aşkarlanması üçün məlumat mübadiləsi, peyvənd və dərmanların birgə tədqiqi, Ümumdünya Səhiyyə Təşkilatı kimi beynəlxalq qurumların gücləndirilməsi kimi məsələlər Vaşinqton və Pekinin ortaq maraqlarına tam cavab verir.

Üçüncü sahə, qlobal iqtisadi sabitliyin qorunmasıdır. ABŞ və Çin iqtisadiyyatları bir-birinə o qədər dərin şəkildə inteqrasiya olunub ki, onların birində baş verən ciddi böhran qaçılmaz olaraq digərinə və bütün dünya iqtisadiyyatına zərbə vurur. Bu, “qarşılıqlı təminatlı iqtisadi məhv” vəziyyətidir. Maliyyə bazarlarının tənzimlənməsi, qlobal borc böhranı ilə mübarizə, beynəlxalq valyuta sisteminin sabitliyinin təmin edilməsi kimi məsələlər, yalnız iki ölkənin sıx koordinasiyası ilə həll oluna bilər.

Son dövrlərdə əldə edilən ən konkret və ümidverici nəticələrdən biri, fentanil kimi sintetik narkotiklərin qanunsuz dövriyyəsinə qarşı birgə mübarizə sahəsindəki razılaşmadır. ABŞ-da on minlərlə insanın ölümünə səbəb olan həmin bəlaya qarşı mübarizə Vaşinqton üçün prioritet məsələdir. Pekinin fentanilin istehsalında istifadə olunan kimyəvi maddələrin ixracına nəzarəti gücləndirməyi öhdəsinə götürməsi konkret və həyati nəticələr verən əməkdaşlığın mümkünlüyünü sübut etdi. Həmin addım göstərdi ki, siyasi iradə olduğu təqdirdə, hətta ən mürəkkəb məsələlərdə belə ortaq dil tapmaq və birgə fəaliyyət göstərmək olar. Eyni məntiq süni intellektin təhlükəsizliyi kimi yeni və həlledici sahəyə də şamil edilə bilər. Hər iki ölkə süni intellektin inkişafında liderdir və onun nəzarətdən çıxmasının bütün bəşəriyyət üçün fəlakətli nəticələr verə biləcəyini anlayır. Süni intellektin hərbi məqsədlərlə istifadəsi ilə bağlı “qırmızı xətlərin” müəyyən edilməsi, təhlükəsizlik protokollarının hazırlanması və bu sahədə beynəlxalq normaların yaradılması iki ölkənin birlikdə üzərində işləyə biləcəyi ən aktual məsələlərdəndir.

Si Cinpinin “dinamikanı qorumaq və doğru istiqamətdə irəliləmək” çağırışına qayıtsaq, aydın olur ki, onun arzusu heç də reallıqdan tamamilə uzaq deyil. Proses iki supergücün rəqabətin qaçılmaz olduğunu anladığı, lakin həmin rəqabətin fəlakətli toqquşmaya çevrilməsinin qarşısını almaq məsuliyyətini daşıyan yeni mərhələnin başlanğıcını simvolizə edir. Hazırkı sabitləşmə hər iki tərəfin birbaşa toqquşmanın fəlakətli nəticələrindən çəkindiyi və ortaq maraqların mövcudluğunu anladığı üçün baş verib. ABŞ-Çin münasibətlərinin gələcəyi, çox güman, nə tammiqyaslı Soyuq Müharibə, nə də strateji tərəfdaşlıq olacaq. Yəni dünya iki supergücün daimi rəqabət, məhdud əməkdaşlıq və mütəmadi böhran riski şəraitində bir-birini idarə etməyə çalışdığı, son dərəcə mürəkkəb və proqnozlaşdırılması çətin dövrə qədəm qoyub.

***Yusif ŞƏRİFZADƏ***
***XQ***

# Baş prokuror Rumıniyada



**Baş prokuror Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti rumıniyalı həmkarı Aleks Florentanın dəvəti ilə Buxarest şəhərində işgüzar səfərdədir.**

Rumıniyanın Baş Prokurorluğunda keçirilən görüşdə Kamran Əliyev qarşı tərəfə dəvətə görə təşəkkürünü bildirərək qeyd edib ki, Rumıniya istər siyasi, istərsə də iqtisadi sahədə Azərbaycanın əsas tərəfdaşlarından biridir. Aleks Florenta qurumlararası tərəfdaşlıq münasibətlərinin yüksələn xətt üzrə inkişafından məmnunluğunu ifadə edərək ötən il ərzində Azərbaycana etdiyi işgüzar səfərin xüsusilə yaddaqalan olmasını qeyd edib.

Görüşdə iki ölkənin prokurorluqları arasında imzalanmış Anlaşma Memorandumu qeyd edilərək cinayətkarlığın müxtəlif formalarına qarşı mübarizə ətrafında fikir mübadiləsi aparılıb.

Səfər çərçivəsində nümayəndə heyəti ilə Rumıniyanın ədliyyə naziri Radu Marinesku, ölkə Parlamenti Senatının sədr müavini Robert Cazancu arasında da görüş keçirilib. Səfər çərçivəsində, həmçinin ölkəmizin Rumıniyadakı səfirliyi də ziyarət edilib.

***XQ***

# Ceyhun Bayramovun Vatikana səfəri



**Noyabrın 25-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov Vatikana rəsmi səfəri çərçivəsində Müqəddəs Taxt-Tacın dövlət və beynəlxalq təşkilatlar üzrə katibi arxiyepiskop Riçard Qallager ilə görüşüb.**

Söhbət zamanı Azərbaycan Respublikası ilə Müqəddəs Taxt-Tac arasında ikitərəfli münasibətlərin mövcud vəziyyəti və inkişaf perspektivləri, regional və beynəlxalq məsələlər, habelə beynəlxalq platformalar çərçivəsində əməkdaşlıq imkanları müzakirə olunub. Azərbaycan və Müqəddəs Taxt-Tac arasında əməkdaşlıq əlaqələrinin daha da dərinləşdirilməsində Prezidenti İlham Əliyevin və Birinci vitse-prezidenti Mehriban Əliyevanın Vatikana rəsmi səfərləri nin əhəmiyyəti vurğulanıb.

Bununla yanaşı, Papa II İoann Pavelin 2002-ci ildə, Papa Fransiskin 2016-cı ildə ölkəmizə səfərləri, Bakıda II İoann Pavelin şərəfinə tikiləcək katolik kilsəsinin yerləşəcəyi ərazinin təqdimetmə mərasimi və hazırda kilsənin tikilməsi məmnunluqla xatırlanıb. 2027-ci ildə qeyd ediləcək diplomatik münasibətlərin təsis edilməsinin 35 illiyinin münasibətlərin inkişafına əlavə təkan verəcəyinə əminlik ifadə olunub.

Azərbaycanın müxtəlif din və mədəniyyətlərin bir arada yaşadığı ölkə kimi apardığı uğurlu siyasətin beynəlxalq sülhə və anlaşmaya töhfəsi də qeyd edilib.

Görüşdə qarşılıqlı maraq doğuran digər ikitərəfli və regional məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

*

**Həmin gün xarici işlər naziri Ceyhun Bayramov Vatikana rəsmi səfəri çərçivəsində Müqəddəs Taxt-Tacın dövlət katibi kardinal Pietro Parolin ilə görüşüb. Görüşdə Azərbaycan Respublikası ilə Müqəddəs Taxt-Tac arasında ikitərəfli münasibətlərin mövcud gündəliyi, habelə qarşılıqlı maraq doğuran regional və beynəlxalq məsələlər müzakirə olunub.**

Azərbaycanın Müqəddəs Taxt-Tac ilə münasibətlərin inkişafına böyük əhəmiyyət verdiyi diqqətə çatdırılıb, son zamanlar Azərbaycandan Müqəddəs Taxt-Taca baş tutan çoxsaylı yüksəksəviyyəli səfərlərin bunun bariz nümunəsi olduğu bildirilib.

Bu çərçivədə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın Müqəddəs Taxt-Taca cari ilin oktyabr ayında həyata keçirilmiş səfərinin əlaqələrimizin qarşılıqlı anlaşma və ortaq dəyərlər əsasında daha da möhkəmlənməsinə təkan verdiyi vurğulanıb. Mehriban xanım Əliyevanın təşəbbüsü və Heydər Əliyev Fondunun dəstəyi ilə Müqəddəs Taxt-Tacda həyata keçirilən mühafizə və bərpa layihələrinin humanitar sahədə əməkdaşlığımız üçün körpü rolunu oynadığı qeyd edilib.

Görüşdə, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

***XQ***

# Energetika Nazirliyində vətəndaşlarla görüş



**Energetika naziri Pərviz Şahbazov Bakı, Sumqayıt şəhərləri və Göyçay rayonundan olan vətəndaşların müraciətlərini dinləyib.**

Energetika Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, nazirlikdə təşkil olunmuş görüş zamanı qaz təchizatı, qaz sərfiyyatı üzrə borcun yaranması, elektrik və istilik enerjisi təchizatı, elektrik və qaz sayğaclarının quraşdırılması, işlə təminat və digər istiqamətlərdə müraciətlər dinlənilib, qaldırılan məsələlərin qanunvericiliyin tələblərinə uyğun həlli üçün aidiyyəti struktur bölmələrə müvafiq tapşırıqlar verilib.

Qeyd edək ki, Energetika Nazirliyi tərəfindən vətəndaş müraciətlərinə baxılması işinin səmərəli təşkili məqsədilə rəhbər vəzifəli şəxslərin vətəndaş qəbulu qrafiki nazirliyin rəsmi internet saytında yerləşdirilib.

***XQ***

*Yeni tamaşalar*

# “Arşın mal alan” zaman karuselində

**Xalq yazıçısı Kamal Abdullanın “Gülçöhrə və Əsgər” pyesi dahi bəstəkarımız Üzeyir Hacıbəylinin “Arşın mal alan” operettasında baş verən vaqeənin davamı, bir növ, sequelidir. Hörmətli yazıçımız bu əsərlə bir ilkə imza atıb. “Arşın mal alan”da Gülçöhrə ilə Əsgərin xoşbəxt sonluqla bitən sevgi macərası bu pyesdə bolşeviklərin hakimiyyətə gəlməsindən sonra faciəyə çevrilir. Həyat bu aşiqlərə sərt üzünü göstərir, yeni ictimai quruluş Əsgər bəy kimilərin növrağını pozur.**



Azərbaycan Dövlət Akademik Musiqili Teatrında hazırlanan tamaşanın quruluşçu rejissoru Əməkdar incəsənət xadimi Əsgər Əsgərovdur. Tipik Şərq əhvalatına fərqli yöndən yanaşan rejissor ictimai quruluşun dəyişməsini emosional-mənəvi planda təqdim edir. Məşədi Cabbarın dilindən Rusiyadakı vəziyyət əyan olur, atasının dostu onu hər vəchlə buralardan uzaqlaşıb İrana çəkib aparmaq istəyir. Çünki orada vəziyyət sabitdir, rahat ticarət etmək üçün imkanlar var. Burada isə bolşeviklər bəylərin, tacirlərin kökünü kəsmək qəsdindədir. Bu fonda Əsgər bəyin ailəsi real təhlükə qarşısındadır. Biz səhnədə həm də Xalq Cümhuriyyəti dövrünün mürəkkəb, ziddiyyətli mənzərəsi ilə qarşılaşırıq.

Əsgər bəy obrazını Prezident mükafatçısı Səmədzadə Xasiyev canlandırır, onun ifası son dərəcə təbii və inandırıcıdır. Aktyor Əsgər bəyin daxili həyəcanlarını, iztirablarını özününküləşdirib. Əsərin məna potensialı əsasən bu obrazın üzərinə düşdüyündən aktyordan plastika və geniş imkanlar tələb edir. Rejissor tamaşanın tonunu uğurla müəyyənləşdirib və aktyor ansamblını, kollektivi bir tonda, bir ritmdə oynamağa yönəldib. Obrazların cəlayi-vətən olması Əsgərlə Gülçöhrənin timsalında yüzlərlə həmvətənimizin faciəli taleyinə işıq salır, tamaşaçıya həyəcanlı anlar yaşadır. Əsgərin Sibirə sürgün olunması, Gülçöhrənin illərlə sevgilisinin yolunu gözləməsi tamaşaçını mütəəssir edir. Sevgi fonunda həm realizm, həm də poetik ümumiləşdirmə rejissor tərəfindən uğurlu həllini tapıb.



Əsgərin sürgündəki psixofiziki durumu, tükənmiş halı, keçmişin görüntüləri qarşısında tab gətirə bilməməsi faciə poetikasının əyaniləşməsidir. Burada melodram faciə müstəvisinə keçir və bu keçid rejissor tərəfindən uğurla səhnə həllini tapıb. Dəmir barmaqlıqlar arxasında ümidsiz bir vəziyyətdə fəryad edən Əsgər və onun məğlubiyyəti... Bu məqamda Əsgərin xarakteri şəxsiyyət tipi sərgiləyir. Təbii özünümüdafiə və haqsızlığa qarşı üsyan bu məqamda birləşir. Pyesin əsas mahiyyəti məhz bu anlarda özünü qabarıq büruzə verir. Əsgərin tifağı bu ədalətsiz hökmlə dağılır. Totalitar sistem o qədər bəylərin, günahsız insanların tifağını dağıdıb ki...

Əməkdar artist İqrar Salamovun ifasında Vəli obrazı yeni cizgilərlə yadda qalır. Onun bu ailəyə sədaqəti, bağlılığı aktyor tapıntıları ilə mükəmməl işlənib. Ümumiyyətlə, İqrar Salamov geniş potensiala malik aktyordur və bu tamaşada da Vəlini özünəməxsus formada canlandırır.

Dəyərli bəstəkarımız Cavanşir Quliyevin tamaşaya yazdığı musiqi, həqiqətən, möhtəşəmdir. Onun bəstəsi hadisələrin ruhunu mükəmməl ifadə edir, Əsgərlə Gülçöhrənin hissləri bu musiqi vasitəsilə danışır və tamaşanın təsir gücünü artırır.

Tamaşada Mehriban Zaliyeva, Atilla Məmmədov, Faiq Mirzəyev, Gültac Əlili, Gülnarə Abdullayeva, Elnarə Nağdəliyeva, İbrahim Əlizadə, Elçin İmanov, Elxan İsmayılov, Əli Kərimov, Orxan Hüseynov, Kamil Cəfərov, Nicat Həbibov, xor və balet artistləri iştirak ediblər. Hər şey çox səliqə ilə işlənib. Tamaşanın özünəxas harmoniyası var və bu da bütövlüyə xidmət edir.

“Gülçöhrə və Əsgər” tamaşası quruluşçu rejissor Əsgər Əsgərovun yaradıcılığında peşəkarlıq baxımından yeni yanaşma kimi qəbul edilir.

***Kənan HACI,***
***yazıçı-dramaturq***

*Tariyel Ümid – 80*

# Misraları Araz kimi kükrəyən şair

**Hələ 1986-cı ildə onun ilk şeirlər kitabı olan “Ağ günümün qanadları”nın Ön söz müəllifi Söhrab Tahir çoxdan tanıdığı və istedadına bələd olduğu şair haqqında yazmışdı: “Tariyel poetik ömrünün bir küncünə sığınıb, “bir şəlalə nəğməsinin” şələsini kürəyinə atıb, axtarış yollarında 15 il yorulmadan addımladı. Ədəbi məclislərdə, poeziya klublarında bir cüt gözə, qulağa, gözəlliklərin maqnit sahəsinə, müşahidə meydançasına çevrildi. İlk silsilə şeirləri çap olunanda oxucular gəlib məni təbrik etdilər. Özü qapı arxasında durmuşdu, utanırdı, bəlkə də, tərifdən qorxurdu...”.**



Elə tərifə meyilli olmamasının nəticəsidir ki, artıq 80 yaşına çatan Tariyel Cəfər oğlu Pərdəşünas – Tariyel Ümid özünəxas təvazökarcasına yaşayıb-yaratmağındadır. Beləcə, ümidləri doğruldaraq, şair ömrünün yumağını yığa-yığa gedir.

Tariyel Ümid 1945-ci ilin dekabrında Güney Azərbaycanın Əhər şəhəri yaxınlığındakı Dürmüşkanlı kəndində demokrat inqilabçı ailəsində dünyaya göz açıb. 1 yaşında ailəsi Quzey Azərbaycana – Ağdama köçməyə məcbur olub. Burada məktəbi və mexanikləşdirmə texnikumunu, 1972-ci ildə isə Bakıda Politexnik İnstitutunun nəqliyyat fakültəsini bitirib. Ölkəmizin dəmir yolu sistemində 40 ilə yaxın qüsursuz və fədakar əmək yolu keçib. AJB-nin Jurnalist Sənətkarlığı İnstitutunda oxuyaraq publisistik məharətini yüksəldib. Bu gün Azərbaycan cəmiyyəti Tariyel Ümidi daha çox istedadlı şair-publisist, səmimi insan, Vətən həsrətli soydaşımız kimi tanıyır:

***Bu tayda o taylı nəğmələrimi***
***Quşlar gəzdirirlər dimdiklərində.***

Doğrudan da, həsrət duyğularını yalnız şairlər bu cür ifadə edə bilərlər. 1988-ci ildən Azərbaycan Yazıçılar Birliyinin (AYB) üzvü olan sənətkarın işıq üzü görən yüzlərlə şeiri, 4 kitabı ona geniş oxucu rəğbəti qazandırıb. Şairin fədai övladı olması bədii-publisistik yaradıcılığında özünü aparıcı xətt kimi göstərir.

**Əməkdar jurnalist, İran Mühacirləri Cəmiyyətinin sədri Rəhim Hüseynzadə şair dostu barədə deyir:**

– Tariyel 14 yaşından şeirlər qələmə alır. Əksər qəzet və jurnallarda imzasına rast gələrsiniz. 70-ci illərin əvvəllərində Xalq şairi Söhrab Tahir “Ulduz” jurnalında, Balaş Azəroğlu isə “Ədəbiyyat və incəsənət” qəzetində ona “Uğurlu yol” yazıblar. Tariyel “21 Azər” Hərəkatı ilə yaşıddır. Daim Pişəvəri idealları ilə nəfəs alıb. Həm boya-başa çatdığı, qayğısı ilə əhatə olunduğu Azərbaycana sadiqdir, həm də bu inqilabın ideallarına.

Əlavə edək ki, şairin şeir, hekayə və poemaları mərkəzi mətbuatda, “Çinar pöhrələri”, “El məhəbbəti”, “Ədəbi Şirvan”, “Odlu misralar”, “Parçalanmış millətin harayı”, “Səhər”, “Şəhriyar” və başqa ədəbi almanaxlarda çap olunub. Ayrı-ayrı illərdə “Ağ günümün qanadları”, “Bu da bir taledi”, “Mənim Gülüstanım”, “Yetmiş pilləkən” adlı kitabları işıq üzü görüb. 2015-ci ildə “Dədə Qorqud” Beynəlxalq mükafatına layiq görülüb. İranlı Mühacirlər Ədəbi Birliyinin sədri kimi fəal yaradıcılıq işi aparır.

***Açılmayan arzular var qönçədi, daşdı,***
***Analar var, bacılar var gözləri yaşlı.***
***Araz kimi misralarım səbrimi aşdı,***
***Yazıldıqca şeirlərim məni göynədir...***

Onun yaradıcılığının ana xəttini, əsas leytmotivini 3 ildən sonra 200 illiyi olacaq Türkmənçay müqaviləsinin xalqa vurduğu yaralar, qardaşı qardaşdan ayıran Arazın acı taleyi, birlik arzusu təşkil edir. Süleyman Rüstəmin, Məhəmmədhüseyn Şəhriyarın, Mir Cəlalın, Bəxtiyar Vahabzadənin, Söhrab Tahirin, Balaş Azəroğlunun, Əli Tudənin mənəvi xələfi olan Tariyel Ümidin Xudafərin timsallı misraları həsrətimizə körpü olmaq istəyinin bədii ifadələridir.

**AMEA-nın Nizami adına Ədəbiyyat İnstitutunun şöbə müdiri, şair Vüqar Əhməd yazır:** “Tariyel Ümidin “Köksüm elə genişlənib” şeirində biz tamam başqa bir dəst-xəttin, üslubun şahidi oluruq:

***Danışaram sözlərimi,***
***Araz udub şahə qalxır.***
***Atılıram Araza mən,***
***İki sahil mənə baxır.***

Bu olduqca poetik misralar şairin fikrini son dərəcə aydın ifadə edir, belə ki, hər bir oxucu şairin nə demək istədiyini çox asanlıqla qavrayır, artıq heç bir şərhə, fəlsəfi baxışların təhlilinə ehtiyac qalmır... O da öz sələflərinin yolunu ləyaqətlə davam etdirir, şeirimizə müasir üslub əlvanlığı, intellektual zənginlik, daha doğrusu, fərdi intelektual üslub gətirir”.

***Yubilyar şairin bir şeirini***
***oxucularımıza təqdim edirik:***

### Mənim ümid şeirim

***Sən o biganəni alma eyninə,***
***Demə ki yox məni bir duyan kəsim.***
***Mən bir ümid şeiri yazıram sənə,***
***Bu ümid şeirimi oxu, əzizim.***
***Gözümdə izi yox kinin, yalanın…***
***Bircə baxışından nurlanar günüm.***
***Bəs belə ilahi gözü olanın***
***Ümidi olmazmı, gözünə dönüm?***
***Mənimçin ucasan bir zirvə kimi,***
***Sən kimin yerinə uca bilərsən?***
***Göyərçin əllərin ümid deyilmi?***
***Elə bu qanadla uça bilərsən.***
***Lap deyək tək çiçək yaylaqda qərib,***
***Yox bir oxşayanı, məhəl qoyanı.***
***O, elə ümiddir, dünyaya gəlib,***
***Baharlar ömrüdür, torpaq həyanı,***
***Bir tər çiçəyisən bizim çəmənin,***
***Gizlən, bənövşə ol - nəzərdə varsan.***
***Qapına ümidə gəlirik sənin,***
***Çən ümid qapını harda ararsan?***
***Ərit ürəyində, ərit o buzu,***
***Bənövşəm, yaza bax, başını qaldır.***
***Göylərin ən uzaq ümid ulduzu***
***Ovcunun içində yansa – xəyaldır.***
***Elə boş xəyalları alma eyninə,***
***Könlündə tel olub titrəsin səsim.***
***Mən bir ümid şeiri yazıram sənə,***
***Bu ümid şeirimi oxu, əzizim…***

***Əli NƏCƏFXANLI***
***XQ***

**“Fətəli xan Xoyskinin 150 illik yubileyinin keçirilməsi haqqında” Prezident sərəncamına uyğun olaraq, Gəncə Şəhər İcra Hakimiyyəti və AMEA-nın Gəncə Bölməsi böyük dövlət xadimi və Azərbaycan Xalq Cümhuriyyətinin qurucularından olmuş Fətəli xan Xoyskinin həyat və fəaliyyətinə həsr edilmiş dəyirmi masa təşkil edib.**

# Gəncədə Fətəli Xan Xoyski məclisi

“Azərbaycan milli dövlətçilik tarixində Fətəli xan Xoyski irsi – ədalətin, vətənpərvərliyin və istiqlalın təcəssümü” mövzusunda yubiley məclisində açılış nitqi ilə çıxış edən AMEA-nın Gəncə Bölməsinin sədri, akademik Fuad Əliyev 1918-ci ildə Şərqdə ilk demokratik dövlət olan Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasını ölkə tarixinin ən şərəfli səhifələrindən biri kimi dəyərləndirib. O, Ümummilli lider Heydər Əliyevin milli azadlıq və istiqlal uğrunda mübarizə tarixinin öyrənilməsinə xüsusi önəm verdiyini xatırladıb, bugünkü mərhələdə Prezident İlham Əliyevin milli dövlətçilik ənənələrini uğurla davam etdirdiyini vurğulayıb.



Bildirilib ki, Fətəli xan Xoyskinin 150 illik yubileyinin ölkədə təntənə ilə qeyd edilməsi müstəqil dövlətimizin və onun rəhbərinin Azərbaycan tarixində müstəsna rol oynamış şəxsiyyətlərin irsinə göstərilən yüksək diqqətin nümunəsidir. Mərasimdə Gəncə Bölməsinin Xalq Cümhuriyyətinin tarixinə, xüsusilə Gəncə səhifələrinə dair apardığı elmi tədqiqatlar və nəşrlər barədə məlumat da verilib.

Dəyirmi masa AMEA Gəncə Bölməsinin elmi işlər üzrə sədr müavini Əlimuxtar Muxtarov “Gəncə Bölməsinin Cümhuriyyət nəşrləri”, Diyarşünaslıq İnstitutunun Tarix şöbəsinin müdiri Nərgiz Rəsulova “Azərbaycan Xalq Cümhuriyyətinin beynəlxalq arenada tanınmasında Xoyskinin rolu”, Tarix şöbəsinin kiçik elmi işçisi Yasin Alməmmədov “Milli dövlətçilik və demokratiya ənənələrimizin banisi Fətəli xan Xoyski”, Etnoqrafiya şöbəsinin kiçik elmi işçisi Nərmin Alıyeva “Fətəli xan Xoyski və Gəncə: milli mücadilə və dövlətçilik yolunun başlanğıcı”, Etnoqrafiya şöbəsinin kiçik elmi işçisi Aytən Əliskəndərova “Fətəli xan Xoyskinin Azərbaycan tarixində yeri və rolu” mövzularında məruzələrlə davam edib, müzakirələr aparılıb.

***Hm let QASIMOV,***
***XQ-nin bölgə müxbiri***

# “Orfoqrafiya lüğəti”nin yeni nəşri müzakirə edilib

**AMEA Nəsimi adına Dilçilik İnstitutunda keçirilən “Orfoqrafiya lüğəti”nin yeni nəşri ilə bağlı geniştərkibli iclasda bu fundamental qaynağın yenilənməsinin zəruriliyi, görülən işlər və texniki hazırlıq məsələləri ətraflı müzakirə olunub.**



İnstitutun direktoru, professor Nadir Məmmədli bildirib ki, “Orfoqrafiya lüğəti”nə Prezident İlham Əliyevin AMEA-dakı çıxışında səslənən tələblər çərçivəsində yenidən baxılır. Yeni nəşrin hazırlanmasında 2021-ci ildə çap olunmuş “Orfoqrafiya lüğəti” əsas baza kimi qəbul edilib. Əvvəlki illərdən fərqli olaraq, bu təkmil nəşrdə Dilçilik İnstitutunun “Dil korpusu” bazasından da geniş istifadə olunub, sözlərin işlənmə tezliyi nəzərə alınıb. Korpusəsaslı yanaşma lüğətdə normativ qaydaların daha dəqiq müəyyənləşdirilməsinə və lüğətin əsaslarının gücləndirilməsinə imkan verir.

Professorlar Məsud Mahmudov, İlham Tahirov, İsmayıl Məmmədli, filologiya elmləri doktorları Qətibə Quliyeva və Şəbnəm Həsənli-Qəribova, dosent Fidan Salayeva, filologiya üzrə fəlsəfə doktoru İmanyar Quliyev lüğətin yenidən işlənməsi ilə bağlı rəy və təkliflərini söyləyiblər. Lüğətdə mövcud texniki uyğunsuzluqların aradan qaldırılması, yeni sözlərin əlavə olunması, müasir dil faktlarına uyğunlaşdırma və elektron baza üçün strukturlaşdırma kimi məsələlər müraciət zamanı diqqət mərkəzində olub. Alimlər “Orfoqrafiya lüğəti”nin növbəti nəşrinin müasir elmi-praktik tələblərə cavab verməsi, dil normalarının daha dəqiq müəyyən olunması və cəmiyyət üçün əlçatan şəkildə təqdimatı istiqamətində işlərin ardıcıl davam etdirildiyini vurğulayıblar.

***XQ***

# “Azərbaycan postmodern ədəbiyyatı”

**AMEA Ədəbiyyat İnstitutunun ədəbi tənqid şöbəsinin aparıcı elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru, dosent Elnarə Qaragözovanın “Azərbaycan postmodern ədəbiyyatı” monoqrafiyası rus dilində işıq üzü görüb. Müəllifin sayca 6-cı, rus dilində isə ilk kitabı İnstitutun Elmi Şurasının 7 noyabr 2024-cü il tarixli qərarı ilə nəşr edilib.**




Kitabın elmi redaktoru və ön söz müəllifi AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli, rəyçiləri filologiya elmləri doktoru Vaqif Yusifli və filologiya elmləri doktoru, professor Rəhilə Qeybullayevadır.

Müstəqillik dövrü ədəbiyyatımızda postmodernist poetikanın təzahürlərini sistemli şəkildə tədqiq edən ilk monoqrafik araşdırma “Giriş”, “Postmodernizm və milli ədəbiyyat konsepsiyası”, “Azərbaycan ədəbiyyatında postmodern paradiqma”, “Azərbaycan postmodern ədəbiyyatında dekonstruksiya və dekanonizasiya”, “Postmodern poetika Azərbaycan ədəbiyyatı kontekstində” və nəticə hissələrindən ibarətdir. Əsərdə postmodernizm cərəyanı bütün yönləri ilə araşdırılmış və bu metodun Azərbaycan ədəbiyyatında mövqeyi müəyyənləşdirilmişdir.

Monoqrafiya “Mütərcim” nəşriyyatında çap olunmuşdur.

***XQ***

# Davamlı və əhatəli sosial siyasətin uğurları

### Sağlam əsgər – güclü ordu

**Hər il minlərlə gənc yetkin yaş həddinə çatdıqdan sonra çağırışa cəlb olunur, ölkənin təhlükəsizliyinin qorunmasında bilavasitə iştirak edir. Çağırış və hərbi xidmət prosesinin düzgün, şəffaf təşkili dövlətin əsas prioritetlərindən biridir. Təsadüfi deyil ki, bu sahədə qanunvericilik daim təkmilləşdirilir.**

Çağırış dövrləri, orduya qəbul prosedurları, yaş həddi, tibbi yoxlamalar, habelə ali təhsil alan gənclərin vəziyyəti hər bir vətəndaş üçün önəmlidir. Azərbaycan Respublikasının müvafiq qanunvericiliyinə əsasən, hərbi xidmətə çağırışın özünəməxsus qaydaları və vaxtları var. Prezident İlham Əliyev Azərbaycan Respublikası vətəndaşlarının 2026-cı il yanvarın 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında Sərəncam imzalayıb.

Hərbi xidmətə çağırış zamanı əsas mərhələlərdən biri tibbi yoxlamalardır. Hər bir çağırışçı məcburi qaydada tibbi müayinədən keçir və onun sağlamlıq vəziyyəti komissiya tərəfindən qiymətləndirilir.

2024-cü il iyulun 1-dən etibarən müddətli həqiqi hərbi xidmətə çağırılan vətəndaşların tibbi şəhadətləndirilməsi zamanı yekun tibbi müayinələr Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi tərəfindən həyata keçirilir. Agentliyin idarə heyəti sədrinin sözlərinə görə, bu məqsədlə Agentliyin nəzdində ən son müasir avadanlıqlarla təchiz edilmiş Tibbi Qiymətləndirmə Mərkəzi yaradılmışdır. Mərkəzdə ixtisaslaşmış peşəkar həkim-mütəxəssislər tərəfindən 4 kateqoriya üzrə rəy verilmiş çağırışçıların "B", "C", "Ç", "D" kateqoriyaları üzrə yekun tibbi müayinəsi aparılır. Sonda müayinəyə dair qəbul edilmiş qərar elektron sistemə daxil edilir və qərar barədə çağırışçıya elektron qaydada məlumat verilir.

Layihə çərçivəsində Nazirliyin daxili alt sistemləri ilə əlaqədar dövlət qurumlarının (Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi, TƏBİB, Səhiyyə Nazirliyi) elektron sistemləri arasında məlumat mübadilələri üçün inteqrasiyalar qurulmuş, sənədlərin elektron qaydada imzalanması daxil, bütün proseslərin tam şəkildə avtomatlaşdırılması və proseslərin kağız sənədlər olmadan idarəsi təmin edilmişdir. Belə ki, yekun tibbi qiymətləndirilməsi aparılacaq çağırışçılar haqqında göndəriş (forma 44) Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin elektron informasiya sistemindən elektron qaydada qəbul olunur, avtomatik rejimdə növbə təyin olunur, çağırışçı mərkəzə yaxınlaşdıqda növbə aktivləşdirilir və vətəndaşın növbəsi çatdıqda qəbul həkimlərə yönləndirilir. Həkim qəbulu, müəssisə daxili və xarici (TƏBİB və Səhiyyə Nazirliyinin müəssisələrinə) müayinə göndərişlərinin, həkim rəylərinin verilməsi, müayinə cavablarının həmin müəssisələrdən elektron qaydada alınması, tibbi qiymətləndirmə komissiyalarına yönləndirmələr və komissiya üzvləri tərəfindən sənədlərin formalaşdırılması tam elektron mühitdə həyata keçirilir. Beləliklə, təqdim olunan xidmətlər tamamilə rəqəmsallaşdırılıb.

"Tibbi Şəhadətləndirmə" altsistemi layihəsinin əsas nailiyyəti çağırışçıların yekun tibbi qiymətləndirməsində şəffaflığın, çevikliyin, obyektiv yanaşmanın təmin olunması, proseslərin tam şəkildə avtomatlaşdırılması, anlıq hesabatlılıq, qurumlararası məlumat mübadilələrinin elektronlaşdırılması və vətəndaş məmnunluğunun təmin edilməsidir. Layihə həm dövlət qurumları arasında məlumat mübadiləsini asanlaşdırır, həm də xidmətin göstərilməsində çeviklik yaradır.

Beləliklə, "Tibbi Şəhadətləndirmə" altsistemi ölkəmizdə çağırışçıların tibbi qiymətləndirilməsi sahəsində rəqəmsal idarəetməyə keçidin, müasir yanaşmanın və institusional islahatların növbəti real nəticəsidir.





### İmtiyazlı şəxslərə sanatoriya-kurort xidməti

**Nazirlər Kabinetinin bir sıra qanunvericilik aktlarında dəyişikliklər edilməsi barədə yeni Qərarları əlilliyi olan və digər imtiyazlı şəxslərin sanatoriya-kurort putyovkası (yollayışı) ilə təminat imkanlarının artırılmasına xidmət edir.**

Belə ki, bu dəyişikliklərə əsasən yollayışla təmin olunma hüququ yaranan 18 yaşına çatmamış uşaqlar da müşayiətçi ilə təmin oluna biləcəklər və onların putyovka ilə təmin olunduğu müddət ərzində 1 dəfə müşayiətçini dəyişdirmək hüquqları olacaq.

İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində əlilliyi olan şəxslərin çalışdığı təqsirkar müəssisə ləğv olunduqda belə işəgötürən yenidən təşkil edildiyi halda bu şəxslər həmin işəgötürənin hüquqi varisi tərəfindən yollayışla təmin olunacaqdır. Bundan başqa, orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş şəxslərin və ya əlilliyi müəyyən edilmiş uşaqların yollayışla təmin olunduğu müddət ərzində 1 dəfə müşayiətçini dəyişdirmək hüququ olacaq.

Eyni zamanda, yeni qaydalarda Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Mərkəzləşdirilmiş elektron informasiya sistemi üzərindən "Sanatoriya-kurort" altsistemi vasitəsilə avtomatlaşdırılmış qaydada sanatoriya-kurort yollayışı ilə təminatla bağlı müddəalar də əksini tapıb. Eləcə də dağınıq skleroz xəstəliyinə tutulmuş şəxslərin, hemofiliya və talassemiya irsi qan xəstəlikləri olan şəxslərin də sanatoriya-kurort müalicəsi ilə təmin edilməsi qaydalarında uyğunlaşdırma üçün texniki xarakterli dəyişikliklər edilib.

### Dövlət qurumlarında rəqəmsal körpü

Ölkədə dövlət informasiya sistemləri arasında məlumat mübadiləsini təmin edən Milli Məlumat Mübadiləsi Sistemi – "digital.bridge" üzərindən həyata keçirilən tranzaksiyaların ümumi sayı 2 milyardı ötüb. İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyi



tərəfindən təqdim edilən sistemə hazırda 80 dövlət qurumu və 180 informasiya sistemi qoşulub.

"digital.bridge" 2021-ci ilin aprel ayından fəaliyyət göstərir və dövlət orqanları arasında təhlükəsiz, sürətli və standartlaşdırılmış məlumat axınını təmin edən mərkəzi platformadır. Sistem dövlətin rəqəmsallaşma siyasətinin əsas infrastruktur komponentlərindən biri olmaqla, məlumatların etibarlı şəkildə ötürülməsi və paylaşılmasına şərait yaradır. Bu platforma dövlət orqanları arasında inteqrasiyanı gücləndirir, "bir dəfə təqdim et" prinsipini reallaşdırmaqla vətəndaş və biznes subyektlərinin dövlətlə münasibətlərini sadələşdirir və idarəetmədə çevikliyi artırır. Sistem rəqəmsal xidmətlərin inteqrasiyasını və sabit fəaliyyətini təmin etməklə dövlət orqanları arasında vahid və fasiləsiz xidmət modelinin formalaşmasını sürətləndirir. Eyni zamanda, milli məlumat infrastrukturunun təhlükəsizliyini qoruyan əsas platforma rolunu oynayır.

Cari ilin yanvar-oktyabr ayları ərzində sistem üzərindən 786 milyondan çox məlumat mübadiləsi həyata keçirilib. Bu, ötən ilin eyni dövrü ilə müqayisədə təxminən 89 faiz artım deməkdir. Beləliklə, 2025-ci ildə "digital.bridge" üzərindən həyata keçirilən məlumat mübadilələrinin həcmi əvvəlki illərlə müqayisədə 2-3 dəfə çox olub.

Xatırladaq ki, 2021-ci ilin aprel ayından fəaliyyət göstərən Milli Məlumat Mübadiləsi Sisteminin (digital.bridge) fəaliyyəti Azərbaycan Respublikası Prezidentinin 12 sentyabr 2018-ci il tarixli 263 nömrəli "Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları"nın təsdiq edilməsi və elektron hökumətlə bağlı bəzi tədbirlər haqqında Fərmanı ilə tənzimlənir. Sistem Prezident İlham Əliyevin 12 avqust 2025-ci il tarixli Fərmanı ilə təsdiq edilmiş Elektron Hökumət İnformasiya Sisteminin (EHİS) Əsasnaməsi ilə də fəaliyyət göstərir.

*Hazırladı:*
***Mustafa KAMAL***
***XQ***

# Səlis nitq uşaqlıqda formalaşır

## *Lakin vaxtında aradan qaldırılmayan qüsurlar bəlaya çevrilir*

**Müasir dövrdə uşaqlarda nitqin vaxtında formalaşmaması valideynlərin ən çox narahatlıq duyduğu məsələlərdəndir. Əgər XX əsrin 70-ci illərində uşaqların cəmi 4 faizində nitq qüsurları müşahidə olunurdusa, bu gün həmin göstərici 6 dəfə artıb. Bu, həm tibb mütəxəssislərini, həm də valideynləri ciddi düşündürür. Bəs nitq qüsuru nədir?**

Qeyd edək ki, nitq qüsuru uşağın psixofiziki və emosional inkişafına birbaşa təsir edən, ünsiyyət bacarıqlarını, təfəkkürünü və sosial uyğunlaşmasını məhdudlaşdıran çoxşaxəli problemdir. Onların arasında səslərin və söz birləşmələrinin düzgün tələffüz olunmaması, cümlələrin məntiqi ardıcıllıqla qurulmaması, söz ehtiyatının azlığı, eşidilən nitqi tam başa düşməmək kimi əlamətlər artıb. **Mövzu ilə bağlı həmsöhbətimiz psixoloq Vüsalə Əmiraslanovadır.**



**– Nitq pozuntusu ən çox məktəbəqədər yaş dövründə müşahidə olunur. Valideyn bu əlamətləri gördükdə nə etməlidir?**

– Valideynlər çox zaman nitqin gecikməsini "uşaq gec açılır", "qonşunun nəvəsi də belə idi" kimi təsəllilərlə izah etməyə çalışır. Bu, problemə səhv yanaşmadır. Nitq inkişafı yaş göstəricilərinə uyğun irəliləmədikdə valideynlər gözləməməlidir. Bu gecikmələr öz-özünə aradan qalxmır və vaxtında loqopedə müraciət edilmədikdə daha ciddi problemlərin yaranmasına yol açır.

Normal inkişaf meyarları göstərir ki, 1 yaşında barmaq göstəricisi formalaşır, yəni uşaq istədiyini barmağı ilə göstərə bilir. 2 yaşına doğru isə nitqi formalaşır, 2,5 yaşa qədər uşaq sadə ifadələri qurmağı, 3 yaşda artıq cümlələrdən istifadə etməyi bacarır. 4 yaşında isə onlarda ardıcıl, məzmunlu nitq formalaşır. Bu mərhələlərdən kənara çıxan hallar inkişaf tempində uyğunsuzluqdan xəbər verir, valideynlərin diqqətli olması, pediatr və loqopedin rəyini vaxtında alması zəruridir.

Xüsusilə autizm simdromu olan uşaqlara diqqət yetirilməlidir. Çünki autizmli uşaqların öz dünyası olur. Onlar ətraf mühitdən təcrid olunur, bir hərəkətin, yaxud bir əşyanın üzərində təkrarlayıcı hərəkətlər edirlər. Bu uşaqların söz ehtiyatı yalnız biriki sözdən ibarət olur və həmin sözlər daim təkrarlanır. Belə uşaqlar mütləq psixiatr və nevropatoloq müayinəsindən keçirilməlidir. Müraciət nə qədər erkən olsa, səmərəsi də bir o qədər tez alınar.

**– Ata-ananın nitq mədəniyyəti uşağın gələcək danışıq tərzinə təsir edirmi?**

– Uşağın nitqinin necə formalaşacağı, ilk növbədə, evdə eşitdiyi səsdən, yəni valideynin nitqindən asılıdır. Çünki uşaq danışığı xüsusi dərslikdə yox, təqlidlə öyrənir. Evdə necə danışılırsa, uşaq da həmin nitqi mənimsəyir. Valideynin nitq mədəniyyəti uşağın gələcək danışıq tərzinin əsasını təşkil edir.

Bu məsələdə diqqətli olmaq lazımdır, səhvlər təkrar edilməməlidir. Məsələn, ən geniş yayılmış yanlışlardan biri uşağı əzizləmək üçün istifadə edilən kiçildilmiş sözlərdir. Maşını "bibit, pişiyi "psi", çörəyi "pəpə" və s. səsləndirmək olmaz. Bu sözlər uşaq tərəfindən normativ forma kimi qəbul edilir və sonra onları düzəltmək çox çətin olur.

Danışığın ritmi də vacibdir. Həddən artıq sürətli və ya çox ləng nitq uşağın ritmik qavrayışını pozur, sözləri bütöv şəkildə dərk edə bilmir.

Bundan başqa, çoxdilli ailələrdə uşağın nitqi formalaşmamış ona iki və üç dildə müraciət edirlər ki, nəticədə nitqin formalaşması, anlama, qavrama bacarıqları ləngiyir. Nitqin inkişafına təsir edən geniş yayılmış səbəblərdən biri də pedaqoji baxımsızlıqdır. İlkin yaşlarda uşaqla az ünsiyyət yaratmaq, onun oyuncaqlarla çox oynamasına, yaxud balacanın uzun müddət cizgi filmi izləməsinə imkan vermək, başqa sözlə, ona lazım olan diqqətin göstərilməməsi uşağın ümumi, yəni fiziki, psixi və əqli inkişafının ləngiməsinə səbəb olur.

Uşağa yönəlmiş sözlər aydın olmalı, ardıcıllıq pozulmamalı və cümlələr qrammatik baxımdan düzgün qurulmalıdır. Danışıq zamanı evdə səs-küyün, o cümlədən televizor, planşet, musiqi cihazlarının söndürülməsi vacibdir. Çünki əlavə səslər uşağın diqqətini yayındırır və nitqin mənimsənməsini ləngidir. Təcrübə göstərir ki, uşaqlar valideynlərinin tələffüzünü birbaşa "köçürür".

**– Bəzən uşaqlar hərfləri unudurlar. Bu zaman nəyə diqqət edilməlidir?**

– Uşağın hansı hərfləri unutduğunu və ya bir-biri ilə qarışdırdığını müəyyənləşdirmək, ilk növbədə, böyük əhəmiyyət daşıyır. Bu hal həmişə eşitmə qabiliyyəti ilə bağlı fiziki problemlərlə əlaqəli olmur. Bəzən uşaq sadəcə oxşar səsləri kifayət qədər fərqləndirə bilmir və nəticədə çaşqınlıq yaranır. Bəzi vəziyyətlərdə müntəzəm tapşırıqları daha maraqlı və yaradıcı fəaliy-



yətlərlə zənginləşdirmək lazımdır. Uşağa əvvəlcə hərfi çəkmək, sonra isə onu istədiyi rənglərlə boyamaq tapşırığı verilə bilər. Plastilindən müxtəlif formalı hərflər düzəltmək də olduqca faydalıdır. Bu zaman bir neçə qavrama mərkəzi eyni anda işə düşür və uşaq hərfi həm vizual, həm də taktil şəkildə yadda saxlayır.

Valideynin yaradıcılığı da mühüm amildir. Çoxları hərfləri uşağa daha anlaşıqlı obrazlarla əlaqələndirir. Məsələn, üstü bəzəkli tortu görərkən "O" hərfini xatırlatmaq mümkündür.

Hər bir uşağın öyrənmə tərzi fərqlidir. Ona görə də mövcud üsullar içindən ən münasibini seçmək vacibdir. Doğru yanaşma həm hərflərin daha asan mənimsənilməsinə, həm də öyrənmə prosesinin uşaqlar üçün maraqlı və səmərəli olmasına şərait yaradır.

**– Evdə nitqin inkişafına dəstək hər bir valideynin borcudur. Ev şəraitində uşağın nitqini inkişafına necə kömək etmək olar?**

– Valideynin məsələyə sistemli yanaşması bəzən loqoped kabinetində görülən iş qədər nəticə verir. Sadəcə düzgün üsullar seçilməli və bu gündəlik həyatın bir parçasına çevrilməlidir.

Uşağa yaşına uyğun nağıl və qısa hekayələr oxumaq nitqin inkişafında əvəzsiz rol oynayır. Hər gün oxunan bir-iki kiçik mətn uşağın həm söz ehtiyatını artırır, həm də diqqətini, qavrayışını möhkəmləndirir. Yeni sözlərin izah edilməsi və onların vizual materiallarla dəstəklənməsi uşağın xatirəsində daha möhkəm iz buraxır. Həmçinin gündəlik fəaliyyətləri sözlərlə müşayiət etmək vacibdir. "İndi corab geyinirik", "qabı yuyuram", "şirəni stəkana tökürəm", "qapını açıram" sözləri uşağın nitqini həyatın içində formalaşdırır.

Onu da deyim ki, nitqin möhkəmlənməsində təkrarın rolu danılmazdır. Uşaqlar eşitdikləri mətni nə qədər çox təkrarlayırlarsa, beynin dil mərkəzləri o qədər aktiv olur və nitq daha tez formalaşır. Buna incə motorika məşqlərini də əlavə etmək lazımdır. Yəni barmaq, bilək və əl əzələlərinin koordinasiyalı işləməsi uşaqların ümumi inkişafında mühüm rol oynayır. Bu bacarıqlar vasitəsilə uşaq yazı yazmaq, şəkil çəkmək, düymə bağlamaq, yemək yemək kimi gündəlik fəaliyyətləri müstəqil şəkildə icra etməyi öyrənir.

Plastilinlə oynamaq, xırda əşyaları çeşidləmək, barmaq oyunlarını icra etmək təkcə əlin çevikliyini artırmır, həm də nitqlə bağlı neyron əlaqələri gücləndirir. Müşahidələr göstərir ki, loqopedin verdiyi tapşırıqlar evdə vaxtında yerinə yetirildikdə nəticə təxminən 2,5 dəfə daha tez əldə olunur. Bu da bir daha sübut edir ki, valideynin evdəki dəstəyi loqopedik müdaxilənin ən güclü davamı və tamamlayıcısıdır.

**– Genetik meyillilik zəif nitqin inkişafına səbəb ola bilərmi?**

– Bəli, genetik meyillilik bu səbəblər sırasında ilk yeri tutur. Bəzən ailədə oxşar ləngimənin yaşanması uşağın nitqinin də eyni istiqamətdə inkişaf etməsinə təsir göstərir. Tez-tez xəstələnən, xüsusilə uzun sürən tənəffüs yolu problemləri yaşayan uşaqlarda nitqin ləngiməsi daha çox müşahidə olunur. Hamiləlik və doğuş zamanı baş verən risk amilləri də beyin funksiyalarına təsir edərək nitq prosesini ləngidir.

Eşitmə zəifliyi isə ən çox gözdən qaçan, amma nitqin təməlini sarsıdan faktordur. Uşaq səsi tam eşitmirsə, onu düzgün təqlid etməsi mümkün olmur. Son və ən mühüm amil isə valideynlə ünsiyyətin azlığıdır. Uşaq danışığı ekrandan yox, insandan öyrənir. Ritmi, intonasiyanı, pauzanı, reaksiyanı yalnız canlı ünsiyyətdə qavrayır.

Təəssüf ki, müasir dövrdə bir çox valideynlər televizor, planşetin və müxtəlif rəqəmsal proqramların uşağın dilini "açacağına" inanırlar. Lakin bu fikir tamamilə yanlışdır. Televizor, planşet və rəqəmsal proqramlar uşağın nitqini inkişaf etdirmir, əksinə, bəzən ləngidə bilir. Nitqi yalnız bir amil formalaşdırır: valideyn səsi, valideyn sözü, valideynin göz kontaktı. Odur ki, zəif nitq inkişafı şübhəsi yaranan anda çözüm aydındır. Bu zaman ekranı yox, uşağın özünü dinləmək lazımdır. Uşağı dilə gətirən məhz canlı sözdür.

**– Valideynlər bəzən uşaqları bir-biri ilə müqayisə edirlər. Bu nə dərəcədə doğrudur?**

– Uşaqların inkişaf tempi fərqlidir və bu normaldır. Valideynlərin ən çox etdiyi səhvlərdən biri uşaqları bir-biri ilə müqayisə etməkdir. Bu, təkcə yanlış deyil, həm də psixoloji baxımdan təhlükəlidir. Bunun əvəzində valideynlərin əsas prinsipləri belə olmalıdır: uşaqları danlamayın, səhv tələffüzləri təkrarlamayın, düzəlişi sakit və nümunə göstərməklə edin. Hər kiçik uğuru qeyd edin və uşağın özünəinamını gücləndirin. Nitqin inkişafı təkcə texniki bacarıq deyil, həm də uşaq üçün emosional və psixoloji təhlükəsiz mühitin yaradılmasıdır.

Ümumiyyətlə, uşağın nitqi təkcə öyrənilən sözlərlə deyil, sevgi və anlayışla da formalaşır. Bəli, uşaqlarda nitq pozuntularının artması müasir cəmiyyətin aktual problemlərindən biridir. Lakin vaxtında aparılan diaqnostika və düzgün korreksiya proqramı ilə bu pozuntuların böyük əksəriyyəti tam aradan qaldırıla bilər.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 250 (30944) 26 noyabr 2025-ci il, çərşənbə

## İDMAN

### 10 cüdoçumuz Əbu-Dabi turnirində




**Beynəlxalq Cüdo Federasiyasının təqviminə əsasən, 28-30 noyabr tarixlərində Birləşmiş Ərəb Əmirliyinin paytaxtı Əbu-Dabidə "Böyük Dəbilqə" turniri keçiriləcək.**

Azərbaycan Cüdo Federasiyasından (ACF) verilən məlumata görə, ölkəmizi bu mötəbər yarışda təmsil edəcək idmançılar müəyyənləşib. Azərbaycan turnirdə 5 çəki dərəcəsində 10 cüdoçu ilə təmsil olunacaq. Yığmanın heyətində Əhməd Yusifov, Balabəy Ağayev (60 kiloqram), Ruslan Paşayev, Rəşad Yelkiyev (66 kiloqram), Rəşid Məmmədəliyev, Hidayət Heydərov (73 kiloqram), Murad Fətiyev, Aslan Kotsoyev (90 kiloqram), Camal Qamzatxanov və Uşangi Kokauri ( +100 kiloqram) yer alıblar.

Üç gün davam edəcək turnirdə 53 ölkədən 390 idmançı (233 kişi, 157 qadın) qüvvəsini sınayacaq.

Qeyd edək ki, ACF-nin "A" kateqoriyalı beynəlxalq dərəcəli hakimi Nazim Umbayev ədalət təmsilçiləri arasında yer alacaq.

### Antidopinq agentliklərinin Avropa iclası




**Fransanın Strasburq şəhərində Ümumdünya Antidopinq Agentliyi (WADA) üzrə Ad Hoc Avropa Komitəsinin (CAHAMA) 69-cu iclası keçirilib.**

Mərasimdə ölkəmizi Azərbaycan Milli Antidopinq Agentliyinin (AMADA) icraçı direktoru Təhminə Tağı-zadənin rəhbərlik etdiyi nümayəndə heyəti təmsil edib. İki gün davam edən toplantının gündəliyində CAHAMA-nın 68-ci iclasının hesabatının təsdiqi, növbəti görüşlərin tarixlərinin müəyyənləşdirilməsi, Katiblikdən yeniliklər və WADA-nın qarşıdakı İcraiyyə Komitəsi və Təsisçilər Şurasının iclaslarına hazırlıq məsələləri yer alıb.

İclasda AMADA-nın icraçı direktorunun müavini Rüfət Efendiyev gender bərabərliyi üzrə məruzəçi qismində çıxış edərək, antidopinq siyasətində gender aspektlərinin nəzərə alınmasının vacibliyini vurğulayıb.

AMADA nümayəndə heyətinin iclasda iştirakı Azərbaycanın antidopinq sahəsində beynəlxalq əməkdaşlığa və Avropa ailəsində fəal dialoqa sadiqliyini bir daha təsdiq edir.

### AFFA İntizam Komitəsi klubları cərimələyib

**Misli Premyer Liqası təmsilçilərindən "Araz-Naxçıvan" 2500, "Turan Tovuz" isə 5700 manat cərimələnib. Bu barədə AFFA İntizam Komitəsi qərar qəbul edib.**

XII turun "Araz-Naxçıvan" – "Turan Tovuz" oyunu bitdikdən sonra meydana kənar şəxs daxil olduğuna görə Naxçıvan təmsilçisi 2500 manat cərimələnib. "Turan Tovuz" isə azarkeşləri tərəfindən hakimlərin ünvanına kütləvi şəkildə təhqiramiz ifadələr səsləndirildiyinə görə 5000 manat ziyana düşüb.

Bundan əlavə, Tovuz klubu oyunda 4 futbolçusu sarı vərəqə aldığı üçün 700 manat cərimələnib.

AFFA İntizam Komitəsi eyni zamanda "Sabah" klubuna xəbərdarlıq edib. Buna XII turda "Şamaxı" ilə oyunda tamaşaçılar tərəfindən gətirilmiş və qadağan olunmamış əşyaların arenaya buraxılmaması səbəb olub.

"Sumqayıt"ın futbolçusu Rayan Senhaci isə 1 oyunluq cəza alıb. O, "Qarabağ"la görüşdə ikinci sarı vərəqə alaraq meydandan qovulub. "Gənclik şəhəri" təmsilçisi ona görə 500 manat ödəməli olacaq.

*Qabil YUSİFOĞLU*
*XQ*

*Ötənlərdən, keçənlərdən*

# Müslüm Maqomayev və Lənkəran

**Azərbaycan professional musiqisinin ikinci böyük nümayəndəsi, dahi Üzeyir Hacıbəylinin dostu və silahdaşı Müslüm Maqomayevin həyatının Azərbaycan dövrü ilk vaxtlar Lənkəranla bağlı olmuşdur. Qori Müəllimlər Seminariyasını Üzeyir bəylə birlikdə bitirmiş Müslüm bir müddət Şimali Qafqazın Bekoviç kəndində işləmiş, sonra Lənkərana gələrək şəhərdəki Vorontsov-Daşkov adına dördsinifli şəhər məktəbində (1 saylı orta məktəbin köhnə binası, indiki mərkəzi meydan) çalışmışdı.**

Gənc ibtidai sinif müəllimi burada əmək və musiqi dərsləri keçmiş, uşaqlara kitab cildləməyi öyrətmişdi. General Həzi Aslanovun abidəsi önündəki ağaclar da o zaman Müslüm Maqomayevin təşəbbüsü və iştirakı ilə əkilmişdi. Həmin dövrdə bu yer "Üçkünc bağ" adlanmışdı.

...Lənkəran şəhərinin Şirəli Axundov küçəsində hamının yaxşı tanıdığı taxta bir ev vardı. Hələ XIX əsrin əvvəllərində bu evin pəncərələrindən küçəyə könül oxşayan musiqi tərənələri süzülürmüş. Evin sakini Vorontsov-Daşkov adına dördsinifli şəhər məktəbində dərs demiş, sonra indiki 1 nömrəli məktəbin müəllimi olmuş, hamının Əbdül Müslüm, yaxud Müslüm mirzə deyə müraciət etdiyi bir gənc olmuşdu. O, sonralar Azərbaycan professional musiqi sənətinə əvəzsiz töhfələr vermiş unudulmaz bəstəkarımız Müslüm Maqomayev imiş.

Mən də 1964-1966-cı illərdə Müslüm müəllimin dərs dediyi həmin köhnə məktəbdə oxumuşdum. Uzun illər milis və maarif orqanlarında çalışmış mərhum Aslan Kələntərli öz müəllimini tez-tez yada salırdı. O, Müslüm müəllimin təşkil etdiyi xor və dram dərnəklərinin üzvü olmuşdu. Danışardı ki, onlar Azərbaycan, rus və talış dillərində mahnılar oxuyar, tamaşalar göstərərdilər. Lənkəran camaatı uşaqların çıxışlarını maraqla qarşılayarmış. Aslan Kələntərli Müslüm Maqomayevin rəhbərliyi ilə keçən ilk konserti belə xatırlayırdı:

- Salonda yerlər tutulduğundan, adamların bir qismi sıraların arasında ayaq üstə durmuşdu. Qonaqlar və yerli ruhanilər qabaq cərgədə əyləşmişdilər. Müslüm mirzə həyəcanlı idi. Axı, bu gün müsəlman qızları ilk dəfə xorda oxuyacaqdılar.

Pərdə yavaş-yavaş qaldırıldı, oğlan və qızların məlahətli səsi ətrafa yayıldı. Xoru əvvəlcə tütək, balaban və qara zurna, sonra tar və qaval müşayiət etdi. Yaşlı bir kişi hirslə qalxıb, salondan çıxdı. Ona daha iki nəfər qoşuldu. Görünür, qızların səhnəyə çıxarılmasından narazı qalmışdılar. Konsert isə davam edirdi. "Kinəlim-kinəlim", "Zəngi yar", "Yar aldı məni", "Həlimə", "Ay dili-dili", "Yar düymələri mərcan", "Ağam xan otağında", "Limo" kimi xalq mahnıları bir-birini əvəz etdikcə alqışlar qopurdu. Müslüm bu mahnıları çəltik zəmilərində, toylarda ağsaqqal və ağbirçəklərdən eşitmiş, onları xor üçün işləmişdi.

Sonra səhnəyə dram dərnəyinin üzvləri çıxdılar. Şagirdlər Müslüm müəllimin rəhbərliyi ilə Azərbaycan və rus dillərində kiçik həcmli tamaşalar hazırlamışdılar. Əliağa Babayevin, Cahangir Talışlının çıxışları gənc müəllimin ürəyini riqqətə gətirdi. Konsertdən sonra qocaman müəllim Mirzə Ağəli Əliyev Müslümün əlini sıxıb, ziyalılar adından onu təbrik etdi və dedi: "Allahdan arzum budur ki, sonrağın böyük səhnələrdən gəlsin".

Respublikanın Əməkdar müəllimi Mirhaşım Talışlı və onun dostu, musiqi müəllimi Daşdəmir Məmmədov Müslüm Maqomayevin Lənkərandakı fəaliyyətini uzun illər böyük maraqla öyrənmişdilər. Onlar öz xatirələrində yazırlar ki, böyük bəstəkarın şagirdlərindən biri - Əbülfəz Əsədullayev bir gün ondan soruşur:

– Müslüm mirzə, neçə illərdir, çəltik zəmilərində işləyən qadınlardan nəğmələr toplayırsan, bəs bu nəğmələr qurtarmadı?



Müəllim cavabında deyir:

– Əbülfəz, dəryada balıq qurtarmadığı kimi, talışda da nəğmə bitən deyil...

Əbülfəz Heydər oğlu Əsədullayev Müslüm Maqomayevin 1906-1908-ci illərdə dərs dediyi sinfində, oxumuşdu.

Müslüm Maqomayev Lənkəranda müəllim işləyərkən Gərmətük yolunda 2 qızın nəğmə oxuya-oxuya getdiyini görür. Xanımı Məmmədova və Misri Nurullayevanın səsi bəstəkarın xoşuna gəlir və onları xor dərnəyinə dəvət edir.

Müslüm müəllimin Lənkəranda İsmayıl xan Talışinski, Qulam Səmədzadə kimi sənət dostları vardı. M.Maqomayev Lənkəranda musiqi həvəskarları ilə də görüşər və məsləhətlərini verərdi. Vaxtı ilə şagirdi olmuş Səmidxan Talışinskinin məlumatına görə, M.Maqomayev 1909-cu ildə Lənkəranda dərs dediyi şagirdlərin bir qrupunu öz hesabına Qroznı



şəhərinə apararaq, orada konsert təşkil etmişdi.

Müslüm Maqomayevin yetirməsi, Lənkərandan olan Qulam Səməd oğlu Səmədzadə 1928-ci ildə konservatoriyada nəfəsli alətlər üzrə klarnet şöbəsini bitirmiş, Bakıda Ü.Hacıbəyov və M.Maqomayevin rəhbərliyi ilə təşkil olunmuş Xalq çalğı alətləri orkestrində işləmişdi.



Müslüm Maqomayev Lənkəranda xor, dram dərnəyi, nəfəsli orkestr təşkil etmiş, talış xalq nəğmələrini toplayaraq nota almışdı. O, həmçinin, 75 nəfərlik orkestrə dirijorluq edirmiş. Orkestrdə skripka, fleyta, truba, kvartet və s. musiqi alətlərindən istifadə olunurdu.

Müslüm Maqomayev Azərbaycan opera sənətinin banisi, bacanağı olan dahi Üzeyir Hacıbəyova Lənkəranda yayılmış yerli xalq mahnılarının toplanmasına da köməklik etmişdi. Əməkdar müəllim Hacı Mirhaşım Talışlı deyərdi ki, Üzeyir Hacıbəyov və Müslüm Maqomayevin bir sıra əsərlərində, hətta operalarında ara-sıra talış nəğmələrinə də təsadüf edilir. Lənkəranda işlədiyi 1905-1911-ci illər Müslüm Maqomayevin bəstəkarlıq fəaliyyətində mühüm rol oynamışdır.

Dahi bəstəkarın yaşadığı birmərtəbəli taxta evə vurulmuş lövhədə yazılmışdı: "Bu evdə görkəmli bəstəkar Müslüm Maqomayev yaşamışdır (1906-1911)". Təəssüf ki, bu gün nə həmin ev, nə də ona vurulmuş xatirə lövhəsi qalıb. Onun yaşadığı evin yerində bank binası tikilib. Deyirəm, nə yaxşı ki, "Lənkəran" qəzetinin məsul katibi işlədiyim dövrdə foto müxbirimiz Gülağa Cəfərova Müslüm Maqomayevin bir vaxt yaşamış olduğu evin şəklini çəkdirmişdim. Bu gün Müslüm Maqomayevi yaşadan həmin şəkil, bir də xatirələr qalıb.

Şəhərin küçələrindən birinə böyük bəstəkarın adı verilib. Anadan olmasının 100 və 130 illiyi Lənkəranda geniş qeyd edilib.

Baba Müslüm və nəvə Müslüm Maqomayevlər Bakıda - Fəxri xiyabanda dəfn olunublar. İllər keçsə də, Müslüm Maqomayevlər unudulmur, ad və tarixi günlərdə neçə-neçə insan onların məzarı önünə toplaşır, hər ikisini ehtiramla yad edir.

***Hacı Etibar ƏHƏDOV,***
***Lənkəranda çıxan "Aşkarlıq" qəzetinin baş redaktoru***

## HAVA

### Yağmursuz, arabir dumanlı çərşənbə...



**Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Gecə və səhər bəzi yerlərdə duman olacaq. Şimal-qərb küləyi əsəcək. Havanın temperaturu gecə 10-13, gündüz 15-18 dərəcə isti olacaq. Atmosfer təzyiqi normadan yuxarı - 766 millimetr civə sütunu, nisbi rütubət gecə 80-85, gündüz 65-70 faiz təşkil edəcək.**

Azərbaycanın rayonlarında havanın əsasən yağmursuz keçəcəyi, bəzi yerlərdə arabir duman olacağı gözlənilir. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 2-7, gündüz 15-20, dağlarda gecə 2-7, gündüz 13-18 dərəcə isti olacaq.

*Q.ƏLİYEV*
*XQ*

*✓ 2021-ci ildə Qərbi Kaspi Universiteti tərəfindən Bağırov İbad Elmanoviçin adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.*


## "Cənubtikintiservis" ASC səhmdarlarının nəzərinə"!

9 yanvar 2026-cı il saat 10.00-da Bakı şəhəri, Səbail rayonu, Gülbala Əliyev küçəsi 25 nömrəli ünvanda "Cənubtikintiservis" ASC səhmdarlarının növbədənkənar ümumi yığıncağı keçiriləcəkdir.

**Yığıncağın gündəliyi:**

**1.** "Cənubtikintiservis" ASC-nin müşahidə şurasının və maliyyə-təftiş komissiyasının tərkibinin yenidən formalaşdırılması.

Növbədənkənar ümumi yığıncaqda bütün səhmdarların iştirakı vacibdir.

**Əlaqə telefonu**: 012-491-00-30.

***"Cənubtikintiservis" ASC-nin baş direktoru C.İ.Namazov***


## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının şöbə müdiri Süleyman İsmayılov və şöbənin kollektivi Şəfiqə Rzayevaya anası

**NƏZİRƏ RZAYEVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


**DİREKTOR – BAŞ REDAKTOR**
**ƏFLATUN AMAŞOV**

**TELEFONLAR:**
**Reklam və elanlar: 493-82-21**
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 Email: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994 (51) 280-16-44

"Xalq" qəzeti redaksiyası" MMC-nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

**ÜNVANIMIZ:**
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3519
SİFARİŞ 2324
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Nurlan ABDALOV
Çapa imzalanmışdır 00:00